International Organization for Migration (IOM)
Beynəlxalq Miqrasiya Təşkilatı (BMqT)

UNDP
Empowered lives.
Resilient nations.

# AZƏRBAYCANDAN KƏNARDA İŞLƏYƏN VƏ YAŞAYAN AZƏRBAYCANLI MİQRANTLARIN AZƏRBAYCANDA QALAN HƏYAT YOLDAŞLARI VƏ DİGƏR AİLƏ ÜZVLƏRİNİN VƏZİYYƏTİ

## haqqında Tədqiqata dair Hesabat

## Səmərəli sosial-iqtisadi yardım məqsədilə vəziyyətin təhlili və tövsiyələrin verilməsi

**BEYNƏLXALQ MİQRASİYA TƏŞKİLATI**

**Bakı şəhəri**

**2013-cü il**

Beynəlxalq Miqrasiya Təşkilatı (BMqT) miqrantlara və cəmiyyətlərə fayda verən miqrasiya prosesinin humanist və nizamlı şəkildə təşkili prinsipinə aid müvafiq öhdəliklərinə sadiqdir. BMqT hökumətlərarası təşkilat olaraq, miqrasiya sahəsində operativ şəkildə yaranan təhdidlərin aradan qaldırılması işində müvafiq köməyin göstərilməsi, miqrasiya məsələlərinin mənimsənilməsinin qabaqcıl şəkildə təşkili, miqrasiya prosesləri vasitəsilə sosial-iqtisadi inkişaf üçün lazımi şəraitin yaradılması, həmçinin miqrantların ləyaqət və rifahının təmin edilməsi istiqamətində beynəlxalq cəmiyyətdəki partnyorları ilə birlikdə müvafiq fəaliyyətləri həyata keçirir.

---

Bu Hesabat “Azərbaycanda gender tədqiqatlarına dəstək” Proqramı əsasında Birləşmiş Millətlər Təşkilatı İnkişaf Proqramının (BMTİP) maliyyə dəstəyilə BMqT tərəfindən həyata keçirilmiş *“Azərbaycandan kənarda işləyən və yaşayan azərbaycanlı miqrantların uzun müddət və ya mütəmadi əlaqə saxlamadıqları Azərbaycanda qalan həyat yoldaşları və digər ailə üzvlərinin vəziyyəti haqqında biliklərin artırılması və onların hazırki sosial-iqtisadi inkişafı ilə bağlı vəziyyətlərinin öyrənilməsi”* Layihəsinin məntiqi nəticəsidir.

BMqT-nin Azərbaycan Respublikasındakı Nümayəndəliyinin əlaqələndirdiyi tədqiqat yuxarıda qeyd olunan Layihə çərçivəsində beynəlxalq ekspert Diana Cheianu-Andrei və milli hüquq eksperti Sahib Məmmədov tərəfindən həyata keçirilmişdir.

Hesabatda verilmiş təhlillər və nəticələr, həmçinin burada ifadə olunmuş izahlar və qənaətlər müəlliflərə məxsusdur və heç bir halda BMqT-nin və BMTİP-in rəsmi mövqeyi kimi qəbul edilə bilməz.

---

Naşir:
BMqT-nin Azərbaycan Respublikasındakı Nümayəndəliyi
Azərbaycan Respublikası, Bakı şəhəri, AZ 1069, Yaşar Hüseynov küç. 18
Tel: +994 12 4659071/72
Faks: +994 12 4659073
E-poçt: iombaku@iom.int
Veb-səhifə: www.iom.int, www.iom.az

***Hesabat BMqT tərəfindən rəsmi şəkildə redaktə olunmadan dərc edilmişdir.***

© Beynəlxalq Miqrasiya Təşkilatı (BMqT), 2013-cü il

Bütün hüquqlar qorunur. Bu publikasiyanın heç bir hissəsi BMqT-nin və BMTİP-in müvafiq razılığı olmadan yenidən dərc edilə, digər informasiya sistemlərində saxlanıla, istənilən formada və ya elektron, mexaniki, surətçıxarma, yazma və ya digər vasitələrlə ötürülə bilməz.

# M Ü N D Ə R İ C A T

**MİNNƏTDARLIQ** ... 4

**DİAQRAMLARIN SİYAHISI** ... 5

**CƏDVƏLLƏRİN SİYAHISI** ... 6

**XÜLASƏ** ... 7

**GİRİŞ** ... 11

**TƏDQİQATIN METODOLOGİYASI** ... 13

**TƏDQİQATLA BAĞLI MƏHDUDİYYƏTLƏR** ... 13

**I. AZƏRBAYCAN RESPUBLİKASINDA MİQRASİYA PROSESLƏRİ: TENDENSİYALAR VƏ XÜSUSİYYƏTLƏR (köməkçi mənbələrin nəzərdən keçirilməsi)** ... 14

1.1. SSRİ-nin süqutundan sonra baş verən miqrasiya mərhələləri və axınları ... 14

1.2. Emiqrasiyaya aid məlumatlar və statistik rəqəmlər ... 15

1.3. Pul köçürmələri ... 16

1.4. Miqrasiya sahəsində aparılmış əvvəlki tədqiqatlar ... 18

1.5. Miqrantların profilləri ... 18

1.6. Əmək miqrasiyasının ailələrə təsiri ... 19

**II. XARİCDƏKİ AZƏRBAYCANLI MİQRANTLARIN AZƏRBAYCANDA QALAN HƏYAT YOLDAŞLARININ VƏ DİGƏR AİLƏ ÜZVLƏRİNİN SƏCİYYƏVİ XÜSUSİYYƏTLƏRİ, PROBLEMLƏRİ VƏ EHTİYACLARI** ... 21

2.1. Azərbaycanlı miqrantların vətəndə qalan həyat yoldaşları və digər ailə üzvlərinin profilləri ... 21

2.2. Kişilərin miqrasiya təcrübəsi və onların xaricdəki vəziyyəti ... 24

2.3. Qadınların xaricdə işləyən miqrant ərləri ilə əlaqə saxlaması ... 26

2.4. Xaricdəki azərbaycanlı kişi miqrantlar tərəfindən Azərbaycanda qalan ailələrinə göstərilən yardım və bu ailələrin vəziyyəti ... 27

2.5. Kişilərin miqrasiyasının öz həyat yoldaşları üçün fəsadları ... 31

2.6. Xaricdəki azərbaycanlı miqrantların Azərbaycanda qalan uşaqları və yaşlı ailə üzvləri və onların sosial inteqrasiyası ... 34

2.7. Kişilərin miqrasiyasının öz ailələri üçün fəsadları ... 39

2.8. Gələcək planlar ... 41

2.9. Xaricdəki azərbaycanlı miqrantların Azərbaycanda qalan həyat yoldaşları və uşaqları üçün tələb olunan yardım ... 43

**III. AZƏRBAYCAN RESPUBLİKASININ QANUNVERİCİLİYİNƏ ƏSASƏN ƏMƏKÇİ MİQRANTLARIN HƏYAT YOLDAŞLARININ HÜQUQİ VƏZİYYƏTİ** ... 45

3.1. Nikaha xitam verilməsi ... 46

3.2. Əmlak bölgüsü ... 48

3.3. Sosial müdafiə və yardım ... 49

3.4. Xaricə getmək istəyən azyaşlılarla bağlı problemlər ... 50

**IV. XARİCDƏKİ AZƏRBAYCANLI MİQRANTLARIN AZƏRBAYCANDA QALAN HƏYAT YOLDAŞLARI VƏ UŞAQLARININ MÜDAFİƏSİ İLƏ BAĞLI SİYASƏTDƏ VƏ YARDIM MEXANİZMLƏRİNDƏ BOŞLUQLAR** ... 51

4.1.Gender bərabərliyi və qadın hüquqlarının müdafiəsi ... 51

4.2. Hədəf qrupu üçün müdafiə siyasəti və tədbirlərilə bağlı mövcud vəziyyət ... 52

**YEKUN VƏ TÖVSİYƏLƏR** ... 54

**ƏDƏBİYYAT** ... 57

**ƏLAVƏ** ... 59

# MİNNƏTDARLIQ

Bu Hesabat "Azərbaycanda gender tədqiqatlarına dəstək" Proqramı əsasında Birləşmiş Millətlər Təşkilatı İnkişaf Proqramının (BMTİP) maliyyə dəstəyilə BMqT tərəfindən həyata keçirilmiş *"Azərbaycandan kənarda işləyən və yaşayan azərbaycanlı miqrantların uzun müddət və ya mütəmadi əlaqə saxlamadıqları Azərbaycanda qalan həyat yoldaşları və digər ailə üzvlərinin vəziyyəti haqqında biliklərin artırılması və onların hazırki sosial-iqtisadi inkişafı ilə bağlı vəziyyətlərinin öyrənilməsi"* Layihəsinin məntiqi nəticəsidir. BMqT tərəfindən bu cür, həddindən artıq əhəmiyyətli layihənin həyata keçirilməsi BMTİP-in müfəssəl töhfələri və dəstəyilə mümkün olmuşdur. Layihənin icrası nəticəsində həyata keçirilmiş tədqiqata dair hesabat müvafiq hədəf qruplarının vəziyyətini faktlar əsasında nümayiş etdirir və ehtiyacı olan əlaqədar qadın və uşaqların yaşayış şəraitinə təsir edən problemlərin təxirəsalınmaz və praktiki həlli istiqamətində istifadə edilə biləcək hüquqi yardım vasitələrini özündə əks etdirir.

BMqT tədqiqatda iştirak etmiş hər bir qadınla əməkdaşlığı yüksək qiymətləndirir və onlara dəstək vermiş yerli icra hakimiyyəti orqanlarına və bələdiyyələrə təşəkkür edir. Onların töhfələri və dəstəyi olmadan bu hesabatın ərsəyə gəlməsi qeyri-mümkün idi.

Sonda biz öz dəyərli təcrübələrini, rəylərini və tövsiyələrini əsirgəməmiş Qafqaz Tədqiqat Resurs Mərkəzindən (QTRM-Azərbaycan) xanım Yuliya Əliyevaya, Gender və İnkişaf Məsələləri üzrə konsultant xanım Aysel Vəzirovaya, BMTƏF-in Azərbaycan Respublikasındakı Ölkə Nümayəndəliyindən xanım Bəhicə Əliyevaya və Rasional İnkişaf uğrunda Qadınlar Cəmiyyətindən (RİQC) xanım Şəhla İsmayıla xüsusi minnətdarlığımızı bildiririk.

BMqT sözügedən tədqiqatın hədəf qruplarına aid şəxslərin hüquqlarının müdafiəsi işinin bundan sonra da əhəmiyyətli dərəcədə təkmilləşdirilməsini təmin etmək məqsədilə əlaqədar sahələrdə və münasib tədbirlərlə bağlı növbəti müfəssəl tədqiqatlar keçirmək arzusundadır.

# DİAQRAMLARIN SİYAHISI

Diaqram 1. Xaricdə daimi yaşayış məqsədilə Azərbaycan Respublikasından emiqrasiya (min nəfər)
Diaqram 2. Mənşə ölkələrinə göndərilən pul köçürmələri (ÜDM-ə faiz nisbəti)
Diaqram 3. Tədqiqatda iştirak etmiş qadınların inzibati rayonlar üzrə bölgüsü
Diaqram 4. Sorğu üçün seçilmiş ailələrin tərkibi
Diaqram 5. Kişilərin nikahdan sonra ilk dəfə xaricə getməsi (illər üzrə)
Diaqram 6. Kişilərin nikahdan sonra 3 aydan çox müddətə xaricə getmə hallarının sayı
Diaqram 7. Xaricdə işləyən azərbaycanlı miqrantın öz ailə üzvləri ilə son dəfə nə vaxt əlaqə saxladığı hallar
Diaqram 8. Öz ailəsi ilə əlaqələr kontekstində miqrant tərəfindən evə göndərilən pul köçürmələri
Diaqram 9. Xaricdəki azərbaycanlı miqrantlar tərəfindən Azərbaycanda qalan ailələrinə pulların hansı tezliklə göndərilməsi
Diaqram 10. Tədqiqatda iştirak etmiş ailələrin gəlir səviyyəsi
Diaqram 11. Pul köçürmələrinin müvafiq ailələr tərəfindən istifadəsi
Diaqram 12. Xaricdəki azərbaycanlı miqrantların Azərbaycanda qalan ailələrinin qonşu ailələrlə müqayisədə maddi vəziyyəti
Diaqram 13. Xaricdəki azərbaycanlı miqrantların Azərbaycanda qalan həyat yoldaşlarının səhhətilə bağlı vəziyyət (yaş qrupları üzrə)
Diaqram 14. Azərbaycanlı miqrantların həyat yoldaşlarının xaricə getmə səbəbləri
Diaqram 15. Azərbaycanda qalan qadınların xaricdəki azərbaycanlı miqrant ərlərinin qohumları ilə münasibətlərinin səviyyəsi
Diaqram 16. Xaricdəki azərbaycanlı miqrantların Azərbaycanda qalan uşaqlarının doğum illəri üzrə bölgüsü
Diaqram 17. Xaricə nə vaxt getməsindən asılı olaraq orada işləyən azərbaycanlı miqrantların öz uşaqları ilə hansı dərəcədə maraqlanması
Diaqram 18. Xaricdəki azərbaycanlı miqrantların Azərbaycanda qalan həyat yoldaşları tərəfindən öz uşaqlarının sağlamlıq səviyyəsinin qiymətləndirilməsi
Diaqram 19. Keçmiş bir il ərzində anaların öz uşağını/uşaqlarını qidalandıra bilməməsi və ya gündə bir dəfə qidalandırma halları
Diaqram 20. Ailənin yaşlı üzvləri tərəfindən göstərilən kömək
Diaqram 21. Ailənin yaşlı üzvlərinin maddi vəziyyətinin sorğuda iştirak edən qadınlar tərəfindən təsvir edilməsi
Diaqram 22. Xaricdəki azərbaycanlı miqrantların Azərbaycanda qalan həyat yoldaşları tərəfindən miqrasiya təzahürlərinin qiymətləndirilməsi
Diaqram 23. Xaricdəki azərbaycanlı miqrantların Azərbaycanda qalan həyat yoldaşlarına əsasən əlaqədar ailələrin gələcək planları
Diaqram 24. Xaricdəki azərbaycanlı miqrantların planları barədə onların Azərbaycanda qalan həyat yoldaşlarının məlumatlı olması
Diaqram 25. Xaricdəki azərbaycanlı miqrantların Azərbaycanda qalan həyat yoldaşları üçün tələb olunan yardım

# CƏDVƏLLƏRİN SİYAHISI

Cədvəl 1. Azərbaycan Respublikasının əhalisi və onun iqtisadi fəallığı
Cədvəl 2. Azərbaycan Respublikasından Rusiya Federasiyasına miqrasiya (2008-2011-ci illər üzrə)
Cədvəl 3. Xaricdəki azərbaycanlı miqrantların Azərbaycanda qalan həyat yoldaşları və digər ailə üzvlərinin qısa xarakteristikası
Cədvəl 4. Azərbaycanlı miqrantların Azərbaycandan getməsi və Azərbaycana qayıtması müddətləri
Cədvəl 5. Ərləri xaricə işləmək üçün getməzdən əvvəl və getdikdən sonra onların həyat yoldaşlarının məşğulluq vəziyyəti
Cədvəl 6. Miqrasiyanın ailəyə təsiri
Cədvəl 7. Xaricdəki azərbaycanlı miqrantların Azərbaycanda qalan həyat yoldaşlarının üzləşdikləri problemlər

# XÜLASƏ

Azərbaycanda əmək miqrasiyası ilə bağlı müəyyən səciyyəvi xüsusiyyətlər müşahidə olunur. Mövcud miqrasiya proseslərində əsasən kişilər iştirak edirlər, qadınlar isə öz uşaqlarını böyütmək və onlara təhsil vermək, həmçinin ailənin yaşlı üzvlərinə baxmaq üçün ölkədə qalmalı olurlar. Kişilərin Azərbaycandan kənarda işləmək üçün miqrasiyasının əsas məqsədi ailənin maddi vəziyyətinin yaxşılaşdırılmasından ibarətdir. Bu cür emiqrasiya xüsusən də bölgələrdə iş yerlərinin çatışmazlığından irəli gəlir və şübhəsiz istər əlaqədar miqrantlar, istərsə də onların ölkədə qalan ailələri üçün müəyyən risklər yaradır.

Kişilər işləmək məqsədilə xaricə miqrasiya etdikdə onların həyat yoldaşlarının üzərinə artıq mövcud olanlarla yanaşı yeni və əlavə vəzifələr düşür. Bu sözügedən miqrasiyanın yalnız bir aspektidir. Miqrasiyanın digər daha mürəkkəb aspekti xaricdəki azərbaycanlı miqrantların ölkədə qalan ailələrilə əksər hallarda əlaqə saxlamamaları və nadir hallarda onlara baş çəkmələri faktı ilə əlaqədardır. Bundan başqa, bu cür miqrantların bəziləri Azərbaycanda qalan ailə üzvlərinə maddi yardım göstərmirlər.

Ölkədə qalan ailələr üçün yararlı yardım vasitələri və konkret faktlara əsaslanan sosial müdafiə mexanizmlərini təklif etmək məqsədilə bu kateqoriyaya aid insanların konkret ehtiyaclarını öyrənmək lazımdır. Bununla əlaqədar olaraq, BMqT xaricdəki azərbaycanlı miqrantların Azərbaycanda qalan həyat yoldaşlarının və digər ailə üzvlərinin hüquqlarının müdafiəsi işini və yaşayış şəraitini yaxşılaşdırmaq[1]; əlaqədar hədəf qrupunun mövcud vəziyyəti barədə qərar qəbul edənlər tərəfindən məlumatların daha da yaxşı mənimsənilməsinə və onlarda müvafiq siyasətdəki mövcud boşluqlar haqqında biliklərin artırılmasına nail olmaq; sözügedən miqrantların Azərbaycanda qalan ailə üzvləri üçün hüquqi yardımın göstərilməsi işini təkmilləşdirmək və bu cür yardımdan istifadə yolları haqqında bilikləri artırmaq məqsədilə müfəssəl bir tədqiqatın həyata keçirilməsinə nail olmuşdur.

*Xaricdəki azərbaycanlı miqrantların Azərbaycanda qalan həyat yoldaşları və ailə üzvlərinin vəziyyətinə* dair tədqiqat əsasında miqrasiyaya şərait yaradan həlledici amillərin iş yerlərinin çatışmazlığından və gündəlik ehtiyacların ödənilməsi üçün maddi imkanların mövcud olmamasından ibarət olduğu müəyyən edilmişdir.

Miqrantların ev təsərrüfatları ilə bağlı profillərinin təhlili göstərir ki, kişilərin işlə bağlı miqrasiyası istər azsaylı, istərsə də çoxsaylı (4-6 nəfərdən ibarət) və eyni zamanda azsaylı və ya geniştərkibli ailələrə təsirsiz ötüşmür. Bu cür miqrantların böyük əksəriyyətinin[2] yaşı 18-dən aşağı olan uşaqları var (56 ailədən 50-də) və həmin uşaqlar Azərbaycanda öz anaları ilə qalırlar.

Kişilərin miqrasiya prosesinin çoxsaylı, həm müsbət, həm də mənfi fəsadları mövcuddur. Müsbət məsələlər arasında bəzi miqrant ərlərin öz ailələri üçün pul köçürmələrinin əhəmiyyətini, həmçinin qadınların Azərbaycan cəmiyyətində səlahiyyətlərinin artırılmasını qeyd etmək olar. Mənfi fəsadlar isə daha müxtəlif xarakterlidir: ailə üzvlərilə əlaqələrin itməsi, bəzi miqrantlar tərəfindən öz ailə üzvlərinə heç bir maddi yardımın göstərilməməsi, ataların öz uşaqlarının təhsili və tərbiyəsində iştirak etməməsi, ərlə arvadın ayrı yaşaması və ya boşanması.

---

[1] “Xaricdəki azərbaycanlı miqrantların Azərbaycanda qalan və ya Azərbaycanda tərk edilmiş həyat yoldaşlarından (arvadları) və digər ailə üzvlərindən (uşaqları və yaşlı qohumları)” ibarət terminlər bu hesabatda bir-birini əvəz etməklə istifadə olunur. “Azərbaycanda qalan” termini nisbətən neytral xarakter daşıdığından hesabatda daha tez-tez istifadə olunur. Qadınların heç də hamısının öz ərlərinin miqrasiyası ilə bağlı qərarın qəbul edilməsindən kənarda qalmadığını nəzərə alsaq “Azərbaycanda tərk edilmiş” termini çox mənfi səslənir. Eyni zamanda “tərk edilmiş” sözü müvafiq vəziyyəti həmişə düzgün əks etdirmir, çünki öz ərlərinin miqrasiya etməsi nəticəsində qadınların hamısının tərk edildiyini hesab etmək olmaz. Belə qadınların çoxu öz miqrant ərlərilə mütəmadi əlaqə saxlayırlar.

[2] Bu hesabatda “miqrant” termini adətən yaşadıqları ölkəni ən azı 3 aya tərk etmiş insanları nəzərdə tutur.

Miqrant ərlərin uzun müddət ərzində əlaqə saxlamaması azərbaycanlı ailələr üçün xüsusi bir çətinlikdir. Yalnız miqrantların bəziləri Azərbaycanda qalan ailə üzvlərilə adətən mobil və ya adi telefon vasitəsilə müntəzəm olaraq əlaqə saxlayırlar. Azərbaycanlı miqrantlar elektron poçtdan, "Skype"-dan, sosial şəbəkələrdən müxtəlif səbəblərə və əsasən də onların ailələrində kompüter və internetə çıxış olmadığına görə istifadə etmirlər. İnformasiya texnologiyaları dövründə əlaqələrin olmaması və ya bu əlaqələrin çox nadir hallarda yaradılması miqrantların rabitə xidmətləri üçün ödənişlər etmək iqtidarında və yaxud Azərbaycanda qalan ailə üzvlərilə əlaqə saxlamaq istəyində olmadıqlarını nümayiş etdirir. Bunun nəticəsində qadınlar öz miqrant ərlərinin vəziyyəti, xüsusən də onların harada yaşaması və işləməsi barədə çox bəsit məlumatlara malik olurlar.

Azərbaycan qadınlarının üzləşdiyi digər bir problem, xüsusilə, kənd yerlərində onların üzərinə düşən çoxsaylı ağır fiziki işlərlə əlaqədardır. Qadınlar ev təsərrüfatlarını təkbaşına idarə etməli olurlar. Onlar sırf qadınlara xas olan işləri görməklə yanaşı, adətən kişilər tərəfindən aparılan işlərin necə görüldüyünü, ailə büdcəsinin idarə olunmasını və ictimai əlaqələrin saxlanmasını öz ərlərinin yoxluğunda öyrənməli və çoxsaylı qərarlar qəbul etməli olurlar. Yaranmış vəziyyət qadınları öz üzərlərinə yeni bir vəzifəni, qərar qəbul etmək vəzifəsini götürməyə məcbur etməklə icma üzvləri arasında onların statusunu artırır. Lakin miqrant ərlərin qohumları tərəfindən artan nəzarət, bununla yanaşı yerli icma tərəfindən göstərilən psixoloji təzyiq tək yaşayan qadınlara qarşı nəzakətsiz münasibətin hələ də mövcud olduğunu göstərir.

Tədqiqat nəticəsində əldə olunmuş məlumatlar xaricdəki azərbaycanlı miqrantların Azərbaycanda qalan ailələrinin sosial-iqtisadi vəziyyətinin ağır olduğunu göstərir: bu cür ailələr öz əsas gündəlik ehtiyaclarını ödəmək üçün maddi vəsaitin çatışmazlığından əziyyət çəkirlər. Tədqiqatda iştirak etmiş ailələrin böyük əksəriyyəti yoxsulluq həddindən aşağı səviyyədə yaşayır[3] (Rəsmi məlumatlara əsasən[4] 2012-ci ildə Azərbaycan üzrə yaşayış minimumu 108 manat, həmçinin əmək qabiliyyətli əhali üçün 116, pensiyaçılar üçün 84 və uşaqlar üçün 87 manat təşkil etmişdir). Tədqiqatda iştirak etmiş qadınların yalnız dörddə biri uşaqlarının qidalandırılması üçün heç nə əldə edə bilməmələrindən ibarət bir vəziyyətlə rastlaşmadığını bildirdiyi halda, digər qadınlar hər həftə və ya hər ay və yaxud ildə bir neçə dəfə bu cür vəziyyətə düşdüklərini bəyan etmişdilər. Bu həmin qadınların öz miqrant ərlərindən demək olar ki, heç bir maddi yardım almaması faktı ilə izah olunur. Tədqiqat zamanı aparılan sorğuda iştirak etmiş 56 ailədən yalnız 22-də qadınlar xaricdə işləyən ərlərindən pul köçürmələri aldıqlarını bildirmişdirlər. Bu köçürmələrin məbləği 3-300 manat arasında dəyişdiyindən sorğuda iştirak etmiş hər ailəyə orta hesabla 98 manat düşür. Bəzi, xüsusilə qadınların işləmədiyi ailələrdə pul köçürmələri ümumi ailə gəlirinin 100%-i, digər ailələrdə isə üçdə birini təşkil edir. Tədqiqat zamanı gəlir səviyyəsi sıfıra bərabər olan ailələrə də rast gəlmək olardı.

Eyni zamanda, qeyd olunmalıdır ki, bəzi kişi miqrantlar Azərbaycanda qalan ailə üzvlərinə pul göndərsələr də, bu mütəmadi xarakter daşımır. Sorğu ilə əhatə olunmuş miqrantların yarısı ildə bir və ya iki dəfə, üçdə biri bir neçə aydan bir, qalanları isə hər ay evə pul göndərir.

Pul köçürmələri müvafiq ailə tərəfindən əsasən gündəlik ehtiyacların ödənilməsi üçün istifadə edilir və çox az bir hissə tibbi xidmətlərin göstərilməsinə və uşaqların təhsilinə sərf olunur. Öz ailələrinə barat və bağlamaların göndərilməsi Azərbaycandan olan miqrantlara xas deyil: yalnız dörd miqrant Azərbaycanda qalan ailə üzvlərinə müəyyən mallar göndərir. Bütün bunların nəticəsində baş vermiş miqrasiya müvafiq miqrant ailələrinin yaşayış səviyyəsini əhəmiyyətli dərəcədə dəyişmir. Ölkə üzrə digər ailələrlə müqayisədə xaricdəki miqrantların Azərbaycanda qalan ailələri çox az rahatlıqlara və ev ləvazimatlarına malikdirlər.

---

[3] Tədqiqat zamanı aparılan müsahibələrdə iştirak etmiş qadınların yarısından çoxunun aylıq gəliri mövcud yaşayış minimumunun təxminən 25%-ə bərabər idi. Bu faiz nisbəti 2012-ci ildə Azərbaycan Respublikasında adambaşına düşən yaşayış minimumu (http://en.apa.az/news/181046) və aparılan müsahibələrdə iştirak etmiş ailələr tərəfindən barəsində məlumat verildiyi aylıq əmək haqqı əsasında hesablanmışdır.

[4] http://en.apa.az/news/181046.

Pul köçürmələri məbləğinin az olması və bu köçürmələrin nadir hallarda baş verməsi qadınları ailələrindən kənarda iş axtarmağa məcbur edir, lakin onların savadsızlığı və ya hansısa peşə bacarıqlarının olmaması işə düzəlmələrinə ciddi şəkildə maneçilik edir. Tədqiqat öz ailəsini maddi cəhətdən təmin etmək məqsədilə iş axtarmaq üçün hər on qadından birinin evdar qadın kimi qalmaq istəmədiyini, lakin yalnız bir qadının əmək müqaviləsi əsasında işə götürüldüyünü müəyyən etmişdir.

Azərbaycanda qalan qadınların üzləşdiyi əsas problemlərdən biri belə bir faktdan ibarətdir ki, bəzi miqrant ərlər Azərbaycanda boşanmadan məskunlaşdıqları təyinat ölkəsində yeni ailə qurmağa müyəssər olurlar. Sorğuda iştirak etmiş ekspertlər hesab edirlər ki, bu problemin kökünü Azərbaycanda mövcud olan və sözügedən miqrantların anaları tərəfindən "razılaşdırılmış nikahlarda", adət-ənənələrdə və dini baxışlarda axtarmaq lazımdır. Digər səbəblər bu cür miqrantların məskunlaşdığı təyinat ölkələrində müşahidə olunan sosial-iqtisadi şəraitlə - daha yaxşı məşğulluq imkanları ilə, onların adət-ənənələrdən azad olan cəmiyyətdə yaşamaları ilə, onlara yaxın qohumlar tərəfindən təzyiqlərin azalması və s. ilə əlaqədardır.

Qadınların böyük əksəriyyəti miqrasiyanın ailədaxili əlaqələri dağıdan bir element olduğunu əminliklə qeyd edir, baxmayaraq ki, bu proses, nisbətən az dərəcədə ailənin maddi imkanlarının yaxşılaşmasına da şərait yaradır. Həmin qadınlar xaricə getmiş insanlara yaxın ola bilməmələri səbəbindən miqrasiyanı onlara əzab-əziyyət gətirən bir fenomen kimi qələmə verirlər. Miqrasiya onların heç kimlə bölüşmək istəmədikləri mənfi bir təcrübənin əmələ gəlməsinə gətirib çıxarır.

Miqrasiya və əlaqələrin olmaması sözügedən miqrantların Azərbaycanda qalan həyat yoldaşları ilə yanaşı, uşaqlarına da mənfi təsir göstərir, çünki onların ata dəstəyi və münasibətinə ehtiyacı var. Eyni zamanda, belə uşaqlardan bəziləri əvvəllər ev təsərrüfatlarında onların atalarına məxsus olmuş vəzifələri öz üzərlərinə götürürlər (kənd təsərrüfatı işlərilə məşğul olma, mal-qaraya baxma, iş tapma və s.). Bu isə təhsilə, oyuna və istirahətə ayrılan vaxtın azalmasına gətirib çıxarır. Bununla əlaqədar olaraq, bu cür ailələrdən olan uşaqlar təhsildə yaxşı nailiyyətlər əldə etmək və ya gələcək sosial fəallıqları üçün təhsildən lazımı qaydada faydalanmaq üçün nisbətən az imkanlara malik olurlar.[5]

Aparılmış sorğu nəticəsində əldə olunan məlumatlar xaricdəki azərbaycanlı miqrantların Azərbaycanda qalan həyat yoldaşlarının bəzilərinin yaşlı ailə üzvlərinə də baxdığını nümayiş etdirir. Əksər hallarda ailənin yaşlı üzvləri belə qadınlara kömək edir (ev işlərini görür, ailəyə maddi yardım edir, uşaqlara baxır və s.) və ya bəzən həmin qadınlar onlara kömək edirlər. Nadir hallarda ailənin yaşlı üzvləri Azərbaycanda qalan müvafiq ailələrə heç bir köməklik göstərmirlər.

Azərbaycana xas olan digər vacib bir məsələ gender bərabərliyi ilə qəbul olunmuş əlaqədar qanunlar arasında mövcud olan uyğunsuzluqlarla və insanların çox ləng dəyişən mentalitetilə əlaqədardır. Gender bərabərliyi və qadınların hüquqları kontekstində Azərbaycan Respublikası qadınların hüquqlarının müdafiə olunması, həmçinin gender ayrı-seçkiliyinin bütün formalarını ləğv etməklə və bərabər imkanlar yaratmaqla gender bərabərliyinin təmin edilməsi məqsədi daşıyan tədbirləri nəzərdə tutan mühüm addımlar atmışdır ("Qadınlara qarşı ayrı-seçkiliyin bütün formalarının ləğv edilməsi haqqında" Konvensiya,"Qadınların siyasi hüquqları haqqında" Konvensiya, "Nikaha daxil olma, nikaha daxil olmaq üçün minimal yaş həddi, nikahların qeydə alınması haqqında" Konvensiya, "Gender (kişi və qadınların) bərabərliyinin təminatları haqqında" Qanun kimi hüquqi sənədlər qəbul edilmişdir). Lakin faktiki olaraq gender bərabərliyi xüsusən də kənd yerlərində müşahidə olunmur.

Bir çox halda mövcud stereotiplər qadınların hüquqlarının pozulması ilə nəticələnir. Ailədaxili və dini adət-ənənələr gender siyasətinin həyata keçirilməsi istiqamətində, xüsusilə də qadınlara böyük təsir göstərən kənd icmalarında əsas maneələrdən hesab olunur.

---

[5] Burada sosial dəyişiklik anlayışı insanların cəmiyyətdə tutduğu mövqelərində baş verən dəyişikliyi (bir işdən başqa işə, bir sosial qrupdan və ya təbəqədən digərinə keçmə), həmçinin ailələr daxilində nəsillərin statusunda müşahidə olunan dəyişiklikləri özündə əks etdirir. Bu cür dəyişiklik şaquli (insanların bir sosial-iqtisadi səviyyədən daha yüksək və ya aşağı səviyyəyə keçməsi) və ya üfqi şəkildə (eyni sosial səviyyədə olan bir mövqeydən digərinə keçid) baş tuta bilər.

Çox az sayda qadın bildirmişdir ki, onların ərləri gələcək planlarını qurarkən həmin qadınların da fikrini soruşur. Qadınların çoxu öz ərlərinin gələcək niyyətləri barədə xəbərsizdir. Həmin qadınların böyük əksəriyyəti öz ərlərinin planları haqqında qohumlarından, tanışlarından və ya başqa mənbələrdən öyrənirlər və yalnız bəziləri bu barədə ərlərindən xəbər alırlar.

Xaricdəki azərbaycanlı kişi miqrantların Azərbaycanda qalan həyat yoldaşları hətta bir neçə il ərzində heç bir məlumat almadıqda belə onlardan yalnız bəziləri ərlərindən artıq ayrı yaşadıqlarını və ya boşanmaq niyyətində olduqlarını bildirmişdir. Boşanma qadınlardan cəsarət tələb edən bir proses olduğundan, buna çox az sayda qadın əl atır, çünki onlar bunu etdikdən sonra bu cür əməlləri bəyənməyən icmanın təziyiqilə üzləşməli olacaqlar.

Aparılmış tədqiqat zamanı müəyyən olunmuşdur ki, kişilərin iş məqsədilə xaricə miqrasiyası, onlarla əlaqənin olmaması və vətəndə qalan ailə üzvlərinə heç bir maddi yardımın göstərilməməsi ailənin çox vacib (iqtisadi, psixoloji, sosial nəzarət) funksiyalarına mənfi təsir göstərərək qadınlarla yanaşı ailədəki uşaqları da əhatə edir. Ailənin birliyi və bütövlüyünü təmin etmək məqsədilə Azərbaycan Respublikasında işlənib hazırlanan müvafiq miqrasiya siyasətlərində kişilərin xaricə miqrasiyası nəticəsində onların ölkədə qalan ailələrinin vəziyyəti nəzərə alınmalıdır. Belə bir spesifik qrupa aid ailələrin ehtiyacları əlaqədar miqrasiya siyasətlərinə daxil edilməlidir, çünki müəyyən şəraitdə bu qrup risk qrupuna çevrilə bilər və hal-hazırda müşahidə olunan ərlərin miqrasiya modeli uzunmüddətli mənfi fəsadlarla nəticələnə bilər ki, bu fəsadlar da indidən nəzərə alınaraq minimal bir səviyyəyə endirilməlidir.

Müvafiq sorğu nəticəsində əldə olunan məlumatlar xaricdəki azərbaycanlı miqrantların Azərbaycanda qalan həyat yoldaşları və uşaqları üçün nəzərdə tutulmuş hər hansı bir formada sosial yardım və ya dəstəyin Azərbaycan Respublikasında hal-hazırda mövcud olmadığını nümayiş etdirir. Tədqiqat əsasında müəyyən olunmuşdur ki, indiki zamanda sözügedən miqrantların Azərbaycanda qalan həyat yoldaşları və uşaqları heç bir dövlət orqanı və ya QHT tərəfindən hədəfə götürülmüş xüsusi bir qrup kimi nəzərə alınmır və bu nöqteyi-nəzərdən BMqT-nin Azərbaycan Respublikasındakı Nümayəndəliyi tərəfindən həyata keçirilmiş *"Azərbaycandan kənarda işləyən və yaşayan azərbaycanlı miqrantların uzun müddət və ya mütəmadi əlaqə saxlamadıqları Azərbaycanda qalan həyat yoldaşları və digər ailə üzvlərinin vəziyyəti haqqında biliklərin artırılması və onların hazırki sosial-iqtisadi inkişafı ilə bağlı vəziyyətlərinin öyrənilməsi"* Layihəsi bir müsbət istisnadır.

Müvafiq qanunvericilik aktları nəzərdən keçirilərkən öz miqrant ərlərilə faktiki əlaqəsi olmayan qadınların daha çox üzləşdiyi problemlərin nikahın pozulmasına, atanın razılığı olmadan uşağın xaricə göndərilməsinə, ünvanlı sosial yardımlardan faydalanmaya və birgə mülkiyyət hüququndan istifadə etməyə aid məsələlərlə əlaqədar olduğu müəyyənləşdirilmişdir.

Tədqiqatdan irəli gələn tövsiyələr müəyyən edilmiş spesifik ehtiyaclara əsaslanaraq müvafiq qanunvericilik aktlarına (Ailə Məcəlləsi) dəyişikliklərin edilməsi, bəzi müdafiə mexanizmlərinin tətbiq olunması (sözügedən ailələrin aidiyyəti sosial işçilər tərəfindən monitorinqi və qiymətləndirilməsi) və bu cür ailələrin üzvlərinə köməkliyin göstərilməsilə (məşğulluq məsələləri və hüquqi məsələlərlə bağlı məsləhətlərin verilməsi, zəruri təlim kurslarının keçirilməsi, tibbi konsultasiyaların göstərilməsi, sosial və/və ya psixoloji xidmətlərin təşkili və s.) əlaqədar bir sıra təklifləri özündə əks etdirir. Əmək miqrasiyası davam etməkdədir və bu prosesin mənfi təzahürlərinə Azərbaycan Respublikasının mərkəzi və yerli icra hakimiyyəti orqanlarının, həmçinin QHT-lərin biganə qalmaması və eyni zamanda ailələri qorumaq və bu cür miqrasiyanın mənfi fəsadlarını aradan qaldırmaq üçün bu təşkilatlar tərəfindən müvafiq tədbirlərin görülməsi çox vacibdir.

# GİRİŞ

Miqrantların və onların ailələrinin, həmçinin ölkələrin davamlı inkişafı üçün imkanlar və eyni zamanda risklər baxımından miqrasiya Azərbaycan Respublikası üçün bir mürəkkəb məsələ kimi qalmaqdadır. Bu günədək aparılmış tədqiqatlar miqrasiyanın çoxsaylı aspektlərini - miqrasiyanın profilləri və tendensiyalarını,[6] əmək miqrasiyasının dəyəri və faydasını,[7] emiqrasiyanın sosial təzahürlərini,[8] əmək miqrasiyasının qadınlar və uşaqlar üçün fəsadlarını[9] və s. əlaqədar məsələləri işıqlandırmışdır.

Əmək miqrasiyasının Azərbaycanda qalan miqrant ailələrinə təsiri baxımından bu ölkədə müəyyən səciyyəvi xüsusiyyətlər müşahidə olunmaqdadır. Əsasən kişilər ailə başçısı kimi öz ailəsinin vəziyyətini yaxşılaşdırmaq məqsədilə xaricə üz tutduğundan əmək miqrasiyası prosesində böyük üstünlük təşkil edirlər[10], qadınlar isə uşaqların böyüməsi və təhsil almasına, həmçinin öz valideynlərinin qayğısına qalmağa məsuliyyət daşımaqda davam edirlər.

Azərbaycan cəmiyyətində çoxsaylı ailədaxili və dini adət-ənənələr müşahidə olunsa da, aparılmış bir sıra tədqiqatlar azərbaycanlı miqrantların xaricdə qaldıqları zaman əksər hallarda öz ailələrilə əlaqə saxlamadıqlarını və bəzən heç bir maddi və ya iqtisadi dəstək göstərmədiklərini ön plana çəkmişdir.[11] Bütün bunları nəzərə alaraq BMqT kişilərin miqrasiyasının mənfi fəsadlarını azaldaraq müsbət təzahürlərini artırmaq üçün bu cür miqrasiyanın ailənin digər üzvlərinə (qadınlara, uşaqlara və yaşlılara) təsirini müfəssəl şəkildə təsvir etmək məqsədini öz qarşısına qoymuşdur.

*Azərbaycandan kənarda işləyən və yaşayan azərbaycanlı miqrantların uzun müddət və ya mütəmadi əlaqə saxlamadıqları Azərbaycanda qalan həyat yoldaşları və digər ailə üzvlərinin vəziyyətinə* dair tədqiqat sözügedən şəxslərin (qadınların, uşaqların və yaşlıların) vəziyyətini və çətinliklərini öyrənmək və bu cür hədəf qrupuna aid olan insanların hüquqlarının müdafiəsi və onlara hüquqi yardımın göstərilməsi işinin təkmilləşdirilməsi istiqamətində dövlət orqanlarına kömək göstərmək məqsədi daşıyırdı.

Tədqiqat qarşısında aşağıda verilmiş konkret vəzifələr qoyulmuşdur:

- Azərbaycanda miqrasiyaya aid müvafiq köməkçi mənbələri, ədəbiyyatı və statistik məlumatları təhlil etmək;
- Xaricdəki azərbaycanlı miqrantların Azərbaycanda qalan həyat yoldaşlarının və digər ailə üzvlərinin sosial-demoqrafik, iqtisadi və sosial xüsusiyyətlərini müəyyən etmək;
- Sözügedən ailələrdə mövcud vəziyyəti və miqrasiya təcrübəsini öyrənmək;
- Xaricdəki azərbaycanlı miqrantlar tərəfindən Azərbaycandakı ailə üzvlərinə göndərilən pul köçürmələrini və göstərilən yardımı qiymətləndirmək;
- Xaricdəki azərbaycanlı miqrantların Azərbaycanda qalan həyat yoldaşlarının ümumi vəziyyətini, ictimai əlaqələrini və səhhətilə bağlı vəziyyətini təhlil etmək;
- Xaricdəki azərbaycanlı miqrantların Azərbaycanda qalan digər ailə üzvlərinin (uşaqların və yaşlıların) vəziyyətini və sosial inteqrasiya səviyyələrini təhlil etmək;

---

6 BMqT *"Azərbaycan Respublikasında miqrasiya prosesləri: ölkə üzrə profillər"*. 2008-ci il.

7 SİAM, A. Allahverənov, E. Hüseynov *"Avropa Birliyi və Şərq Tərəfdaşlığı Ölkələri arasında əmək miqrasiyasının dəyəri və faydası: Azərbaycan üzrə Ölkə Hesabatı"*. 2013-cü il.

8 A. Allahverənov, R. Əliyeva, T. Sadıqov *"Mərkəzi və Şərqi Avropada miqrasiyanın və kənd-şəhər miqrasiyasının sosial təsiri. Azərbaycan üzrə Ölkə Hesabatı"*. Aprel 2012-ci il.

9 QTRM, Ə. Süleymanov *"Əmək miqrasiyasının Azərbaycan ailə təsərrüfatına təsiri"*.

10 Estoniya Qadın Tədqiqatları və Resurs Mərkəzi, İnsanların Harmonik İnkişafı Cəmiyyəti və TASO Fondu *"Cənubi Qafqazda miqrasiya prosesləri: Azərbaycan, Ermənistan, Gürcüstan. 2008-2009-cu illər üzrə sosioloji tədqiqatın nəticələri"*.

11 QTRM, Ə. Süleymanov *"Əmək miqrasiyasının Azərbaycan ailə təsərrüfatına təsiri"*.

- Xaricdəki azərbaycanlı miqrantların Azərbaycanda qalan həyat yoldaşlarının milli qanunvericiliyə əsasən hüquqi vəziyyətini araşdırmaq;
- Xaricdəki azərbaycanlı miqrantların Azərbaycanda qalan həyat yoldaşları və digər ailə üzvləri üçün nəzərdə tutulmuş siyasətdə və sosial müdafiə proqramlardakı boşluqları müəyyənləşdirmək;
- Müvafiq siyasət hazırlayanlar üçün strateji tövsiyələr təqdim etmək və müdaxilə tədbirləri təklif etmək.

Tədqiqat nəticəsində hazırlanmış hesabat Azərbaycan Respublikasının müvafiq yerli və mərkəzi orqanlarına, Parlament üzvlərinə, Azərbaycan diaspor təşkilatlarının nümayəndələrinə, beynəlxalq təşkilatlara (BMqT, BMTİP, BMTƏF, YUNİSEF və s.), həmçinin xaricdəki azərbaycanlı miqrantların Azərbaycanda qalan həyat yoldaşları və digər ailə üzvlərinin inkişafı imkanlarının yaxşılaşdırılmasında, hüquqlarının qorunmasında və sosial müdafiəsində maraqlı olan bütün tərəflərə ünvanlanıb.

Tədqiqat ərləri xaricə miqrasiya etmiş qadınlar, həmçinin xaricdəki azərbaycanlı miqrantların Azərbaycanda qalan həyat yoldaşları və uşaqlarına aid səciyyəvi hüquqi məsələlərlə məşğul olan müxtəlif mütəxəssislərə məxsus rəylərin toplanması və təhlili vasitəsilə həyata keçirilmişdir.

## TƏDQİQATIN METODOLOGİYASI

Tədqiqatın məqsədlərinə nail olmaq üçün ərləri miqrant olan və Azərbaycanda qalan qadınlarla əlaqədar mövcud statistik məlumatların, ədəbiyyatın və digər müvafiq köməkçi mənbələrin təhlilindən, keyfiyyət və kəmiyyət metodları vasitəsilə əsas empirik məlumatların toplanmasından və milli qanunvericiliyin təhlilindən ibarət çoxşaxəli metodoloji yanaşmadan istifadə etmək qərarı qəbul olunmuşdur.

Tədqiqatın aparılmasına iki ekspert cəlb olunmuşdur: beynəlxalq ekspert tədqiqat metodologiyasının işlənib hazırlanmasına, sorğu-anketlərinin tərtib olunmasına, mütəxəssislərlə ətraflı görüşlərin və əlaqədar qadınlarla fokus qruplarda müzakirələrin aparılması işinin istiqamətləndirilməsinə, toplanmış köməkçi və əsas məlumatların (sorğu, mütəxəssislərlə aparılmış ətraflı görüşlər və fokus qruplarda keçirilmiş müzakirələr nəticəsində) təhlil edilməsinə, həmçinin yekun hesabatın yazılmasına məsuliyyət daşıyırdı; milli ekspert isə müvafiq hədəf qrupuna aid şəxslərin sosial-iqtisadi hüquqlarının müdafiəsinə və onlara müvafiq hüquqi yardımın göstərilməsinə aid qanunvericilik bazasının nəzərdən keçirilməsinə cavabdeh idi və ondan tədqiqatla əhatə olunan uşaq və qadınların sosial-iqtisadi problemlərinin öyrənilməsi istiqamətində köməkliyin göstərilməsi xahiş olunmuşdur. BMqT-nin Azərbaycan Respublikasındakı Nümayəndəliyi öz üzərinə ümumi əlaqələndirici funksiyasını götürmüşdür: sorğu aparanların təlimatlandırılması və nəzərdə tutulmuş bölgələrdə sorğunun əlaqələndirilməsi.

Əsas ətraflı informasiya sorğu anketləri vasitəsilə toplanmışdır. Həmin sorğu anketləri icma rəhbərlərilə keçirilən məsləhətləşmələr zamanı (BMqT-nin Azərbaycan Respublikasındakı Nümayəndəliyinin ilk əlaqələri) müəyyənləşdirilmiş müvafiq qadınlarla BMqT əməkdaşları tərəfindən aparılmış standart "üz-üzə" müsahibələr zamanı tətbiq edilmişdir. Tədqiqat zamanı sorğu ilə nümunə kimi 200 müvafiq qadının əhatə olunması nəzərdə tutulsa da, məlumatlar Azərbaycan Respublikasının yalnız 6 rayonunu (Şəki, Yardımlı, Masallı, Şəmkir, Lənkəran və Goranboy) və 4 şəhərini (Bakı, Sumqayıt, Mingəçevir və Naftalan) təmsil edən ümumilikdə 56 respondentdən əldə edilmişdir. Tədqiqatın həyata keçirilməsi zamanı əsas çətinliklərdən biri yerli orqanlarla əməkdaşlıqdan ibarət idi. Yerli icra hakimiyyəti orqanlarının əksəriyyəti əməkdaşlığa açıq və aidiyyəti miqrant ailələrinə köməklik göstərmək üçün BMqT ilə birgə işləməyə hazır idi, lakin bəziləri belə ailələr barədə heç bir məlumata malik olmadıqlarını bildirərək bu işdə əməkdaşlıqdan yayınırdı.

Əldə olunmuş statistik məlumatların 11 aidiyyəti mütəxəssislə ətraflı görüş və sözügedən miqrantların həyat yoldaşları ilə 4 fokus qrup müzakirələrin aparılması zamanı toplanmış ətraflı informasiya ilə əlavə edilməsi planlaşdırılırdı. Lakin yuxarıda izah olunan çətinliklərə görə müxtəlif təşkilatları, vətəndaş cəmiyyətini və elmi dairələri təmsil edən yalnız 5 mütəxəssislə ətraflı görüş keçirilmişdir, hökumət təşkilatlarının nümayəndələri isə bu prosesdə iştirak etməmişdir (Əlavə 1-ə baxın: Görüşlər keçirilmiş mütəxəssislər haqqında məlumat).

## TƏDQİQATLA BAĞLI MƏHDUDİYYƏTLƏR

Tədqiqatla bağlı müəyyən məhdudiyyətlər mövcud idi ki, bunlar da müvafiq vəziyyətin əldə olunmuş nəticələr vasitəsilə ölkə səviyyəsində dolğun şəkildə əks etdirilməsi ilə əlaqədar idi. Bu müvafiq qadınlardan informasiyanın toplanması zamanı yaranan çətinliklərlə izah oluna bilər, çünki bir sıra yerli icra hakimiyyəti orqanı sözügedən ailələrin mövcud olduğunu etiraf etmək istəmirdi. Eyni zamanda, əlaqədar hədəf qrupuna aid məlumatlar və ya statistik rəqəmlər yerli və mərkəzi icra hakimiyyəti orqanları tərəfindən toplanmadığından və saxlanmadığından rəsmi məlumatlardan da istifadə qeyri-mümkün idi.

# I. AZƏRBAYCAN RESPUBLİKASINDA MİQRASİYA PROSESLƏRİ: TENDENSİYALAR VƏ XÜSUSİYYƏTLƏR (köməkçi mənbələrin nəzərdən keçirilməsi)

## 1.1. SSRİ-nin süqutundan sonra baş verən miqrasiya mərhələləri və axınları

1991-ci ildən bu günədək Azərbaycanda müxtəlif miqrasiya axınları müşahidə olunmaqdadır: xarici/daxili, daimi/müvəqqəti, qanuni/qeyri-qanuni. Azərbaycanın müstəqilliyi dövründə (1991-ci ildən bu günədək) baş verən miqrasiya proseslərini mahiyyətcə 3 mərhələyə bölmək olar.[12]

1990-1995-ci illəri əhatə edən 1-ci mərhələ ermənilərin və azərbaycanlıların yerdəyişmələrinə təsir etmiş Dağlıq Qarabağ münaqişəsi səbəbindən etnik xarakter daşıyan məcburi miqrasiya dövrü kimi təsvir oluna bilər. Sovet İttifaqının dağılması və bununla əlaqədar baş verən iqtisadi çətinliklər milliyətcə rusların, yəhudilərin və digər milli azlıqların Azərbaycandan emiqrasiyasına təkan vermiş-dir. Məhz bu səbəblərə görə miqrasiyanın 1-ci mərhələsi daimi miqrasiya prosesləri ilə xarakterizə olunur.[13]

1996-cı ildən 2000-ci ilədək baş verən miqrasiya proseslərinin 2-ci mərhələsi ilk növbədə iqtisadi amillərin təsiri altında formalaşırdı. İşsizlik və əmək haqlarının aşağı olması çoxlu sayda azərbaycanlı miqrantın iş axtarışında qonşu ölkələrə üz tutmağa vadar edən əsas faktorlardır.

Miqrasiyanın 3-cü mərhələsi 2001-ci ildən bu günədək davam edir. Bu dövr emiqrasiya axınlarının stabilləşməsi tendensiyası ilə səciyyələndirilə bilər. Daha konkret desək, əldə olunmuş məlumatlar emiqrasiya axınının azalmasını nümayiş etdirir. Eyni zamanda, iqtisadi inkişaf və neft sektorunda artmaqda olan iqtisadi fəallıq immiqrasiya axınlarının intensivləşməsilə nəticələnmişdir. Tədricən Azərbaycan əcnəbi işçilərin təyinat ölkəsinə çevrilməkdədir.[14]

**Cədvəl 1. Azərbaycan Respublikasının əhalisi və onun iqtisadi fəallığı[15]**

| Əhali kateqoriyaları | İllər | Ümumi sayı (min nəfər) | % |
|---|---|---|---|
| Əhalinin ümumi sayı | 2012 | 9.235,1 | 100 |
| İqtisadi fəal əhalinin ümumi sayı | 2011 | 4.626,1 | 100 |
| İqtisadi fəal əhalinin işlə təmin olunmuş ümumi hissəsi | 2011 | 4.375,2 | 94,6 |
| İşsizlərin ümumi sayı | 2011 | 250,9 | 5,4 |
| *Onlardan:* | | | |
| Kişilər | 2011 | 21.851 | 0,9 |
| Qadınlar | 2011 | 16.479 | 0,7 |

*Mənbə: Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi*

12 SİAM, A. Allahverənov, E. Hüseynov “Avropa Birliyi və Şərq Tərəfdaşlığı Ölkələri arasında əmək miqrasiyasının dəyəri və faydası: Azərbaycan üzrə Ölkə Hesabatı”, səh.27. 2013-cü il.
A. Allahverənov, R. Əliyeva, T. Sadıqov “Mərkəzi və Şərqi Avropada miqrasiyanın və kənd-şəhər miqrasiyasının sosial təsiri. Azərbaycan üzrə Ölkə Hesabatı”, səh.5.Aprel 2012-ci il.

13 SİAM, A. Allahverənov, E. Hüseynov “Avropa Birliyi və Şərq Tərəfdaşlığı Ölkələri arasında əmək miqrasiyasının dəyəri və faydası: Azərbaycan üzrə Ölkə Hesabatı”, səh.27. 2013-cü il.

14 IREX, I. Qanquli “Azərbaycanda miqrasiya prosesləri: təyinat ölkəsinə keçid?” səh.1.Harvard Universiteti, 2010-cu il.

15 2013-cü il iyulun 10-da baxılmış “http://www.azstat.org/publications/azfigures/2012/en/005en.shtml,” saytı.

## 1.2. Emiqrasiyaya aid məlumatlar və statistik rəqəmlər

Azərbaycan Respublikasında emiqrasiyaya aid məlumatların mövcudluğu və etibarlılığı ilə bağlı müəyyən məhdudiyyətlər mövcuddur. Müxtəlif müəlliflər (A.Allahverənov, R.Əliyeva, E.Hüseynov və s.) Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi tərəfindən təqdim olunan rəqəmlərdə ölkədən gedən real axınların kifayət qədər əks olunmadığını qeyd edirlər, çünki bu rəqəmlər xaricə daimi yaşayış üçün getmək məqsədilə qeydiyyatdan çıxan şəxslərin sayını göstərir və bununla da xaricə işləmək üçün müvəqqəti emiqrasiya edən və daimi yaşayış yerlərindən qeydiyyatdan çıxmayanları nəzərə almırlar.[16] AVROSTAT, İƏİT, BMT-nin Əhali Məsələləri üzrə Bölməsi və Dünya Bankı kimi təşkilatların məlumat bazaları miqrasiya axınları haqqında alternativ informasiya mənbələri hesab olunsa da, bu təşkilatlar tərəfindən təqdim olunan məlumatlar da həmişə müfəssəl olmur və əksər hallar da bir-birilə ziddiyyət təşkil edir.

Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi tərəfindən təqdim olunan rəsmi məlumatlara əsasən daimi yaşayış məqsədilə Azərbaycandan xaricə emiqrasiya axınları azalmaqdadır: 1990-cı ildə ölkəni bu məqsədlə 137.900 nəfər tərk etmişdirsə, 2011-ci ildə bu rəqəm 500-ə bərabər idi (Diaqram 1-ə baxın). Bu müddət ərzində Azərbaycanı tərk edərək xaricdə məskunlaşmış insanların sayı 448.700-ə bərabərdir.

**Diaqram 1. Xaricdə daimi yaşayış məqsədilə Azərbaycan Respublikasından emiqrasiya (min nəfər)**




*Mənbə: Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi*

Müvəqqəti miqrasiya miqrasiyanın ən geniş yayılmış formalarından biridir. Miqrasiyanın bu forması əsasən iqtisadi xarakter daşıyır və müxtəlif növlərdə, o cümlədən, ticarət məqsədilə miqrasiya şəklində və qanuni və ya qanunsuz əmək miqrasiyası kimi baş verə bilər.

Müşahidə olunan kütləvi iqtisadi miqrasiya axınlarına baxmayaraq, Azərbaycan Respublikasının xaricdə işləyən vətəndaşlarının sayı barədə dəqiq statistik məlumatlar bu ölkədə demək olar ki, mövcud deyil. Mövcud olan məlumatlar isə natamam xarakter daşıyır.

Dünya Bankının hesablamalarına əsasən 2010-cu il üçün Azərbaycandan getmiş emiqrantların sayı 1.432.600-ə bərabər idi (əhalinin 16.0%)[17]. Bu təşkilatın məlumatlarına görə Azərbaycan emiq-

---

[16] SİAM, A. Allahverənov, E. Hüseynov *"Avropa Birliyi və Şərq Tərəfdaşlığı Ölkələri arasında əmək miqrasiyasının dəyəri və faydası: Azərbaycan üzrə Ölkə Hesabatı", səh.29-30.* 2013-cü il və A. Allahverənov, R. Əliyeva, T. Sadıqov *"Mərkəzi və Şərqi Avropada miqrasiyanın və kənd-şəhər miqrasiyasının sosial təsiri. Azərbaycan üzrə Ölkə Hesabatı", səh.5.* Aprel 2012-ci il.

[17] Dünya Bankı *"Miqrasiya və pul köçürmələrinə dair 2011-ci il üzrə Faktlar Toplusu" səh.65.*

rantlarının 60%-nin əsas təyinat ölkəsi Rusiya idi, bu ölkədən sonra isə Ukrayna, Qazaxıstan, İsrail, Almaniya və Türkiyə gəlir. Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi də Rusiyanın Azərbaycandan gedən miqrantlar üçün əsas təyinat ölkəsi olduğunu təsdiqləyib.

Rusiya Federasiyasının Federal Dövlət Statistika Xidmətinin məlumatına əsasən bu ölkədə Azərbaycandan olan miqrantların sayı 20.000-dən çoxdur və Rusiyadan vətənə qayıdanların sayı isə maksimum 1.800 nəfər təşkil edir. Bu məlumatlara əsasən 2011-ci ildə Azərbaycan miqrantlarının yalnız 5,6%-i Rusiya Federasiyasından vətənə qayıtmışdır (Cədvəl 2).

**Cədvəl 2. Azərbaycan Respublikasından Rusiya Federasiyasına miqrasiya (2008-2011-ci illər üzrə)** [18]

| | 2008 | 2009 | 2010 | 2011 |
|---|---|---|---|---|
| Azərbaycandan Rusiyaya | 20,968 nəfər | 20,363 nəfər | 22,874 nəfər | 22,316 nəfər |
| Rusiyadan Azərbaycana | 1,355 nəfər | 1,783 nəfər | 1,130 nəfər | 1,255 nəfər |

*Mənbə: Rusiya Federasiyasının Federal Dövlət Statistika Xidməti*

AVROSTAT-a əsasən Aİ dövlətləri arasında Almaniya Azərbaycan vətəndaşlarını qəbul edən əsas ölkədir və 2010-cu ildə Azərbaycan Respublikasının 15.509 vətəndaşı bu ölkədə yaşayırdı.[19] BMT-nin Əhali Məsələləri üzrə Bölməsinin məlumatına əsasən isə bu rəqəm daha böyükdür və təxminən 23.000-ə bərabərdir. Azərbaycandan olan miqrantların sayına aid rəqəmlərdəki fərqi böyük ehtimalla belə bir faktla izah etmək olar ki, AVROSTAT-ın məlumat bazası yalnız Almaniyanın immiqrasiya orqanlarının diqqət mərkəzində olan qanuni və qanunsuz miqrantlar haqqında informasiyanı özündə əks etdirir və Almaniyada çalışan digər qanunsuz miqrantların ümumi sayını nəzərə almır.

İƏİT-nin məlumat bazasına görə artıq Türkiyə də azərbaycanlı miqrantlar üçün əsas təyinat ölkəsidir. Statistik məlumatları və rəsmiləşdirilmiş yaşayış icazələrinin sayını nəzərə alsaq, 2000-2009-cu illər ərzində 115.000 azərbaycanlı Türkiyəyə gedərək bu ölkədə 1 aydan çox müddət ərzində qalmaq üçün müvafiq yaşayış icazəsi əldə etmişdir.[20] İƏİT tərəfindən təqdim olunan məlumatlar Dövlət Statistika Komitəsinin məlumatları ilə müqayisədə daha etibarlı görünsə də, ehtimal olunur ki, bu rəqəmlər də azərbaycanlı miqrantların sayını dəqiq əks etdirmir.[21] Bunu belə bir faktla izah etmək olar ki, İƏİT tərəfindən təqdim olunan məlumatlar yaşayış icazəsi əldə etmək məqsədilə təqdim olunan ərizələrin sayına əsaslanır, Azərbaycan Respublikasının vətəndaşları isə bəzən Türkiyədə qaldıqları müddət ərzində bu cür icazə əldə etmək üçün bir neçə dəfə ərizələrlə müraciət edirlər. Bu baxımdan, yaşayış icazəsi üçün təqdim olunmuş ərizələrin sayından asılı olaraq bəzi əməkçi miqrantlar İƏİT-in məlumat bazasında bir dəfədən çox qeydiyyata alına bilərlər.

Azərbaycandan xaricə əmək miqrasiyası əsasən bazar ticarətilə əlaqələndirilir. Miqrantların əmək fəaliyyətilə məşğul olduğu ikinci vacib bir sahə inşaat sektorudur, bundan sonra isə nəqliyyat və kommunikasiya sektorlarını qeyd etmək olar.[22]

### 1.3. Pul köçürmələri

Əmək miqrasiyası mənşə ölkələrinə müxtəlif yollarla təsir edərək adətən işçi qüvvəsinin azalması və eyni zamanda, miqrantlar tərəfindən müvafiq pul köçürmələrinin göndərilməsilə nəticələnir. Azərbaycan Respublikasının Mərkəzi Bankına əsasən pul köçürmələrinin ümumi məbləği 2000-

---

[18] 2012-ci il sentyabrın 15-də baxılmış "www. gks.ru/bgd/regl/bl12-107" saytı.

[19] SİAM, A. Allahverənov, E. Hüseynov *"Avropa Birliyi və Şərq Tərəfdaşlığı Ölkələri arasında əmək miqrasiyasının dəyəri və faydası: Azərbaycan üzrə Ölkə Hesabatı", səh.32.* 2013-cü il.

[20] Yuxarıda qeyd olunmuş ədəbiyyat, səh.32.

[21] A. Allahverənov, R. Əliyeva, T. Sadıqov *"Mərkəzi və Şərqi Avropada miqrasiyanın və kənd-şəhər miqrasiyasının sosial təsiri. Azərbaycan üzrə Ölkə Hesabatı", səh.5.* Aprel 2012-ci il.

[22] *"Cənubi Qafqazda miqrasiya prosesləri: Azərbaycan, Ermənistan, Gürcüstan", səh.15.* 2008-2009-cu illər.

ci ildəki 57 mln. ABŞ dollarından 2005-ci ildə 490 mln. ABŞ dollarına, 2010-cu ildə isə 1.338 mln. ABŞ dollarına qədər artmışdır.[23] Qonşu ölklələrlə müqayisədə Azərbaycan Respublikasına göndərilən pul köçürmələri ÜDM-in çox az bir hissəsini təşkil edir. Lakin Beynəlxalq Valyuta Fondunun (BVF) 2011-ci il üzrə məlumatların da qeyd olunur ki, Azərbaycan Respublikasına göndərilən pul köçürmələri bu ölkənin ÜDM-in 3% təşkil edir, bu göstərici isə dünya üzrə orta səviyyədən (4,5%) çox az olmasa da, Yaxın Şərq və Mərkəzi Asiya regionunun bir sıra ölkələrilə müqayisədə həddindən artıq azdır (Tacikistan – ÜDM-in 33%, Qırğızıstan – 31%, Ermənistan – 10%) (Diaqram 2-ə baxın). Gürcüstana göndərilən pul köçürmələri 2000-ci ildə ÜDM-in 6%-i təşkil edirdisə, 2011-ci ildə bu rəqəm 11%-ə bərabər idi, Ermənistanda bu rəqəmlər həmin müddət ərzində müvafiq olaraq 10%-dan 13%-ə artmışdır, Azərbaycanda isə həmin dövrdə 5%-dən 3%-ə enmişdir.[24]

**Diaqram 2. Mənşə ölkələrinə göndərilən pul köçürmələri (ÜDM-ə faiz nisbəti)**




*Mənbə: BVF "Dünya iqtisadiyyatının inkişaf perspektivləri", 2011-ci il.*

Pul köçürmələrinin əsas hissəsi Rusiya Federasiyasından göndərilir. Rusiya Bankının məlumatına əsasən 2011-ci ildə Rusiyadan Azərbaycana ümumilikdə 976 mln. ABŞ dolları məbləğində pul köçürmələri olmuşdur.[25]

2011-ci il üzrə rəsmi statistikada göstərilir ki, Azərbaycanda pul köçürmələri ailə gəlirinin orta hesabla 2,8%-i təşkil edir (2,7% - şəhər və 2,8% - kənd yerlərində).[26] Lakin Dünya Bankının 2008-ci il üzrə yaşayış səviyyəsinin qiymətləndirilməsi tədqiqatına əsasən bilavasitə pul köçürmələrini alan ailələrdə həmin köçürmələr ailə gəlirinin təqribən 28%-i təşkil edir. Kənd/şəhər kontekstində pul köçürmələrinin ailə gəlirində faiz nisbəti şəhərlə müqayisədə kənd yerlərində daha yüksək rəqəmlə ifadə olunur: 30% - kənd və 25% şəhər yerlərində. Eyni zamanda, tədqiqat göstərir ki, Azərbaycanda pul köçürmələrini alanların 61% işsizlərdi və onların 52%-ni qadınlar təşkil edir.[27] Pul köçürmələrinin böyük bir hissəsi miqrant ailələrinin aşağı səviyyədə olan gəlirlərinin artırılması üçün, çox az bir

---

[23] SİAM, A. Allahverənov, E. Hüseynov *"Avropa Birliyi və Şərq Tərəfdaşlığı Ölkələri arasında əmək miqrasiyasının dəyəri və faydası: Azərbaycan üzrə Ölkə Hesabatı", səh.43.* 2013-cü il.

[24] SİAM, L. Barbone, M. Kahanes, K. Tsimmermann *"Şərq Tərəfdaşlığı Ölkələrindən Avropa İttifaqına miqrasiya /daha yaxşı gələcək üçün variant", səh. 27-28.* 2013-cü il.

[25] http://news.day.az/economy/333700.html

[26] 2012-ci il sentyabrın 11-də baxılmış "http://www.azstat.org/statinfo/budget_households/en/index.shtml#" saytı.

[27] SİAM, A. Allahverənov, E. Hüseynov *"Avropa Birliyi və Şərq Tərəfdaşlığı Ölkələri arasında əmək miqrasiyasının dəyəri və faydası: Azərbaycan üzrə Ölkə Hesabatı", səh.45.* 2013-cü il.

hissəsi isə (1%-dən az) biznesdə sərmayə kimi istifadə olunur.[28] Tədqiqatın bəzi hissələrində ölkədə qalan miqrant ailələri üzvlərinin pul köçürmələrindən asılılığı[29] və pul köçürmələrinin yoxsulluğun azaldılmasındakı rolu qeyd olunur.[30]

### 1.4. Miqrasiya sahəsində aparılmış əvvəlki tədqiqatlar

Qeyd etmək lazımdır ki, bu günədək Azərbaycanda miqrasiya ilə bağlı məhdud sayda tədqiqat aparılıb. Son bir neçə il ərzində Azərbaycandan miqrasiya ilə bağlı tədqiqatların ümumi həcminin artması faktına baxmayaraq, bu sahədə məlumat çatışmazlığı hələ də hiss olunmaqdadır. Axır vaxtlar aparılmış tədqiqatlardan bir neçəsi Azərbaycanda son zamanlar baş verən iqtisadi dəyişikliklərə xüsusi diqqət yetirir: neft sektorunun inkişafı və immiqrasiya axınının artımı;[31] ölkə üzrə əmək bazarı və emiqrasiyanın təsiri altında olan sosial inkişaf tendensiyaları və miqrasiyanın həssas qruplara (qadınlara, uşaqlara, yaşlılara, münaqişə nəticəsində öz yerlərini tərk etmiş qaçqınlar və məcburi köçkünlərə və s.) təsiri;[32] miqrasiya proseslərinin, siyasətlərinin, planlarının dəyəri və faydası və əmək bazarının tendensiyaları.[33]

Mövcud tədqiqatlar diqqəti itələyici-cəlbedici amillər nöqteyi-nəzərindən miqrasiya proseslərinin səbəblərinə yönəldir. Bu baxımdan itələyici amillər arasında iqtisadi amilləri, maddi vəziyyəti yaxşılaşdırmaq istəyini, işsizliyin yüksək səviyyədə olmasını, tanışların və ya qohumların xaricdə yaşamasını, həmçinin Dağlıq Qarabağ münaqişəsini qeyd etmək olar. Bununla yanaşı, etnik və sosial amillər də mövcuddur.[34] Cəlbedici amillər təyinat ölkəsindən asılı olaraq dəyişir. Məsələn, Rusiya Federasiyası ilə bağlı cəlbedici amillər şəxsi və cəmiyyətdaxili əlaqələrdən, istifadə olunan ümumi danışıq dilindən, ümumi tarixdən və vizasız rejimdən ibarətdir.[35] Türkiyəyə aid cəlbedici amilləri təyinat ölkəsinə getmək və bu ölkədə qalmaq üçün sadə şərtlərlə (sadələşdirilmiş viza rejimilə) və iki ölkə arasında tarixi, sosial və mədəni oxşarlıqlarla xarakterizə etmək olar. Eyni zamanda, mədəni və dil oxşarlıqları türk miqrantların çoxluq təşkil etdikləri Almaniyaya miqrasiya üçün cəlbedici amillər arasında qeyd olunur.[36]

### 1.5. Miqrantların profilləri

Əməkçi miqrantların profillərinə aid rəsmi məlumatlar mövcud deyil. Azərbaycandan gedən miqrantların profillərinə dair də dəqiq məlumatlar əldə etmək çətindir. Mövcud məlumatlar isə yalnız daimi yaşayış üçün başqa ölkəyə qanuni şəkildə miqrasiya etmiş insanlar haqqında informasiyanı özündə əks etdirir. 2009-2011-ci illər ərzində xaricdə məskunlaşmış qanuni emiqrantların sayı ilə bağlı məlumatların təhlili bu cür emiqrantlar arasında qadınların üstünlük təşkil etdiyini göstərir (müvafiq olaraq 2009-cu ildə 55%, 2010-cu ildə 56% və 2011-ci ildə 52%).[37] Bu faiz nisbəti əhalinin ümumi sayında qadınlarla kişilərin faiz nisbətilə müqayisədə bir qədər yüksəkdir (2009-cu ildə əhalinin 51%-i qadınlar, 49%-i isə kişilər təşkil edirdi). Emiqrantların çoxu (82%) əsasən 25-29 və 30-34 yaşları arasındadır və əksəriyyəti (59%) şəhər yerlərindəndir.[38]

---

[28] V. Rüstəmov *"Mərkəzi və Cənubi Qafqazda beynəlxalq miqrantların pul köçürmələrinə dair tədqiqat – Azərbaycanda beynəlxalq miqrantların pul köçürmələrinə və yoxsulluğa aid Ölkə Hesabatı".* Asiya İnkişaf Bankı, 2007-ci il.

[29] BMQK, V. Tişkov, Z. Zayinçkovskaya, Q. Vitkovskaya *"Keçmiş Sovet İttifaqı respublikalarında miqrasiya", səh.27-28.* 2005-ci il

[30] A. Allahverənov, R. Əliyeva, T. Sadıqov *"Mərkəzi və Şərqi Avropada miqrasiyanın və kənd-şəhər miqrasiyasının sosial təsiri. Azərbaycan üzrə Ölkə Hesabatı"", səh.18.* Aprel 2012-ci il.

[31] IREX, I. Qanquli *"Azərbaycanda miqrasiya prosesləri: təyinat ölkəsinə keçid?"* Harvard Universiteti.

[32] A. Allahverənov, R. Əliyeva, T. Sadıqov *"Mərkəzi və Şərqi Avropada miqrasiyanın və kənd-şəhər miqrasiyasının sosial təsiri. Azərbaycan üzrə Ölkə Hesabatı".* Aprel 2012-ci il.

[33] SİAM, A. Allahverənov, E. Hüseynov *"Avropa Birliyi və Şərq Tərəfdaşlığı Ölkələri arasında əmək miqrasiyasının dəyəri və faydası: Azərbaycan üzrə Ölkə Hesabatı".* 2013-cü il.

[34] BMqT *"Vətəndən qürbətə: miqrasiyanın motivləri, marşrutları və metodları"* 2001-ci il.

[35] IREX, I. Qanquli *"Azərbaycanda miqrasiya prosesləri: təyinat ölkəsinə keçid?", səh.2.* Harvard Universiteti.

[36] *"Cənubi Qafqazda miqrasiya prosesləri: Azərbaycan, Ermənistan, Gürcüstan", səh.19.* 2008-2009-cu illər.

[37] 2013-cü il iyulun 10-da baxılmış "http://www.stat.gov.az/source/demoqraphy/indexen.php." saytı.

[38] Müvafiq məlumatlar 2011-ci il üzrə hesablanmışdır.

Əmək miqrasiyası axınlarında isə kişilər çoxluq təşkil edirlər. Ən son hesablamalara əsasən əməkçi miqrantların 85%-i kişilərdir.[39] Üç Cənubi Qafqaz ölkəsində (Azərbaycanda, Gürcüstanda və Ermənistanda) aparılmış və ev təsərrüfatlarına aid tədqiqatlar da bu faktı aşkar etmişdir.[40] Ev təsərrüfatlarına aid tədqiqatlar Cənubi Qafqazdan, o cümlədən, Azərbaycandan miqrasiya axınlarının əsasən kişilərdən ibarət olduğunu nümayiş etdirir; miqrasiya edən kişilər ölkədə qalanlarla müqayisədə daha yaşlı və az ixtisaslıdırlar. Kişilərin miqrasiyası gender "ənənələrilə" izah olunur və bu ənənələrə əsasən kişilər ailə başçısı hesab olunurlar. Ailə başçısı və onun oğlanları daha çox miqrasiyaya meyllidirlər. Konkret olaraq Azərbaycana gəldikdə miqrasiya prosesləri öz başlanğıcını əsasən kəndlərdən götürür, çünki böyük şəhərlərdə nisbətən çox iş imkanı mövcuddur.

Azərbaycandan gedən miqrantların böyük əksəriyyəti xaricdə müvafiq rəsmi müqavilələri olmadan işləyirlər. Miqrasiya dövrü orta hesabla 3,6 il davam edir. Tədqiqatlar zamanı əldə olunmuş bəzi məlumatlara əsasən bu qəbul edən ölkələrin əmək bazarlarında "kölgə" sektorunun hökmranlığı ilə, əmək miqrasiyasına aid mövcud normativ hüquq səhəsindəki uyğunsuzluqlarla və əmək bazarlarındakı sui-istifadələrlə izah olunur.[41]

### 1.6. Əmək miqrasiyasının ailələrə təsiri

Aparılmış tədqiqatların çox az bir sayı nəsillərə və ailə strukturlarına aid dəyişiklikləri ön plana çəkərək əmək miqrasiyasının azərbaycanlı ailələrə təsiri məsələlərinə xüsusi diqqət yetirir.[42] Natamam ailələrin sayının çoxalması, ailədaxili əlaqələrdə baş verən mühüm dəyişikliklər, ərlə arvadın ayrı yaşaması və boşanma hallarının artması, həmçinin uşaqların təhsilində baş verən dəyişikliklər səbəbindən miqrasiya 3-4 nəsildən formalaşmış ailələrin qısa bir zaman ərzində 2 və ya hətta 1 nəsillik ailələrə sürətlə çevrilməsinə gətirib çıxarmışdır. Bunun nəticəsində son bir neçə il ərzində azərbaycanlı ailələrin modeli dəyişmişdir. Ər-arvaddan və nikaha daxil olmamış uşaqlardan ibarət azsaylı ailələrdə yaşayan azərbaycanlıların sayı artmaqdadır. Geniştərkibli ailələrin sayı isə, xüsusən şəhər yerlərində azalmaqdadır. Müvafiq olaraq ailənin tərkibi də dəyişir. 2009-cu ildə həyata keçirilmiş əhalinin siyahıya alınmasına əsasən 4 və ya daha çox uşaqdan ibarət ailələrin sayı ailələrin ümumi sayından kənd yerlərində 11,0%, şəhər yerlərində isə 8,3% təşkil edirdi (1999-cu ildə aparılmış əhalinin siyahıya alınmasına görə bu rəqəmlər müvafiq olaraq 20,1% və 13,5%-ə bərabər idi).[43]

Cənab Əbülfəz Süleymanov tərəfindən həyata keçirilmiş tədqiqatda əmək miqrasiyasının azərbaycanlı ailələrə təsiri vurğulanır. Qadınların əksəriyyəti evdar olduğundan ərləri tərəfindən göndərilən pul köçürmələrindən asılı vəziyyətə düşürlər. Bununla yanaşı, bir sıra qadınlar (28%) həyat yoldaşları xaricə getdikdən sonra düşdükləri vəziyyətə uyğunlaşa bilmirdilər və müvafiq QHT-lərin yardımı və dəstəyi sayəsində düşdükləri vəziyyətdən çıxa bilmişdirlər.[44] Eyni zamanda, öz ərlərinin miqrasiyası işləyən qadınları işdən çıxaraq özlərini ev işlərinə və uşaqlarının təhsilinə həsr etməyə məcbur etmişdir.

Qadının xaricə gedən həyat yodaşını müşayiət etməmək və Azərbaycanda qalmaq qərarı adətən onun analıq vəzifəsilə, bəzi hallarda isə həyat yoldaşının onu və ya bütün ailəsini özü ilə xaricə aparmaq istəyində olmaması ilə izah olunur.

---

[39] SİAM, L. Barbone, M. Kahanes, K. Tsimmermann *"Şərq Tərəfdaşlığı Ölkələrindən Avropa İttifaqına miqrasiya /daha yaxşı gələcək üçün variant", səh. 30.*

[40] Estoniya Qadın Tədqiqatları və Resurs Mərkəzi, İnsanların Harmonik İnkişafı Cəmiyyəti və TASO Fondu *"Cənubi Qafqazda miqrasiya prosesləri: Azərbaycan, Ermənistan, Gürcüstan. 2008-2009-cu illər üzrə sosioloji tədqiqatın nəticələri."* Z. Demendjiyeva *"Beynəlxalq miqrasiyaya aid icmallar".* Praqa, 2010-cu il.

[41] *"Cənubi Qafqazda miqrasiya prosesləri: Azərbaycan, Ermənistan, Gürcüstan", səh.30.* 2008-2009-cu illər

[42] QTRM, Ə. Süleymanov *"Əmək miqrasiyasının Azərbaycan ailə təsərrüfatına təsiri".*

[43] BMTİP *"Azərbaycan Respublikasında insan inkişafı haqqında Hesabat 2007. Azərbaycanda gender münasibətləri: meyllər və cəhdlər", səh.52.*

[44] QTRM, Ə. Süleymanov *"Əmək miqrasiyasının Azərbaycan ailə təsərrüfatına təsiri", səh.11.*

Miqrasiya ailələrin iqtisadi problemlərini qismən həll etsə də, ailədaxili münasibətlər, əlaqələr və s. məsələlərlə əlaqədar başqa problemlər yaradır. Yuxarıda qeyd olunan tədqiqatdan açıq-aşkar görünür ki, qadınların evdə qalaraq uşaqları və ev işlərilə məşğul olmaları nəticəsində azərbaycanlı kişilərin miqrasiyası yeniyətmələrin davranışına və ya təhsildəki davamiyyətinə mənfi təsir göstərmir. Əksinə belə ailələrdən olan uşaqlar daha intizamlı və məsuliyyətli olmaları ilə seçilirlər. Yeniyetmələrlə müqayisədə 10 yaşınadək uşaqlar psixoloji nöqteyi-nəzərdən daha çox təsirə məruz qalırlar.[45]

Həyat yoldaşları xaricə işləməyə getmiş qadınların istər maddi, istərsə də psixoloji problemlərlə üzləşmələrilə yanaşı öz ərlərilə münasibətlərdə radikal dəyişliklərə, o cümlədən, ayrı yaşamaya və boşanmaya məruz qalmaları da yuxarıda qeyd olunan tədqiqatda göstərilir.

Qadınların vəziyyətinə xüsusi diqqət yetirən başqa bir tədqiqatda göstərilir ki, müvəqqəti miqrasiya ölkədə qalan qadınlara və ailələrə təsiri artırır, çünki bəzən kişilər xaricdə yeni həyata başlamaq qərarına gəldikdə öz həyat yoldaşları və ailələrini atırlar.[46] Bu fakt Azərbaycandakı ilk nikahları ilə yanaşı, Rusiyada ikinci dəfə ailə quran kişilərin mövcudluğunu qeyd edən digər tədqiqatlarla da təsdiqlənir.[47] Beləliklə, bəzi hallarda Azərbaycandan emiqrasiya ailələrin bölünməsilə də nəticələnir.

Bizim tədqiqat xaricdə işləyən kişilərin Azərbaycanda qalan həyat yoldaşlarının vəziyyətini müəyyən dərəcədə nəzərdən keçirsə də, qadınların öz ailələrində, icmalarında və cəmiyyətdə hələ də üzləşdikləri problemlər və bu problemlərin necə həll olunması barədə məlumat çox azdır və bu tədqiqat həmin aspektləri əhatə etməyə çalışır.

[45] Yuxarıda qeyd olunmuş ədəbiyyat, səh. 25-26.

[46] USAID *"USAID üçün gender qiymətləndirilməsi/Qafqaz/Azərbaycan", səh.5.* 2004-cü il.

[47] BMTİP *"Azərbaycan Respublikasında insan inkişafı haqqında Hesabat 2007. Azərbaycanda gender münasibətləri: meyllər və cəhdlər", səh.58.*

# II. XARİCDƏKİ AZƏRBAYCANLI MİQRANTLARIN AZƏRBAYCANDA QALAN HƏYAT YOLDAŞLARININ VƏ DİGƏR AİLƏ ÜZVLƏRİNİN SƏCİYYƏVİ XÜSUSİYYƏTLƏRİ, PROBLEMLƏRİ VƏ EHTİYACLARI

## 2.1. Azərbaycanlı miqrantların vətəndə qalan həyat yoldaşları və digər ailə üzvlərinin profilləri

Tədqiqat Azərbaycan Respublikasının əmək miqrasiyasına daha çox məruz qalan 6 rayonunda (Şəki, Yardımlı, Masallı, Şəmkir, Lənkaran və Goranboy) və 4 şəhərində (Bakı, Sumqayıt, Mingəçevir və Naftalan), kənd yerlərindən 46 və şəhər yerlərindən 10 qadınla söhbət aparmaqla həyata keçirilmişdir (Diaqram 3-ə baxın).

**Diaqram 3. Tədqiqatda iştirak etmiş qadınların inzibati rayonlar üzrə bölgüsü**




Tədqiqatda iştirak etmiş qadınların bu kimi yaş qrupları üzrə bölgüsünu aparmaq olar: 26 qadın 36-45 yaş arasında idi, 15 qadının yaşı 35-dən aşağı, 15 qadının yaşı isə 45-dən yuxarı idi (Cədvəl 3-ə baxın).

Qadınlardan 39-u rəsmi nikahda idi, 15-nin dini nikahı (kəbini)[48] var idi və 2 qadın boşanmışdır. Dini nikahlar əsasən kənd yerlərindən olan qadınlar üçün daha çox səciyyəvidir. Qadınların böyük əksəriyyəti 11-20 il arası ailə həyatı qurublar.

Demək olar ki, qadınların yarısı orta təhsilli, dörddə biri natamam orta təhsillidir, qalanları isə texniki-peşə təhsilinə və ya ali təhsilə malikdir.

---

[48] Azərbaycanda nikahın əsasən 2 forması mövcuddur: "rəsmi qeydiyyata alınmış nikah" və "rəsmi qeydiyyata alınmayan dini nikah". Dini şəxs tərəfindən bağlanılan dini nikah (kəbin) xüsusən kənd yerlərində geniş yayılıbdır. Azərbaycan Respublikası dünyəvi bir dövlət olduğundan dini nikahlar qanunla tanınmır. Kəbin qadın üçün heç bir hüquqi müdafiəni nəzərdə tutmur və yalnız icma qarşısında nikah münasibətlərinin dini baxımdan "sənədləşdirilməsi" məqsədi daşıyır.

**Cədvəl 3. Xaricdəki azərbaycanlı miqrantların Azərbaycanda qalan həyat yoldaşları və digər ailə üzvlərinin qısa xarakteristikası**

| Göstəricilər | | Respondentlərin sayı<br>Cəmi 56 respondent |
|---|---|---|
| Yaş | 28-35 arası | 15 |
| | 36-45 arası | 26 |
| | 45-dən yuxarı | 15 |
| Yaşayış yeri | Şəhər | 10 |
| | Kənd | 46 |
| Ailə vəziyyəti | Evli (rəsmi nikahda) | 39 |
| | Evli (kabinli) | 15 |
| | Boşanmış | 2 |
| Ailə qurduğu müddət | 10 il | 10 |
| | 11-20 il | 32 |
| | 20 ildən artıq | 14 |
| Təhsil səviyyəsi | Ümumiyyətlə təhsilsiz | 1 |
| | Natamam orta təhsil | 15 |
| | Tamam orta təhsil | 26 |
| | Texniki-peşə təhsil | 9 |
| | Ali təhsil (natamam və ya tamam) | 5 |
| Məşğuliyyət | Həyat yoldaşının miqrasiyasınadək məşğul olduğu işlə məşğul olma | 42 |
| | Həyat yoldaşının miqrasiyasından sonra fərqli işlə məşğul olma | 14 |
| Uşaqlar | Yaşı 18-dən aşağı olan uşağı yoxdur | 6 |
| | Yaşı 18-dən aşağı olan 1 uşaq | 14 |
| | Yaşı 18-dən aşağı olan 2 uşaq | 23 |
| | Yaşı 18-dən aşağı olan 3 uşaq | 9 |
| | Yaşı 18-dən aşağı olan 4 və ya daha çox uşaq | 4 |
| Xaricdə olan ailə üzvləri | Yalnız həyat yoldaşı | 50 |
| | Həyat yoldaşı və ailənin digər üzvləri | 6 |
| Həyat yoldaşın sonuncu dəfə nə vaxt xaricə getməsi | Təxminən 1 il bundan əvvəl | 12 |
| | 1-2 il bundan əvvəl | 10 |
| | 2-3 il bundan əvvəl | 9 |
| | 3-4 il bundan əvvəl | 6 |
| | 4 və ya çox il bundan əvvəl | 19 |
| Həyat yoldaşı xaricdə olduğu zaman onunla əlaqə saxlama | Bəli | 38 |
| | Xeyr | 18 |

Sorğu üçün seçilmiş ailə üzvlərinin sayı (xaricdə olanlarda daxil olmaqla) əsasən 3 nəfərdən 6 nəfərədək dəyişirdi və ya daha çox adamdan: 4 ailə 3, 16 ailə 4, 19 ailə 5 və 17 ailə 6 və ya daha çox nəfərdən ibarətdir (Diaqram 4-ə baxın).

56 ailədən 50-si uşaqlıdır: 14 ailədə 1, 23 ailədə 2, 9 ailədə 3 və 4 ailədə 4 və ya çox uşaq var. Bu məlumatlar Azərbaycanda yaşayan ailələrdə bir neçə uşağın olması tendensiyasını (1-3 uşaq) təsdiqləyir. Bu fakt başqa tədqiqatçılar tərəfindən də vurğulanmışdır.[49]

16 ailədə 2 nəslin nümayəndəsi, başqa sözlə yaşlılar da yaşayır (10 ailədə 1, 5 ailədə 2 və 1 ailədə – 3 yaşlı).

[49] BMTİP *"Azərbaycan Respublikasında insan inkişafı haqqında Hesabat 2007. Azərbaycanda gender münasibətləri: meyllər və cəhdlər"*

**Diaqram 4. Sorğu üçün seçilmiş ailələrin tərkibi**




31 qadın öz evində, 14 qadın qayınata, 6 qadın öz valideyninin, 4 qadın qohumlarının evində, 1 qadın isə kirayə götürdüyü evdə yaşayır.

Həyat yoldaşları öz evində yaşayan kişilərin miqrasiya təcrübəsi ən uzun müddətlidir – bu cür kişilərin 12-i 3 ildən 10-u isə 4-ildən çoxdur ki, xaricdə işləyir. Eyni zamanda, öz evində yaşayan hər üç qadından biri onun həyat yoldaşı xaricdə olduğu zaman onunla əlaqə saxlamadığını bildirmişdir.

Həyat yoldaşının evində yaşayan qadınların həyat yoldaşlarının miqrasiya təcrübəsi nisbətən qısadır (9 ailədə 3 ilədək) və həmin kişilərdən 12-si vətəndə qalan öz arvadları ilə əlaqə saxlayır. Kişilərdən bəziləri xaricdə ailənin digər üzvlərilə birlikdə işləyir (4 nəfər).

Sorğu üçün seçilmiş ailələrin böyük əksəriyyətində, 50 ailədə yalnız 1 nəfər (ailə başçısı) xaricdə işləyir. Yalnız 6 ailədə 1 nəfərdən çox adam vətəndən kənarda əmək fəaliyyətilə məşğuldur. Bu göstərici digər tədqiqatçılar tərəfindən verilmiş məlumatlarla üst-üstə düşür.[50]

Tədqiqat zamanı toplanmış məlumatlar müsahibələrin keçirildiyi miqrant ailələrinin təxminən üçdə birində (56 ailədən 18-də) miqrantların xaricdə işlədiyi zaman vətəndə qalan ailələrilə əlaqə saxlamadıqlarını göstərir. Belə bir fakt mütəxəssislər tərəfindəndə təsdiqlənir və onlara əsasən xaricdə işləyən hayat yoldaşı ilə əlaqələrin itməsi və ya onun xaricdə olduğu zaman onunla ümumiyyətlə danışmaması Azərbaycanda geniş yayılmış bir məsələdir: *“qadınların ən azı 10%-i öz miqrant ərlərilə əlaqələri itirirlər”* (II_E1 saylı mütəxəssis – Əlavə 1-ə baxın); *“Ehtimal edirəm ki, miqrant ailələrinin təxminən 30%-i xaricdə işləyən ailə başçıları ilə əlaqələri və ya həmin miqrantlar ümumiyyətlə vətəndəki ailələrini “itiriblər.”” Hətta bəzən əlaqələr mövcud olanda və ya həyat yoldaşı evə pul göndərən də belə evə qayıtmır”* (II_E5 saylı mütəxəssis).

Tədqiqat zamanı aparılmış görüşlərdə iştirak edən bəzi mütəxəssislərə əsasən miqrant ərlərin öz həyat yoldaşları ilə əlaqənin itirməsi səbəbi “təşkil olunmuş nikahlarla” əlaqədardır. *“Rusiyada işləmiş kişilər geri qayıdırlar və qadınla ailə qururlar. Onlardan bəziləri bir-birlərini heç görmürlər və ya yalnız bir dəfə görüşürlər və evlənmək qərarına gəlirlər. Əksər hallarda isə həmin qadınları kişilərin qadın ailə üzvləri tapırlar… Bu isə ən böyük problemdir, çünki ər arvadın bir-birilə heç bir bağlılığı olmur”*(II_E2 saylı mütəxəssis). Dini adət-ənənələr də Azərbaycandan olan miqrantların gəldiyi təyinat ölkələrində ailə qurmağa məcbur edən həlledici səbəblərdəndir. Bu cür qərarların qəbul edilməsinə sosial-iqtisadi amillər və mənşə ölkəsinin kənd yerlərində müvafiq infrastrukturun olmaması da təsir göstərir. Təyinat ölkələrinin cəlbedici xüsusiyyətləri, məsələn, hərtərəfli inkişaf et-

[50] QTRM, Ə. Süleymanov *“Əmək miqrasiyasının Azərbaycan ailə təsərrüfatına təsiri”, səh.11.*

miş infrastruktur, geniş məşğulluq imkanları, həmçinin ictimai təzyiqlərdən və dini adət-ənənələrdən azad həyat tərzi miqrantları öz vətənlərindəki ailələrini atmağa vadar edir.

Öz ölkəsində ailəsi olduğu halda xaricdə yeni ailə qurmaq Azərbaycandan olan miqrantlar arasında geniş yayılmış təcrübədir *"əksər hallarda, təcrübədə isə bütün hallarda, onların xaricdə ikinci ailəsi olur"* (II_E5 saylı mütəxəssis). Mütəxəssislərə əsasən, tərk olunmuş ailələr arasında bu fenomen daha çox az və orta gəlirli ailələrə, həmçinin orta və aşağı gəlirli təbəqələrin nümayəndələrinə xasdır, çünki kişilərin öz vətənlərində qalmaq üçün az səbəbi qalır.

### 2.2.Kişilərin miqrasiya təcrübəsi və onların xaricdəki vəziyyəti

Tədqiqat üçün seçilmiş ailələrdə kişilərin iş məqsədilə xaricə miqrasiyası təcrübəsində müddət çox vacib bir göstəricidir və orta hesabla 13 ildən 20 ilədək bir müddətdən və ya daha uzun müddətdən ibarətdir. Sorğu zamanı toplanmış məlumatlar 7 nəfərin SSRİ-nin dağılmasından əvvəl 3 aydan çox bir müddət ərzində Azərbaycandan kənarda işlədiyini, 22 nəfərin 1991-1999-cu illər ərzində xaricdə işləməyə başladığını, 22 nəfərin isə 2000-ci ildən etibarən xaricdə işlədiyini göstərir (Diaqram 5-ə baxın).

**Diaqram 5. Kişilərin nikahdan sonra ilk dəfə xaricə getməsi (illər üzrə)**




Miqrantların həyat yoldaşları tərəfindən verilən məlumatlara görə həmin miqrantların böyük əksəriyyəti (50 nəfər) hal-hazırda Rusiya Federasiyasında işləyir, başqa ölkələrdə isə əmək fəaliyyətilə məşğul olanların sayı azdır: 2 nəfər Ukraynada, 2 nəfər Qazaxıstanda, 2 qadın isə həyat yoldaşlarının işlədikləri ölkələrin adını bilməmişdir. Bu rəqəmlər Azərbaycandan gedən miqrantların seçdiyi təyinat ölkələrilə bağlı hər hansı dəyişiklikləri özündə əks etdirmir – Rusiya Federasiyası bir çox miqrantın üstünlük verdiyi təyinat ölkəsidir.

Rusiya Federasiyasına miqrasiya axınının yüksək səviyyədə olması birgə tarix amili, məşğulluq imkanlarının müxtəlifliyi və miqrantların rus dilini bilmələrilə izah olunur.

Qadınların çoxu (32 nəfər) nikaha daxil olduqdan sonra həyat yoldaşlarının neçə dəfə xaricə getməsilə bağlı dəqiq rəqəm söyləyə bilməmişdir, çünki bu dəfələrlə təkrarlanmışdır, 14 qadın isə həyat yoldaşının 2-4 dəfə xaricdə olduğunu bildirmişdir.Yalnız 8 qadın öz həyat yoldaşının ilk dəfə miqrasiya etdiyini bəyan etmişdir (Diaqram 6-a baxın).Tədqiqat üçün seçilmiş ailələrin çoxu üçün miqrasiya uzunmüddətli və daimi reallıqdır, qəbul edilmiş həyat tərzidir.

**Diaqram 6. Kişilərin nikahdan sonra 3 aydan çox müddətə xaricə getmə hallarının sayı**




Azərbaycanlı miqrantları təxminən 2 bərabər kateqoriyaya bölmək olar: daimi miqrantlar (25 nəfər) və dairəvi miqrantlar (31 nəfər) (Cədvəl 4-ə baxın). Dairəvi miqrantların sayı nisbətən çox olsa da[51], mövcud məlumatlar onlardan bəzilərinin müəyyən məqamda daimi miqranta çevrilərək bir daha öz vətənlərinə qayıtmadığını təsdiq edir. Belə miqrantların sayı kifayət qədər çoxdur (13 nəfər), başqa sözlə, müsahibədə iştirak etmiş ailələrdə hər 4 miqrantdan biri. Miqrantların vətəndə qalan ailələrilə əlaqə saxlamaması riski miqrasiya müddətinin uzanması ilə artır.

**Cədvəl 4. Azərbaycanlı miqrantların Azərbaycandan getməsi və Azərbaycana qayıtması müddətləri**

| Miqrantların xarakteristikası | Miqrantların sayı | Miqrantların kateqoriyası |
|---|---|---|
| O, daim xaricdədir və **heç zaman ölkəyə qayıtmır** | 12 | **Daimi miqrantlar** |
| O, miqrasiya etdiyi ilk illərdə mütəmadi olaraq evə qayıdırdı, lakin son 3, hətta 3 ildən çox bir müddətdir ki, evə qayıtmır | 13 | |
| O, daim xaricdədir, **2 və ya 3 ildən bir ölkəyə gəlir** | 14 | **Dairəvi miqrantlar** |
| O daim xaricdədir və **ildə 1 dəfə ölkəyə gəlir** | 6 | |
| O daim xaricdədir və ildə bir neçə dəfə ölkəyə gəlir *(bayramlara/məzuniyyətə və s ).* | 9 | |
| O, mütəmadi olaraq Azərbaycanı tərk edərək yenidən qayıdır, demək olar ki, **vətəndə və xaricdə eyni müddət ərzində qalır** *(məsələn, 3 ay xaricdə işləyir, 3 ay evdə qalır və sonra yenidən xaricə gedir)* | 2 | |

56 qadından 32-i həyat yoldaşlarının xaricdə işləməsilə bağlı onların fikirlərini soruşduğunu bildirməklə ailələrin çoxunda miqrasiya etmək haqqında qərarın qarşılıqlı razılıq əsasında qəbul edildiyini və bu qərarın ailənin maddi rifahının yaxşılaşdırılması üçün yeganə imkan hesab olunduğunu təsdiq etmişdir.

Ölkədə qalan qadınların verdiyi məlumata əsasən azərbaycanlı miqrantlar təyinat ölkələrində yaşamaq üçün icazəyə malik olsalar da, onların orada işləmək icazəsi yoxdur (sorğu zamanı 20 halda verilmiş məlumat). Miqrantlardan 7-si əmək müqaviləsi əsasında, 7-si əmək müqaviləsi olmadan işləyir, 2-si öz biznesini qurub, 1-i azadlıqdan məhrum edilib. Qadınlardan 19-u isə həyat yoldaşları-

[51] F.Vadean, M. Piraçia *"Dairəvi miqrasiya və ya həmişəlik qayıdış: miqrasiyanın müxtəlif formalarını nə müəyyən edir?"* Kent Universiteti, İqtisadi Sənədlərin Müzakirəsi Fakültəsi. KDPE 09/12, 2009-cu il.

nın xaricdə hansı işlə məşğul olmaları barədə heç bir məlumata malik olmadıqlarını bəyan etmişdir. Həyat yoldaşlarının xaricdə hansı işlə məşğul olduqlarını bilməyən qadınların çoxu 36-45 və 46-dan yuxarı yaşda idi və sözügedən kişilər 4 ildən çoxdur ki, xaricdədirlər. Həmin qadınların çoxu həyat yoldaşları ilə əlaqənin olmadığını və patriarxal ənənələrin hələ də mövcud olduğunu təsdiq etmişdir: *"istənilən halda qadın ikinci dərəcəli və kişiyə tabe olmalı bir insan kimi qəbul olunur"* (II_E4 saylı mütəxəssis).

Bir sıra kişilərin təyinat ölkəsində inteqrasiya olunmaq tendensiyası onların həmin ölkənin vətəndaşlığına malik olması faktı ilə izah olunur. Həyat yoldaşlarının olduqları təyinat ölkələrinin vətəndaşlığına malik olmadıqlarını bildirən 27 qadınla müqayisədə 18 qadın öz həyat yoldaşlarının bu cür vətəndaşlığa malik olduqlarını bildirmişdir. Qadınlardan 12-nin öz həyat yoldaşlarının vətəndaşlığı ilə bağlı heç bir məlumatı yox idi.

Öz həyat yoldaşlarının söylədiklərinə əsasən vətəndaşlığı olan 18 miqrantdan 17-si kənd yerlərindən idi və çoxunun 1 və ya 2 uşağı var idi.

Öz həyat yoldaşlarının təyinat ölkələrinin vətəndaşlığına malik olub-olmadığını bilməyən qadınların təxminən yarısı onlarla xaricdə olduqları zaman əlaqə saxlamayıblar. XXI əsrdə vətəndə qalan ailə üzvlərilə əlaqə saxlamamaq bunun üçün istəyin və ya miqrantların telefon danışıqları üçün xərcin ödəmək iqtidarında olmadığını nümayiş etdirir və sonuncu amil daha çox yoxsul ailələrə xasdır.

### 2.3. Qadınların xaricdə işləyən miqrant ərləri ilə əlaqə saxlaması

Tədqiqat zamanı sorğuda iştirak etmiş qadınların üçdə biri (18 nəfər) həyat yoldaşları xaricdə olduqları zaman onlarla əlaqə saxlamamışdırlar. Bu fakt əsasən miqrantların öz ailələrilə əlaqəni itirməsilə izah oluna bilər. Sözügüdən kişilərin 12-si bundan 4 il əvvəl xaricə getmişdir, 4-ü isə getdiyi zaman 3-4 ilə vətənə dönəcəyini bildirmişdir. Belə vəziyyətə düşmüş qadınlar kənd yerlərində yaşayır və 11 ildən artıqdır ki, ailə qurublar.

Xaricdəki həyat yoldaşları ilə əlaqə saxlamış 38 qadından 14-ü bunu keçən həftə, 10-u hardasa 1 ay, 9-u təxminən 3 ay, 4-ü 1 il əvvəl, 1 isə xatırlaya bilmədiyi tarixdə telefon vasitəsilə etmişdir (Diaqram 7-ə baxın). Əsas rabitə vasitələri mobil (22) və adi (16) telefonlardan ibarətdir. "E-mail"-dən, "Skype"-dan və sosial şəbəkələrdən istifadə olunmamışdır. Bunu proseslərin asanlaşdırılması üçün Azərbaycanda müvafiq resursların çatışmazlığı və miqrantların olduğu təyinat ölkələrindəki amillərlə izah etmək olar. Sorğuda iştirak etmiş qadınlardan yalnız 5-nin kompüteri və sadəcə olaraq 1-nin internetə çıxışı var.

Ailəsinin digər üzvlərilə xaricə getmiş kişilər vətənlərində qalan ailələrilə bir qayda olaraq əlaqə saxlayırlar. Məlumatlar çox azsaylı bir kontingentdən toplandığından hansısa ümumi bir qənaətə gəlmək mümkün deyil. Lakin müəyyən olunmuşdur ki, bir nəsildən təşkil olunmuş ailələr və "zəngin" miqrasiya təcrübəsinə malik kişilər öz ailə üzvlərilə əlaqələri itirməkdən ibarət daha yüksəksəviyyəli risklərlə üzləşirlər.

**Diaqram 7. Xaricdə işləyən azərbaycanlı miqrantın öz ailə üzvləri ilə son dəfə nə vaxt əlaqə saxladığı hallar**




Ailə ilə əlaqələrin itirilməsi qadınlar üçün böyük təhdidlər yaradır. Bunun savadsız qadınlar üçün daha ciddi fəsadları olur, çünki onlar ərlərinin maddi dəstəyi olmadıqda adətən öz uşaqlarını saxlamaq üçün başqa gəlir mənbələrinə malik olmurlar və ailənin digər üzvlərinə baxmaq üçün iş tapmaqda çox cüzi imkanlara malik olurlar. Bundan başqa, ənənələrə uyğun olaraq qadınlara xaricdə işləyərək ailəsilə əlaqə saxlamayan və ya ailəsinə maddi kömək göstərməyən həyat yoldaşı ilə boşanmaq prosesinə başlamağa icazə verilmir. Boşanma prosesinə başlamaq qərarı verən və xüsusilə də dini nikahda olan qadınlar həmin proseslə bağlı çətinliklərlə üzləşirlər (Fəsil III-ə baxın). Bu cür qadınlar boşandıqları halda əmlak bölgüsü ilə bağlı vəsatət qaldıra bilmirlər, belə vəsatət qaldırdıqda isə uzunmüddətli və mürəkkəb hüquqi və inzibati proseslərdən keçməli olurlar.

Kənd yerlərində yaşayan qadınlar üçün yeni ailə qurmaq çox çətindir: *"cəmiyyət bunu yaxşı qəbul etmir."* (II_E4 saylı mütəxəssis); *"qadın hətta "qeyrət, namus üstündə" öldürülə bilər, çünki o, namusunu təhlükə altına qoyur və ya buna bənzər bir şey və bu cür hallar geniş yayılmasa da, bəzən baş verir"* (II_E4 saylı mütəxəssis). Bu səpkidən olan patriarxal stereotiplər qadınlara psixoloji təsir göstərir.

## 2.4. Xaricdəki azərbaycanlı kişi miqrantlar tərəfindən Azərbaycanda qalan ailələrinə göstərilən yardım və bu ailələrin vəziyyəti

Sorğuda iştirak etmiş 56 ailədən yalnız 22-si miqrant ailə üzvlərindən maddi dəstək şəklində pul köçürmələri alırdı. Toplanmış məlumatlara görə vətəndə qalan ailələrinə köməklik göstərməyən xaricdəki miqrantlar ailə üzvlərilə əlaqələri itirmişdilər. Adətən öz ailələrilə əlaqəsi olmayan kişilər bu ailələrə maddi cəhətdən kömək də etmirlər. Eyni zamanda, vətəndə qalan ailə üzvlərilə əlaqə saxlayan miqrantların da böyük bir sayı ailə büdcəsinə maddi töhfələr vermir (Diaqram 8-ə baxın).

**Diaqram 8. Öz ailəsi ilə əlaqələr kontekstində miqrant tərəfindən evə göndərilən pul köçürmələri**




Sorğuda iştirak etmiş qadınların verdiyi məlumata əsasən miqrantlar tərəfindən köçürülən pulun məbləği orta hesabla 98 manata bərabərdir (minimum 3 manat, maksimum 300 manat). Bu məbləğ xaricdəki miqrantın gəlirinin təqribən 66%-i təşkil edir (minimum 2%, maksimum 100%-i). Pul köçürmələrindən faydalanan 22 ailədən 11-də bu vəsait ümumi gəlirin 100%-i təşkil edir. Digər 11 ailədə isə pul köçürmələrinin gəlir strukturundakı faiz nisbəti 28-ə bərabərdir.

**Diaqram 9. Xaricdəki azərbaycanlı miqrantlar tərəfindən Azərbaycanda qalan ailələrinə pulların hansı tezliklə göndərilməsi**




Öz ailə üzvlərinə pul göndərən 22 azərbaycanlı miqrant bunu mütəmadi qaydada etmir. Kişilərdən yalnız 6-sı öz ailəsinə hər ay pul göndərir, 8-i bunu bir neçə ayda 1 dəfə, digərləri ildə 1 və ya 2 dəfə, hətta bəzən orta hesabla ildə 1 dəfədən də az edirlər (Diaqram 9-a baxın). Bu məlumatlar digər tədqiqatlardan irəli gələn məlumatlarla üst-üstə düşür və həmin tədqiqatlara əsasən ailə üzvləri üçün pul göndərənlərin əksəriyyəti (78%) bunu ən çoxu ildə 3 dəfə edir.[52]

[52] A. Allahverənov, R. Əliyeva, T. Sadıqov *"Mərkəzi və Şərqi Avropada miqrasiyanın və kənd-şəhər miqrasiyasının sosial təsiri. Azərbaycan üzrə Ölkə Hesabatı", səh. 17.* Aprel 2012-ci il.

Pul köçürmələri alan 22 qadından 8-i göndərilən əmanətin məbləğinin əvvəlki illərlə müqayisədə dəyişmədiyini bildirdiyi halda, qalan 14 qadın məbləğin azaldığını qeyd etmişdir.

Ailənin şəraitindən asılı olaraq miqrasiyanın təsiri əhəmiyyətli dərəcədə dəyişir. Tədqiqat zamanı əldə olunan məlumatlar sorğuda iştirak etmiş ailələrin orta aylıq gəlirinin 116 manata bərabər olduğunu göstərir (xaricdəki ailə başçıları/digər ailə üzvləri tərəfindən göndərilən vəsait və ailənin vətəndəki üzvlərinin qazancı, o cümlədən, sosial ödənişlər və maddi yardım). Kənd yerlərində yaşayanlarla müqayisədə şəhərlərdə yaşayanların orta aylıq gəlir səviyyəsi daha yüksəkdir (müvafiq olaraq təxminən 111 və 141 manat). Eyni zamanda, gəliri olmayan ailələr də mövcuddur.

Xaricdəki azərbaycanlı miqrantların Azərbaycanda qalan ailələrinin çoxu yoxsulluq həddindən aşağı səviyyədə yaşayır. Sorğuda iştirak etmiş qadınların yarısından çoxunun gəliri aylıq yaşayış minimumunun yalnız 25%-i əhatə edirdi[53] (Diaqram 10).

**Diaqram 10. Tədqiqatda iştirak etmiş ailələrin gəlir səviyyəsi**




Xaricdəki azərbaycanlı miqrantların Azərbaycanda qalan həyat yoldaşlarının yaşadıqları evlər çox aşağı səviyyədə təchiz olunub. Evlərin hamısı elektrik enerjisilə təmin olunsa və böyük əksəriyyətində (56 evdən 44-də) televizor olsa da, yalnız 38 evdə mobil telefondan istifadə olunur, 33 evdə qaz plitəsi, 32 evdə soyuducu və ya dondurucu, 25 evdə qızdırıcı soba, 23 evdə hamam otaqları, 3 evdə isə ümumi həyət hamamları var. Evlərin yalnız 29-u təbii qazla, 24-ü su ilə təchiz olunub, 9-u isə kanalizasiya sisteminə qoşulub. Xaricdəki miqrantların vətəndə qalan həyat yoldaşlarının yaşadıqları evlərdə paltaryuyan maşınlara, kompüterlərə, kondisionerlərə, internet xəttinə və avtomobillərə nadir hallarda rast gəlmək olar ki, qeyd olunan ilk üç cihaz müvafiq olaraq 14, 5 və 3 ailədə mövcuddur. Sorğuda iştirak etmiş 1 nəfərin interneti birinin isə avtomobili var.

2012-ci ildə həyata keçirilmiş Ev Təsərrüfatlarının Tədqiqatı (ETT) zamanı toplanan məlumatlarla müqayisədə xaricdəki miqrantların Azərbaycanda qalan həyat yoldaşlarının yaşadığı evlərdə avadanlıqlara daha az rast gəlinir. ETT zamanı əldə olunmuş məlumatlar 100 evdə 105,5 rəngli televizorun, 225,4 mobil telefonun, 73,9 paltaryuyan maşının, 27,1 avtomobilin, 31,2 kondisionerin və 23,2 fərdi kompüterin olduğunu müəyyənləşdirmişdir.[54] Bu bizim sorğuda iştirak etmiş miqrant ailələrin ölkə üzrə orta səviyyə ilə müqayisədə daha yoxsul olduğunu və avadanlıqlarla daha az təmin olunduğunu nümayiş etdirir.

[53] Bu rəqəm 2012-ci il üzrə böyüklər, uşaqlar və yaşlılar üçün aylıq yaşayış minimumu ("http://en.apa.az/news/181046" saytı) və ailələr tərəfindən bəyan edilmiş aylıq əmək haqqı əsasında hesablanmışdır.

[54] 2013-cü il iyulun 11-də baxılmış "http://www.stat.gov.az/source/budget_households/indexen.php." saytı.

**Diaqram 11. Pul köçürmələrinin müvafiq ailələr tərəfindən istifadəsi**




Sözügedən ailələrin böyük əksəriyyəti pul köçürmələrini cari, o cümlədən, kommunal xərclərin, bəzən borcların, tibbi xərclərin, uşaqların təhsil haqlarının ödənilməsinə, mənzil/ev təmiri üçün və s. məsələlərə sərf edir (Diaqram 11-ə baxın). Sözügedən ailələrin az bir hissəsinin pul köçürmələrini cari xərclərdən başqa digər işlər üçün istifadə etməməsi hansısa konkret qənaətə gəlməyə imkan vermir.

Tədqiqat nəticəsində əldə olumuş məlumatlar başqa ölkələrdən, məsələn, Moldovadan, Ukraynadan, Gürcüstandan olan kişi miqrantlarla müqayisədə azərbaycanlı miqrantların öz ailələrinin maddi vəziyyətini yaxşılaşdırmaq üçün az kömək etdiyini göstərir.[55] Başqa ölkələrdən olan miqrant ailələri ev və ya torpaq sahəsi almaq və yaxud öz biznesini qurmaq üçün pul toplamağı bacardığı halda, tədqiqatda iştirak etmiş azərbaycanlı ailələrindən heç biri belə bir imkana malik deyildi.

Sorğuda iştirak etmiş qadınların söylədiklərinə əsasən 35 halda onların ailələrinin maddi vəziyyəti qonşu ailələrin vəziyyətindən pisdir, 9 ailədə vəziyyət dəyişməz olaraq qalıb, yalnız 1 ailə maddi vəziyyətinin yaxşılaşdığını bildirib, 11 qadın isə mövcud vəziyyəti qiymətləndirməkdə çətinlik çəkib. Müvafiq olaraq ailədə uşağın olub-olmamasından asılı olmayaraq miqrasiya, demək olar ki, bütün ailələrə mənfi təsir göstərmişdir (Diaqram 12-ə baxın). Miqrant ailələrin maddi vəziyyətinin pisləşməsi ailə başçısının miqrasiya etməzdən əvvəl kənd təsərrüfatı işlərindən əldə etdiyi gəlirinin sonradan göndərdiyi pul köçürmələrinin məbləğindən yüksək olması ilə izah olunur.

---

[55] L. Barbone, M. Bonç-Osmolovskiy, M. Luecke *"Şərq Tərəfdaşlığı Ölkələrindən əmək miqrasiyası: inkişaf yolu və daha yaxşı nəticələr üçün siyasət variantları"* CASE, 2013-cü il.

**Diaqram 12. Xaricdəki azərbaycanlı miqrantların Azərbaycanda qalan ailələrinin qonşu ailələrlə müqayisədə maddi vəziyyəti**




Ölkələrin çoxunda vətəndə qalan ailələrə pul köçürmələri göndərməklə maddi köməkliyin göstərilməsilə yanaşı, bəzi mallardan ibarət bağlamalar göndərməklə ailələrin iqtisadi vəziyyətinin də yaxşılaşdırılması geniş yayılmış bir təcrübədir. Lakin bağlamalar göndərmək təcrübəsi Azərbaycandan olan miqrantlara xas deyil. 56 miqrantdan yalnız 4-ü vətəndə qalan ailələrinə bağlamalar göndərirdi. Hətta belə bağlamalar da müntəzəm olaraq göndərilmir – qadınlardan biri ayda 1 dəfə, digəri bir neçə aydan bir bağlamalar aldığını qeyd etsələr də, başqa qadınlar nadir hallarda bağlama aldıqlarını bildirmişdirlər. Evə göndərilən bağlamalar adətən uşaqlar üçün geyim əşyaları, ayaqqabılar və ya məktəb ləvazimatlarından ibarət olur.

## 2.5. Kişilərin miqrasiyasının öz həyat yoldaşları üçün fəsadları

### *Məşğulluq*

Kənd yerlərində yaşayan qadınlar onların həyat yoldaşları ölkədən getdikdən sonra ikiqat çətinliklərlə üzləşirlər. Onlar torpaq sahəsindəki işlərin çoxunu əsasən əllə görməklə yanaşı, çoxsaylı ev işlərini və vəzifələri də həyata keçirməli olurlar. Bundan başqa, kənd yerlərində yaşayan və işləyən qadınlar onlara kömək edə biləcək infrastrukturun olmamasına da uyğunlaşmalı olurlar –uşaq bağçaları ya yox səviyyəsindədir və ya çox bərbad vəziyyətdədir, məktəb yaşında olan uşaqlar üçün məktəbdən sonra müxtəlif fəaliyyətlər təklif edən dərnəklər isə mövcud deyil.

Xaricdəki miqrantların vətənində qalan həyat yoldaşlarının böyük əksəriyyətinin (53 qadın) şəxsi ehtiyacları üçün kifayət qədər vaxtı qalmır, çünki onlar həmişə ailənin digər üzvlərinə baxırlar və ev işlərilə məşğul olurlar. Qadınlar öz həyat yoldaşlarına görə darıxırlar və uşaqların tərbiyə olunmasında kişilərin dəstəyinə ehtiyac duyurlar.

Tədqiqatdan irəli gələn nəticələr ərlərin xaricə getməsi faktının vətəndə qalan qadınların məşğulluq vəziyyətinə də müəyyən dərəcədə təsir etdiyini göstərir. Ağır maddi vəziyyət sorğuda iştirak etmiş və əri vətəndə olduğu zaman evdar qadın statusuna malik 5 qadını iş axtarmağa məcbur etmişdir. Bir qadın iş tapmağa nail olmuşdur. Bu isə qadınlar üçün məşğulluq imkanlarının aşağı səviyyədə olmasını sübuta yetirir (Cədvəl 5-ə baxın).

**Cədvəl 5. Ərləri xaricə işləmək üçün getməzdən əvvəl və getdikdən sonra onların həyat yoldaşlarının məşğulluq vəziyyəti**

| Qadının məşğulluq vəziyyəti | Həyat yoldaşı xaricə getməzdən əvvəl | Həyat yoldaşı xaricə getdikdən sonra |
|---|---|---|
| Əmək müqaviləsi əsasında işləyir | 6 qadın | 7 qadın |
| İşləyir, lakin rəsmən işə götürülməyib/əmək müqaviləsi yoxdur | 2 qadın | 1 qadın |
| Kənd təsərrüfatı işlərilə məşğul olur | 1 qadın | 1 qadın |
| İşləmir, lakin iş axtarır | 8 qadın | 14 qadın |
| İşləmir və iş axtarmır/evdar qadındır | 37 qadın | 32 qadın |
| Təhsil alır | 1 qadın | Qadınlardan heç biri |
| Cavab vermədi | 1 qadın | 1 qadın |

Lakin əmək haqlarının çox aşağı olması səbəbindən qadınların işlə təmin olunması faktı ailənin tələbatı ilə bağlı bütün problemləri həll etmir. Mütəxəssislər bəzi qadınların öz ailələrini saxlamaq üçün əlavə işlərlə məşğul olmağa məcbur olduqlarını vurğulamışdır: “*məsələn, müəllimə işləyən qadın öz ailəsini saxlaya bilməz, çünki onun əməkhaqqı çox azdır. Belə olduqda o, evdə uşaqlara fərdi dərs verməklə ailəsinin gəlirini artırır”* (II_E5 saylı mütəxəssis).

Bir sıra miqrantlar tərəfindən ailələri üçün göstərilən yardımın qeyri-stabil xarakter daşıması qadınları hətta yeni peşələr üzrə iş axtarmağa məcbur edir. Yaranan çətinliklər onların dərzi, aşbaz, xadimə və ya dayə kimi işləmələrinə gətirib çıxarır. Bəzi mütəxəssislər kişilərin Azərbaycandan xaricə işləməyə getmələri faktının onların həyat yoldaşları üçün aşağıda sadalanan müsbət hallarla nəticələndiyini vurğulamışdır:

(i) Qadınların ailədəki rolunun artması: onlar ailə büdcəsinin xərclənməsi, ev təsərrüfatının, torpaq sahəsinin, ailə işlərinin, uşaqların tərbiyə olunma prosesinin və s. məsələlərin idarə olunması üzrə əsas nəzarəti öz üzərlərinə götürürlər;

(ii) Qadınlar üçün məşğulluq imkanlarının artması;

(iii) Gender bərabərliyinə aid məsələləri nəzərə almaqla qadınların xüsusilə kənd icmalarında qərar qəbul etmə prosesində iştirak etməsi;

(iv) Qadınların yeni ailə başçısı olması nəticəsində onlara cəmiyyətdəki münasibətin dəyişməsi.

Əgər bu həqiqətən də belədirsə, kişilərin işləmək məqsədilə xaricə miqrasiyası onların həyat yoldaşlarında özünə inam hissinin, səlahiyyətlərinin və icmadakı iştirak səviyyəsinin artmasına şərait yaradır. Lakin bizim tədqiqatda məhdud sayda qadınların iştirak etməsi bu cür faktları üzə çıxarmadı.

***Sağlamlıq***

Miqrasiya miqrantlar və onların vətəndəki ailələri üçün çoxsaylı problemlər yaradır. Bu cür problemlərdən biri miqrantların və onların ailə üzvlərinin, xüsusən də həyat yoldaşlarının səhhətinin pisləşməsilə əlaqədardır. Tədqiqatda iştirak etmiş qadınlar öz səhhətlərini *“pis”* (28 nəfər) və ya *“çox pis”* (6 nəfər) kimi qiymətləndirdiyi halda, 17 qadın səhhətinin *“qənaətbəxş”,* 5-i isə *“yaxşı”* olduğunu bildirmişdir. 56 qadından heç biri öz səhhətindən tam razı deyil. Onların səhhətinə yaş da təsir göstərir: yaşı 46-dan yuxarı olan qadınların çoxu öz səhhətlərinin *“pis”* və ya *“çox pis”* olduğunu bildirmişlər (Diaqram 13-ə baxın). Yaşı 28-dən 35-dək olan və səhhətlərinin *“pis”* və ya *“çox pis”* olduğunu bildirən qadınların hamısı kənd yerlərində yaşayır və orta hesabla 1-2 uşaq böyüdür.

Vətəndə qalan qadınların çoxu öz həyat yoldaşlarının seksual sədaqətsizliyin qurbanına çevrilə bilər. Tədqiqat zamanı görüşlərdə iştirak etmiş mütəxəssislər miqrant ərlərin öz ailələrinə dəri-zöhrəvi xəstəliklərinin “gətirilməsinə” görə məsuliyyət daşıdıqlarını bildirmişdirlər: *“qadınlar ginekoloji problemlərlə üzləşməklə yanaşı, öz miqrant ərləri vasitəsilə infeksion xəstəliklərə də yoluxurlar”* (II_E1 saylı mütəxəssis).

Toplanmış məlumatlar xaricdəki miqrantların ölkədə qalan həyat yoldaşlarının öz səhhətlərilə bağlı həkimə/tibb bacısına baş vermiş miqrasiya prosesindən sonra ilk 6 ay ərzində müraciət etdiyini göstərir. Həkimə müraciət etmə halları qadınların ümumi səhhətindən asılıdır. Yaşı 35-dən aşağı (15 qadından 10-u) və 46-dan yuxarı (15 qadından 9-u) olan qadınlar həkimlərlə daha çox məsləhətləşirlər, 36-45 yaşında olan qadınlar isə (yalnız 26-dan 9-u) bunu nisbətən nadir hallarda edirlər.

Heç bir şübhə yoxdur ki, xaricdə yaşayan həyat yoldaşlarından ayrı düşmə, yaranmış vəziyyətin öhdəsindən gəlməklə əlaqədar yaranan stress, bütün ev işlərini görmək zərurəti və s. çətinliklər qadınların ümumi səhhətinə mənfi təsir göstərir.

**Diaqram 13. Xaricdəki azərbaycanlı miqrantların Azərbaycanda qalan həyat yoldaşlarının səhhətilə bağlı vəziyyət (yaş qrupları üzrə)**




### *Xaricdə işləyən həyat yoldaşlarının yanına gedən qadınlar*

Müsahibə aparılmış qadınlardan 20-si xaricə getdiyini bildirmişdir. Həmin qadınlardan 11-i xaricdə 1 dəfə, digərləri isə ən azı 2 dəfə olub. Xaricə getməyin ən çox (11 qadın tərəfindən) hallandırılan səbəbi  həyat yoldaşlarını görmək idi, digər 4 qadın öz həyat yoldaşı ilə xaricə getmişdir, 3 qadın müəyyən müddət ərzində xaricdə yaşadığını qeyd etmişdir. Xaricə getməyin digər səbəbləri müalicə, həyat yoldaşı ilə birlikdə işləmə və ya xaricdəki qohumlara baş çəkmə ilə əlaqədar idi (Diaqram 14).

**Diaqram 14. Azərbaycanlı miqrantların həyat yoldaşlarının xaricə getmə səbəbləri**



***Azərbaycanda qalan qadınların xaricdəki azərbaycanlı miqrant ərlərinin qohumları ilə münasibətləri***

**Diaqram 15. Azərbaycanda qalan qadınların xaricdəki azərbaycanlı miqrant ərlərinin qohumları ilə münasibətlərinin səviyyəsi**




Azərbaycanda qalan qadınların xaricdəki azərbaycanlı miqrant ərlərinin (qadınlarla bir evdə yaşamayan) qohumları ilə münasibətləri əsasən *"yaxşı"* və ya *"çox yaxşı"* (26 qadın), *"qənaətbəxş"* (6 qadın), *"nə yaxşı, nə pis"* (8 qadın) və ya *"düşməncəsinə"*dir (9 qadın). 6 qadın bu cür münasibətləri qiymətləndirməkdə çətinlik çəkmişdir, digər 7 qadın isə həyat yoldaşının qohumları ilə əlaqəni itirmişdir (Diaqram 15-ə baxın).

26 qadın, əsasən uzun müddət ərzində ərdə olanlar, bu qohumlardan əksər hallarda müəyyən problemləri həll etmək məqsədilə məsləhət formasında, nadir hallarda maddi yardım, uşaqlara baxmaq və ev işlərini görmək şəklində və çox nadir hallarda uşaqlara nə isə almaq və ya onların müalicələrinə yardım etmək qismində kömək görür.

Maddi, psixoloji və tibbi çətinliklərlə yanaşı, qadın öz həyat yoldaşının ailəsilə münasibətlər baxımından da problemlərlə üzləşir və onun fikri bir çox hallarda icma tərəfindən nəzərə alınmır.

## 2.6. Xaricdəki azərbaycanlı miqrantların Azərbaycanda qalan uşaqları və yaşlı ailə üzvləri və onların sosial inteqrasiyası

***Xaricdəki azərbaycanlı miqrantların Azərbaycanda qalan uşaqları***

Tədqiqatla əhatə olunmuş ailələrdən 50-də uşaqlar böyüyür: 14 ailədə 1, 23 ailədə 2, 9 ailədə 3, 3 ailədə 4 və 1 ailədə 5 uşaq var. Bu uşaqların yaşı 1-dən 18-ə qədərdir. Məktəbəqədər yaşda uşaqlar böyüdən ailələrin sayı isə azdır – 14 ailə (Diaqram 16-a baxın).

**Diaqram 16. Xaricdəki azərbaycanlı miqrantların Azərbaycanda qalan uşaqlarının doğum illəri üzrə bölgüsü**




Qadınların verdiyi məlumatlara əsasən onların uşaqlarının miqrant ataları ilə münasibətlərini 4 kateqoriyaya bölmək olar:

1. Dostluğa və qarşılıqlı inama əsaslanan yaxşı və ya çox yaxşı münasibətlər (26 ailədə),

2. *“Nə isti, nə soyuq”* münasibətlər (4 ailədə),

3. Uzaq, *“soyuq”* və ya *“çox soyuq”* münasibətlər (8 ailədə),

4. Uşaqlar xaricdə işləyən ataları ilə ümumiyyətlə əlaqə saxlamırlar və bu uşaqların anaları da onların ataları barədə danışmırlar (12 ailədə).

**Diaqram 17. Xaricə nə vaxt getməsindən asılı olaraq orada işləyən azərbaycanlı miqrantların öz uşaqları ilə hansı dərəcədə maraqlanması**



Sorğuda iştirak etmiş qadınlardan 21-i onların həyat yoldaşları tərəfindən uşaqların həyatı, məktəbdəki nailiyyətləri və üzləşdikləri problemlərinə mütəmadi olaraq maraq göstərildiyini bəyan etmişdir. 5 miqrant bunu vaxtaşırı edir, 6-ı onların yalnız necə olduqlarını soruşur, qalan 18-i isə ümumiyyətlə uşaqları barədə soruşmur. Tədqiqat zamanı əldə olunmuş məlumatlar miqrantların xaricdə nə qədər çox qalmasından asılı olaraq uşaqları ilə o qədər az maraqlandığını göstərir (Diaqram 17-ə baxın). Xaricdə olduğu zaman həyat yoldaşları ilə əlaqə saxlamayan kişilərin bir qismi (32 nəfərdən 13-ü) 11 ildən 20 ilədək və ya daha çox müddət ərzində nikahda olmasına baxmayaraq öz uşaqlarının vəziyyət ilə maraqlanmırdı (14 nəfərdən 12-i).

**Diaqram 18. Xaricdəki azərbaycanlı miqrantların Azərbaycanda qalan həyat yoldaşları tərəfindən öz uşaqlarının sağlamlıq səviyyəsinin qiymətləndirilməsi**




Analar uşaqlarının səhhətinin onların səhhətindən daha yaxşı olduğunu bildirmişdir. Onlardan 15-i uşaqlarının sağlamlıq vəziyyətini *"yaxşı"*, 17-si *"qənaətbəxş"*, 6-sı *"pis"*, 1-i isə *"çox pis"* kimi qiymətləndirmişdir. 11 qadın hər bir uşağın fərqli vəziyyətdə olduğunu qeyd etmişdir (Diaqram 18-ə baxın).

Xaricdə işləyən ataların vətəndə qalan uşaqlarından bəzilərinin son 12 ayda məktəbə getməməsindən ibarət hallara da rast gəlmək mümkün idi. Məktəbli yaşında uşaqları olan 40 qadından 9-u belə hallar barədə danışmışdır. Bu uşaqların məktəbə getməməsi səbəbi onların səhhəti (5 qadın bu səbəbi qeyd etdi), məktəb ləvazimatlarının, o cümlədən, məktəbli formasının olmaması (5 qadın), digərləri paltarlarının və ayaqqabının olmaması, həmçinin uşaqların ev işlərində köməklik göstərməsi zərurətilə əlaqədar idi. Məktəbə getməmək halları xüsusən məktəbli yaşında olan 2-3 uşağın böyüdüyü ailələrə xas idi.

Kişilərin xaricə işləməyə getməsindən sonra uşaqların üzərinə yeni vəzifələrin düşməsi xüsusi diqqət kəsb edən bir məsələdir. Tədqiqat zamanı əldə olunmuş məlumatlar göstərir ki, ataların xaricə işləməyə getməsindən sonra 15 uşaq onların ev təsərrüfatları ilə bağlı bəzi işlərini öz üzərinə götürmüşdür, 10 uşaq həyətdə kənd təsərrüfatı işlərilə məşğul olurdu, 7 uşaq mal-qaraya baxırdı, 3 uşaq qazanc əldə etmək üçün işləməyə başlamışdır, 1 uşaq isə meyvə-tərəvəz satırdı. 17 uşağın hansısa işləri görmək üçün yaşı çox az idi, digər 18 uşaqdan isə ataları ölkədən getdikdən sonra məsuliyyətlərinin artırılması tələb olunmurdu. Bütün bunların nəticəsində təhsilə, oyuna və istirahətə ayrılan vaxt azalmışdır. Belə olduqda sözügedən ailələrdən olan uşaqların təhsildə yaxşı nəticələr əldə etməsi və gələcək ictimai fəallığı üçün diqqəti əsasən təhsilə yönəltməyi az ehtimal olunandır.

**Diaqram 19. Keçmiş bir il ərzində anaların öz uşağını/uşaqlarını qidalandıra bilməməsi və ya gündə bir dəfə qidalandırma halları**




Kişilərin xaricdə işlədiyi zaman onların ailələrinin yoxsulluqda, o cümlədən, heç bir yardım olunmadan yaşamasını nəzərə alaraq demək olar ki, hər 4 ailədən biri aclıqdan əziyyət çəkirdi. Belə ailələrdən olan qadınlar öz uşağını/uşaqlarını qidalandırmaq üçün heç nəyin olmadığını və ya onu/onları yalnız gündə 1 dəfə yedizdirə bildiklərini və bu cür vəziyyətlərin tez-tez yarandığını qeyd etmişdirlər (Diaqram 19-a baxın). Bu kimi vəziyyətlər əsasən 2 və ya çox uşaqlı ailələrdə yaranır.

Hal-hazırda Azərbaycanda kişilərin ölkədən getməsi faktının onların həyat yoldaşları ilə qalan uşaqlarına təsiri məsələlərinə xüsusi diqqət yetirən tədqiqatlar çox az saydadır. Bununla əlaqədar olaraq, biz miqrasiyanın uşaqlara təsirinin bəzi aspektlərinə diqqət yetirmək istərdik. İlk növbədə həmin uşaqlar natamam ailədə böyüdüyündən bu onların şəxsiyyətinə mənfi təsir göstərir. İkinci aspekt ondan ibarətdir ki, bu uşaqlar ev işlərində və ailənin maddi təminatının ödənilməsində öz analarına kömək etməli olduğundan onların təhsilə, oyunlara və istirahətə vaxtı az qalır. Bunun nəticəsində xaricdəki miqrantların vətənində qalan ailələrdən olan uşaqlar daha tez işləməyə başladığından təhsil prosesindən kənarda qalırlar. Bu cür ailələr öz uşaqlarının onlara daha böyük ictimai fəallıq təmin edəcək ali təhsil almaq istəklərinə müvafiq şərait yarada bilmirlər.

Tədqiqat zamanı görüşlərdə iştirak etmiş bir sıra mütəxəssis uşaq əməyi və uşaqların istismarı sahələrində araşdırmalar aparmışdır. Bu araşdırmalarda ailə büdcəsinə işə getməklə köməklik göstərmək üçün uşaqların məktəbi atmağa məcbur edilməsi hallarına rast gəlmək mümkündür: *“Mən atası Rusiyaya getdikdən sonra həyətdəki qoyunlara baxmalı olduğundan artıq 1-2 ildir ki məktəbə getməyən 15 yaşlı qızın əhvalatı barədə bəhs edən konfransda iştirak etmişdim”* (II_E2 saylı mütəxəssis). Cəlilabad rayonu kişilər xaricə işləməyə getdikdən sonra mövcud əmək qüvvəsinin əsas hissəsini təşkil edərək kənd təsərrüfatı işlərini aparan qadın və uşaqların daha çox müşahidə olunduğu rayon kimi qeyd edilir: *“... və siz qadınlardan həyat yoldaşlarının harada olduğunu soruşanda onların Rusiyada və ya Bakıda olduğunu eşidirsiniz...”* (II_E4 saylı mütəxəssis).

Kişilərin xaricə getməsinə cavab olaraq vətəndə qalan uşaqlarda aqressivliyin artmasını da istisna etmək olmaz. Bəzən bu uşaqlar cəmiyyətdə qəbul olunmuş normalardan kənara çıxan və ya hətta ziddiyyətli davranış nümayiş etdirərək müəyyən risk qrupunu da təşkil edirlər: *“kişinin xaricdə olduğu ailələrin çoxunda axşam evə gələrək uşağa “Sən bunu səhv etmisən” deyən və ya “Bunu nə üçün etmisən?” sualını verən bir böyük yoxdur. Bəzi hallarda ata hətta uşağını cəzalandırır da... Bütün bunlar baş vermədikdə uşaq nəzarətdən çıxır. Bu uşaqlar təxminən 13-14 yaşa çatdıqda spirtli içkilər qəbul etməyə və siqaret çəkməyə başlayırlar. Onlar bilirlər ki, anaları həddindən artıq məşğul*

*olduğundan bunu hiss etməyəcək, bunun pis olduğunu deyəcək ata isə burada yoxdur"* (II_E4 saylı mütəxəssis).

Həmin mütəxəssislərə əsasən istər oğlanlara, istərsə də qızlara şamil oluna biləcək belə vəziyyətə bir çox hallarda rast gəlmək mümkündür.

Kişilərin miqrasiyasının və ailəni tərk etməsinin uşaqlara uzunmüddətli təsiri mövcud olmuş ailə modelinin yeni vəziyyətə uyğunlaşması, bir sıra məsuliyyətlərin uşaqların üzərinə düşməsi və ailənin qorunub-saxlanmasından irəli gələn çətinliklərlə əlaqədardır. Bəzi mütəxəssislərə əsasən bütün bunları nəzərə aldıqda kişilərin miqrasiyasının onların uşaqlarına təsiri səviyyəsini öyrənmək üçün hərtərəfli psixoloji tədqiqatın həyata keçirilməsi tələb olunur.

### *Xaricdəki azərbaycanlı miqrantların Azərbaycanda qalan yaşlı ailə üzvləri*

Sorğuda iştirak etmiş ailələrdən 16-da yaşı 60-dan yuxarı olan ailə üzvləri yaşayır: 10 ailədə 1, 5 ailədə 2 və 1 ailədə 3 ailə üzvü yaşlıdır. Daha çox 11-20 il arası nikahda olan qadınların yaşlı ailə üzvlərilə birgə yaşaması qeydə alınmışdır ki, 11 ailədə bu onların həyat yoldaşlarının və çox nadir hallarda (5 ailədə) öz qohumlarıdır.

Yaşlı ailə üzvləri köməkçidirlər: bu xarakteristika həmin şəxslərlə yaşayan 16 ailədən 14-ü tərəfindən verilmişdir. Yaşlı ailə üzvləri tərəfindən göstərilən kömək iqtisadi xarakter daşıya bilər (12 ailədə), uşaqların qayğısına qalmaqdan (10 ailədə), maddi yardımın göstərilməsindən (10 ailədə), ev işlərinin görülməsindən (3 ailədə), həyat yoldaşının qohumları ilə əlaqələrin saxlanmasında köməkliyin göstərilməsindən (3 ailədə) və s. töhfələrdən ibarət ola bilər (Diaqram 20-ə baxın).

**Diaqram 20. Ailənin yaşlı üzvləri tərəfindən göstərilən kömək**




Sorğuda iştirak etmiş qadınlara əsasən onların ailələrində yaşayan yaşlıların maddi vəziyyətini aşağıda verildiyi kimi təsvir etmək olar:

- onlardan bəziləri özünə baxır və ailə başçısı xaricdə işləyəndə ailəyə maddi yardım göstərir (6 qadın),
- bəziləri qismən özünə baxır, eyni zamanda, onlara qismən xaricdəki miqrantların vətəndə qalan həyat yoldaşları köməklik göstərir (6 qadın),
- onlardan bəziləri özünə baxsa da, ailəyə kömək etmir (2 qadın) (Diaqram 21-ə baxın).

**Diaqram 21. Ailənin yaşlı üzvlərinin maddi vəziyyətinin sorğuda iştirak edən qadınlar tərəfindən təsvir edilməsi**




### *2.7. Kişilərin miqrasiyasının öz ailələri üçün fəsadları*

Xaricdəki miqrantların Azərbaycanda qalan həyat yoldaşlarının çoxu miqrasiyanı ailədaxili əlaqələrin dağılmasına şərait yaradan bir proses kimi qiymətləndirirlər və sorğuda iştirak etmiş 56 qadından 43-ü belə bir fikirlə tamamilə və ya qismən razılaşmışdır (Diaqram 22-ə baxın). 41 qadın miqrasiyanın ailədaxili münasibətlərin dağılması ilə yanaşı ərlə arvadın biri-birindən ayrılması və ya boşanması ilə nəticələndiyini vurğulamışdır. Yalnız 16 qadın miqrasiya nəticəsində onların nikahının daha da möhkəmləndiyini vurğulamışdır.

Qadınlardan yalnız bəziləri miqrasiyanın iqtisadi təsirə malik olduğunu qəbul edirlər (29 nəfər); digərləri miqrasiya nəticəsində ailənin iqtisadi vəziyyətinin yaxşılaşması qənaətilə razı deyillər (27 nəfər).

Ailə üzvlərinin miqrasiya proseslərində iştirak etdiyi qadınlardan bir neçəsi (17-si) ailələrinin cəmiyyətdəki sosial və mədəni iştirak səviyyəsinin artdığını bildirmişdir.

Tədqiqat nəticəsində əldə olunmuş məlumatlar miqrasiyanın ailələrə az fayda gətirdiyini müəyyənləşdirmişdir. Miqrasiya nəticəsində ailəsinin rifahının pisləşdiyini hesab edən 41 qadınla müqayisədə yalnız 12 qadın ailə rifahının yaxşılaşdığını bildirmişdir.

Başqa ölkələrdən fərqli olaraq Azərbaycanda ailə başçısının miqrasiyası nəticəsində uşaqların məktəbdən sonra təhsilinin davam etdirilməsi imkanlarının artması müşahidə olunmur (yalnız 9 ailə bununla əlaqədar müsbət dəyişikliklər barədə məlumat vermişdir) və eyni zamanda yeni ev almaq imkanları da azalır (yalnız 1 nəfər buna nail olduğunu bildirmişdir).

**Diaqram 22. Xaricdəki azərbaycanlı miqrantların Azərbaycanda qalan həyat yoldaşları tərəfindən miqrasiya təzahürlərinin qiymətləndirilməsi**




Miqrasiya Azərbaycandan olan ailələrə əsasən mənfi təsir göstərir. Sorğuda iştirak etmiş qadınlar çəkdikləri çoxsaylı əzab-əziyyətləri (47 nəfər) və ərlərindən ayrı düşmələri nəticəsində emosional sarsıntıları (32 nəfər), o cümlədən, ərlərilə əlaqələrin itməsini (21 nəfər) ön plana çəkmişdilər. 56 qadın-respondentdən 44-ü öz həyat yoldaşalrının miqrasiyası nəticəsində aşkarlamaq istəmədikləri fəsadların yarandığını bəyan etmişdir (Cədvəl 6-a baxın).

**Cədvəl 6. Miqrasiyanın ailəyə təsiri**

| | Bəli | Xeyr | Bunu demək çətindir |
|---|---|---|---|
| 1. Miqrasiya ailənin maddi rifahını yaxşılaşdırmışdır | 12 qadın | 43 qadın | 1 qadın |
| 2. Miqrasiya ailənin maddi rifahına mənfi təsir göstərmişdir | 41 qadın | 14 qadın | 1 qadın |
| 3. Miqrasiya ailənin icmadakı nüfuzunu artırmışdır | 6 qadın | 48 qadın | 2 qadın |
| 4. Miqrasiya ailənin icmadakı nüfuzuna xələl gətirmişdir | 14 qadın | 42 qadın | 0 |
| 5. Miqrasiya ailəyə Azərbaycanda ev almaq imkanı vermişdir | 1 qadın | 55 qadın | 0 |
| 6. Miqrasiya Azərbaycanda biznes qurmağa imkan vermişdir | 1 qadın | 55 qadın | 0 |
| 7. Miqrasiya uşaqların yaşayış və təhsil şəraitinin yaxşılaşdırılmasına imkan vermişdir | 9 qadın | 46 qadın | 0 |
| 8. Miqrasiya nəticəsində ailə üzvləri arasındakı emosional əlaqələr zəifləmişdir | 32 qadın | 24 qadın | 0 |
| 9. Miqrasiya nəticəsində qadınlar öz həyat yoldaşlarının yanında ola bilməməsindən əziyyət çəkir | 47 qadın | 7 qadın | 2 qadın |
| 10. Həyat yoldaşları getdikdən sonra qadınlar özlərini daha sərbəst və xoşbəxt hiss edirlər. Onlar fiziki zorakılıqdan və başqa növ pis rəftardan azaddır | 3 qadın | 51 qadın | 2 qadın |
| 11. Miqrasiya nəticəsində ailə üzvləri ailə başçısının vəzifələrini icra etmək və planlaşdırılan bütün işlərin öhdəsindən gəlmək üçün inadla işləməlidirlər | 26 qadın | 27 qadın | 3 qadın |
| 12. Həyat yoldaşlarının miqrasiyası qadınların heç kəslə bölüşmək istəmədiyi mənfi bir təcrübədir | 44 qadın | 8 qadın | 4 qadın |
| 13. Miqrasiya nəticəsində qadınlar öz həyat yoldaşları ilə əlaqələri itirmişdirlər | 21 qadın | 33 qadın | 2 qadın |

Sorğuda iştirak etmiş qadınlardan 45-i bildirmişdir ki, həyat yoldaşları ölkəni tərk etdikdən sonra onların ailələrinin rəyi icma tərəfindən nəzərə alınmırdı. Bu fakt xüsusilə 28-35 və 36-45 yaş arası qruplara aid qadınlar tərəfindən qeyd olunmuşdur.

Kifayət sayda qadın həyat yoldaşlarının miqrasiyası səbəbindən öz əmlakını, bəzən evini itirmək riskinin yarandığını bildirmişdir. Bundan başqa, qadınlardan 49-u öz əsas ehtiyaclarını ödəmək üçün pullarının olmadığı bir vəziyyətlə də üzləşdiyini vurğulamışdır.

Həyat yoldaşları xaricə getdikdən sonra qadınların üzərinə düşən çoxsaylı vəzifələr, həmçinin maddi və iqtisadi çətinliklər onların çoxunu ümidsiz vəziyyətə salırdı ki, onlar (49 halda) kömək üçün kimə müraciət edəcəklərini bilmirdi və qadınların yarısından çoxu (38 nəfər) həyat yoldaşlarının xaricdəki həyatı barədə heç nə bilmədiyindən və ya çox az bildiyindən boşanmaq niyyətinə gəlmişdir.

Eyni zamanda, qadınların yarısından çoxu (31 nəfər) öz həyat yoldaşlarının nə vaxt geri qayıdacağına və ya bir daha nə vaxt çıxıb gedəcəyi ilə bağlı, həmçinin ailə ilə əlaqədar gələcək planları barədə heç nə bilmirdi (Cədvəl7-ə baxın).

**Cədvəl 7. Xaricdəki azərbaycanlı miqrantların Azərbaycanda qalan həyat yoldaşlarının üzləşdikləri problemlər**

| | Bəli | Xeyr | Bunu demək çətindir |
|---|---|---|---|
| 1. Bütün vaxtlarını ailə üzvlərinə və ya ev işlərinə sərf etdiyindən qadınların özləri üçün vaxtı qalmırdı | 54 qadın | 2 qadın | 0 |
| 2. İcma xaricdəki miqrantların ölkədə qalan ailələrinə ailə başçısı olmadığından hörmət qoymurdu | 9 qadın | 45 qadın | 2 |
| 3. Qadınlar müxtəlif maddi və iqtisadi problemlərə və kömək üçün kimə müraciət edəcəklərini bilmədiyinə görə ümidsiz vəziyyətə düşürdülər | 49 qadın | 6 qadın | 1 qadın |
| 4. Qadınlar həyat yoldaşlarının xaricdəki həyatı, işi və s. məsələləri barədə heç nə bilmədiyindən boşanmaq istəyirdilər | 15 qadın | 38 qadın | 3 qadın |
| 5. Uşaqların tərbiyələndirilməsi zamanı həyat yoldaşlarının dəstəyinə ehtiyac olan vaxtlar olurdu | 53 qadın | 3 qadın | 0 |
| 6. Həyat yoldaşlarının qohumları qadınların onlara kömək etməyə borclu olduğunu hesab edirlər | 7 qadın | 47 qadın | 2 qadın |
| 7. Qadınlar öz həyat yoldaşlarının nə vaxt geri qayıdacağına və ya bir daha nə vaxt çıxıb gedəcəyinə dair, həmçinin ailə ilə əlaqədar gələcək planları barədə heç nə bilmirdilər | 32 qadın | 21 qadın | 3 qadın |
| 8. Qadınlar öz həyat yoldaşlarının miqrasiyası nəticəsində hansısa mallarını və ya əmlakını itirmək riskilə üzləşmişdilər | 12 qadın | 44 qadın | 0 |
| 9. Qadınlarda hətta əsas ehtiyaclarını ödəmək üçün kifayət qədər pul olmurdu | 49 qadın | 6 qadın | 1 qadın |

## 2.8. Gələcək planlar

Sözügedən qadınlardan 22-ə görə əsasən ailənin gələcək planları onların həyat yoldaşlarından asılı idi, çünki bu ailəni maddi cəhətdən saxlamaq üçün yeganə imkan idi. Qadınlardan 5-i isə bildirdi ki, onların həyat yoldaşları geri qayıdıb bir daha getməməyi planlaşdırır, 3 qadın isə bu barədə sualı cavablandırmaqda çətinlik çəkirdi. Qadınlardan 5-i onların həyat yoldaşlarının artıq ailədən ayrıldığını bəyan etmişdir, öz növbəsində bir qadın boşanmaq istəyirdi, digəri isə birinci onun həyat yoldaşının boşanmaq istədiyini bildirmişdir (Cədvəl 23-ə baxın). Ayrılma və boşanma məsələləri əsasən 3-4 il və ya daha uzun müddət ərzində xaricdə olan ailə başçısının ailələrinə xasdır.

**Diaqram 23. Xaricdəki azərbaycanlı miqrantların Azərbaycanda qalan həyat yoldaşlarına əsasən əlaqədar ailələrin gələcək planları**




Əldə olunmuş nəticələr sözügedən qadınların çoxunun (35 nəfər) öz həyat yoldaşlarının gələcək niyyətləri haqqında məlumatlı olmadığını, bəzi qadınların bu barədə həyat yoldaşları tərəfindən məlumatlandırıldığını (11 nəfər), digər qadınların (5 nəfər) bu barədə öz qohumlarından, tanışlarından və ya digər mənbələrdən eşitdiyini göstərir və yalnız 3 qadın həyat yoldaşları gələcək planlar qurduğu zaman onlarında fikrini soruşduğunu bildirmişdir (Diaqram 24-ə baxın).

**Diaqram 24. Xaricdəki azərbaycanlı miqrantların planları barədə onların Azərbaycanda qalan həyat yoldaşlarının məlumatlı olması**



### 2.9. Xaricdəki azərbaycanlı miqrantların Azərbaycanda qalan həyat yoldaşları və uşaqları üçün tələb olunan yardım

Üzləşdiyi maneələrin öhdəsindən gəlmək üçün sorğuda iştirak etmiş qadınlardan 29-u yardım üçün müxtəlif təşkilatlara müraciət etmişdir. Qadınların çoxu (25 nəfər) sosial yardım almaq məqsədilə dövlət orqanlarına, o cümlədən, 3 halda Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinə (AQUPDK), hüquq ekspertlərinə (2 nəfər), həkimlərə (2 nəfər), məşğulluq agentliklərinə, QHT-lərə, bələdiyyə orqanlarına və təhsil müəssisələrinə müraciət etmişdir.

Yardım üçün müraciət etmiş qadınların təqribən yarısı (29-dan 14-ü) kömək, o cümlədən, sosial yardım(6 nəfər), hüquqi yardım (2 nəfər), məhkəmədə hüquqi dəstək (2 nəfər), ailə ilə bağlı məsləhət, sosial dəstək, uşaq pulu, əlil uşaq üçün maddi yardım və s. müavinətlər almışdır.

Sözügedən qadınların böyük əksəriyyətinə əsasən öz problemlərinin öhdəsindən gəlmək üçün onlara maddi yardım, o cümlədən, məşğulluq imkanları, sosial müavinətlər, uşaqların böyüdülməsi və saxlanması, həmçinin təhsil alması üçün dəstək, tibbi və hüquqi məsləhətlər, məhkəmədə hüquqi yardım, ailə ilə bağlı məsləhətlər və psixoloji konsultasiyalar tələb olunur (Diaqram 25-ə baxın).

Xaricdəki azərbaycanlı miqrantların ölkədə qalan həyat yoldaşları üçün müxtəlif məsələlərə aid hüquqi məsləhətlər tələb olunur (sosial yardım və ya əlil uşaq üçün necə müavinət almaq olar, boşanmaq üçün necə müraciət etmək olar və s. məsələlər). Lakin bu cür məsləhətə ehtiyacı olan qadınların çoxunun müvafiq xidmətlər üçün ödənişlər etməyə əlavə maddi vəsaiti yox idi. Zəruri konsultasiyalardan faydalana bilməyən qadınlar məyus olaraq digər təşkilatlara da yardım üçün müraciət etməkdən boyun qaçırırdılar.

Əlaqə saxlamaq və gələcəkdə yardım almaq təklifindən imtina etmiş 4 qadınla müqayisədə 49 qadın onlara hüquqi yardım və digər növ xidmətlər göstərmiş agentliklərlə təmasda olmağa üstünlük vermişdir. 3 qadın isə öncə həyat yoldaşları ilə məsləhətləşəcəyini nəzərə çatdırmışdır.

Bundan başqa, sözügedən qadınların sosial yardım almaq üçün tələb olunan sənədlərin toplanması, xaricdə işləyən həyat yoldaşları tərəfindən onların uşaqlarına köməklik göstərmək məqsədilə əlaqədar məsələlərin necə həll olunması, boşanma prosesinin həyata keçirilməsi və digər sosial müavinətlərdən faydalanma istiqamətində məsləhətlərə ehtiyacı var. Bununla əlaqədar olaraq müvafiq icmalarda qadınlara zəruri (hüquqi, psixoloji, tibbi və s.) məsləhətlər verə biləcək mərkəzlər yaradılmalıdır. Eyni zamanda, qadın hüquq ekspertlərinin sayının artırılması əlaqədar məsləhətlərə ehtiyacı olan qadınlarda özünə əminlik hissini daha da gücləndirərək onlara məsləhət üçün müraciət etməyə mane olan tərəddüdlərini aradan qaldıracaq: *“bölgələrdən olan qadınlar kişi vəkillərə müraciət etməkdən boyun qaçırırlar”* (II_E1 saylı mütəxəssis).

**Diaqram 25. Xaricdəki azərbaycanlı miqrantların Azərbaycanda qalan həyat yoldaşları üçün tələb olunan yardım**




Baxmayaraq ki, kənd yerlərində məşğulluq imkanları məhduddur, burada sadalanan çətinliklərin öhdəsindən gəlmək üçün başqa bir çıxış yolu iş tapmaqdan ibarətdir. Kənd yerlərində yaşayan qadınların təhsil səviyyəsinin aşağı olması onları ixtisas tələb etməyən və az ödənişli işləri qəbul etməyə məcbur edir. Bununla əlaqədar olaraq qadınlar üçün kiçik biznesi inkişaf etdirməklə onların məşğulluq imkanlarını genişləndirərək səlahiyyətlərinin artırılması proqramlarına ehtiyac var.

# III. AZƏRBAYCAN RESPUBLİKASININ QANUNVERİCİLİYİNƏ ƏSASƏN ƏMƏKÇİ MİQRANTLARIN HƏYAT YOLDAŞLARININ HÜQUQİ VƏZİYYƏTİ

Rəsmi nikahda olan, lakin faktiki nikah münasibətlərində olmayan qadınlar bir sıra ciddi problemlərlə üzləşirlər. Bəzən bu problemlər həll olunmadıqda müvafiq qadınların və onların uşaqlarının həyatı üçün faciəli nəticələrə gətirib çıxarır. Əməkçi miqrantların həyat yoldaşlarının üzləşdiyi səciyyəvi hüquqi məsələlər aşağıdakılardan ibarətdir:

- Xaricdə işləyən kişi miqrantlar öz ailələrinə maddi kömək göstərmirlər;
- Qadınlar həyat yoldaşları, onların işi və ya sağ olub-olmaması barədə məlumatlara malik deyillər. Onların itkin düşməsi və ya ölümü barədə məhkəmə qərarı mövcud deyil;
- Həyat yoldaşları ilə heç bir əlaqəsi olmayan qadınlar bu cür nikahların qanuni yollarla pozulmasında çətinliklərə rast gəlirlər. Onlar nikahın pozulmasına nail olsalar da, əmlak bölgüsü məsələlərində çətinliklərlə üzləşirlər;
- Faktiki münasibətlər olmadan rəsmi nikahın mövcud olması müvafiq qadınlara və onların ailə üzvlərinə müəyyən sosial müavinətlərdən faydalanması üçün maneələr törədir. Məsələn, bu ünvanlı dövlət sosial yardımı almaqda problemlər yaradır;
- Atanın yaşayış yeri barədə məlumat olmadıqda onun yaşı 18-ə çatmamış uşaqlarının (məsələn, təhsil almaq və ya müalicə olunmaq məqsədilə) xaricə getməsində müəyyən problemlər yaranır, çünki Miqrasiya Məcəlləsinin 11.2-ci maddəsinə əsasən yetkinlik yaşına çatmayan vətəndaş ölkədən valideynlərinin biri ilə getdikdə digər valideynin notariat qaydasında təsdiq edilmiş razılığı tələb olunur. Yetkinlik yaşına çatmayan vətəndaş ölkədən tək getdikdə valideynlərinin, valideyn himayəsindən məhrum olduqda isə onu övladlığa götürən şəxsin, himayəçisinin və ya qəyyumunun notariat qaydasında təsdiq edilmiş razılığı tələb olunur. Həmin şəxslərdən birinin razılığı olmadıqda, yetkinlik yaşına çatmayan vətəndaşın ölkədən getməsi məsələsi məhkəmənin qərarı əsasında həll edilir.

Müvafiq milli qanunvericilik nəzərdən keçirilərkən öz miqrant ərlərilə faktiki əlaqələri olmayan qadınların daha çox üşləşdikləri problemlərin burada sadalananlardan ibarət olduğu müəyyənləşmişdir: nikahın pozulması, (həyat yoldaşının yaşayış yerinin müəyyənləşdirilməsi və ya onun tərəfindən razılığın verilməməsi ilə bağlı problemlər səbəbindən) həyat yoldaşının razılığı olmadan uşağın xaricə göndərilməsi, dövlət tərəfindən verilən yardımlardan faydalanma (aztəminatlı ailələr üçün ünvanlı dövlət sosial yardımı) və birgə əmlak hüququnun həyata keçirilməsilə bağlı yaranan problemlər.

Bu cür problemlərin mövcudluğu bizim layihə çərçivəsində 21 ailəyə hüquqi yardımın göstərilməsi zamanı faktlar əsasında bir daha təsdiq olunmuşdur. Qadınların çoxu (18-i) ünvanlı dövlət sosial yardımının əldə olunması, nikahin pozulması və/və ya aliment alınması (3 qadın), əlilliyi olan ailə üzvlərinə müavinətin ödənilməsi (1 qadın), uşağa doğum haqqında şəhadətnamənin verilməsi (1 qadın) və əvvəlki iş yerinə qaytarılması (1 qadın) ilə bağlı kömək istəmişdir. Bir neçə qadın konsultantlara çoxsaylı xahişlərlə müraciət etmişdir.

### 3.1. Nikaha xitam verilməsi[56]

Xaricdəki miqrantların uzun müddət ərzində öz ailələrilə əlaqə saxlamaması səbəbindən onların həyat yoldaşlarının bu cür miqrantlarla rəsmi şəkildə boşanması zərurətinin yarandığı tədqiqat zamanı bir çox hallarda müəyyən edilmişdir. Azərbaycan Respublikası Ailə Məcəlləsinin müvafiq maddələrinə əsasən ər öldükdə, yaxud məhkəmə qaydasında ölmüş elan edildikdə nikaha xitam verilir. Ərin (arvadın) və ya onların hər ikisinin ərizəsi əsasında, eləcə də məhkəmə qaydasında fəaliyyət qabiliyyəti olmayan hesab edilən ərin (arvadın) qəyyumunun ərizəsi əsasında nikaha xitam verilə bilər.

Nikahın pozulması, bu Məcəllənin 19-21-ci maddələrində nəzərdə tutulmuş hallarda müvafiq icra hakimiyyəti orqanı tərəfindən həyata keçirilir. Eyni zamanda nikah müvafiq məhkəmə qərarı əsasında pozulur.

Ər-arvadın yetkinlik yaşına çatmayan ümumi uşaqları olmadıqda, nikah onların razılığı əsasında müvafiq icra hakimiyyəti orqanında pozula bilər.

Yetkinlik yaşına çatmayan ümumi uşaqlarının olmasından asılı olmayaraq ərin (arvadın) ərizəsi əsasında nikahın pozulması aşağıdakı hallarda müvafiq icra hakimiyyəti orqanında aparılır:

- ər məhkəmə qaydasında itkin düşmüş hesab edildikdə,
- ər məhkəmə qaydasında fəaliyyət qabiliyyəti olmayan hesab edildikdə,

***Ərin/arvadın razılığı olmadıqda nikahın pozulması***

Ər-arvadın birgə yaşamasının və ailənin saxlanmasının qeyri-mümkünlüyü məhkəmə tərəfindən müəyyən edildikdə, nikah məhkəmə qaydasında pozulur.

Tərəflərdən birinin nikahın pozulması haqqında razılığı olmadıqda, məhkəmə tərəflərin barışması üçün 3 ay müddət müəyyən etməklə işi təxirə sala bilər. Barışıq olmadıqda və onlar (onlardan biri) nikahın pozulmasına təkid etdikdə nikah pozulur. Rəsmi şəkildə ölmüş elan edilən və ya itkin düşmüş hesab edilən ər (arvad) gəlib çıxdıqda məhkəmənin müvafiq qətnamələri ləğv olunmaqla, nikah müvafiq icra hakimiyyəti orqanında onların birgə ərizəsinə əsasən bərpa oluna bilər. Tərəflərdən biri yeni nikaha daxil olubsa, nikah bərpa oluna bilməz.

Cavabdehin olduğu yer məlum olmadıqda, məhkəmə cavabdehin məlum olan axırıncı yaşayış yeri üzrə yerli özünü idarə orqanının, müvafiq icra hakimiyyəti orqanının və ya cavabdehin məlum olan axırıncı iş yeri üzrə müdiriyyətin məhkəmə bildirişini aldığını təsdiq edən qeyd yazılmış məhkəmə bildirişi məhkəməyə daxil olduqdan sonra işə baxmağa başlayır. Dövlət mənafeyi ilə əlaqədar irəli sürülən, habelə aliment alınması, şikəst etmə və ya səhhəti zədələmə, yaxud ailəni dolandıranın ölümü ilə vurulan ziyanın ödənilməsi haqqında tələblər üzrə cavabdehin olduğu yer məlum olmadıqda, məhkəmə hüquq mühafizə orqanları vasitəsilə cavabdehin axtarışını elan etməyə borcludur.

---

[56] Azərbaycan Respublikasının Ailə Məcəlləsinə əsasən, *"nikah" kişi ilə qadının ailə qurmaq məqsədi ilə müvafiq icra hakimiyyəti orqanında* (Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Baş Qeydiyyat İdarəsində) *qeydiyyata alınan könüllü ittifaq* kimi müəyyən edilmişdir. Lakin Azərbaycan Respublikasının müvafiq normativ hüquqi aktlarında "boşanma" və "nikaha xitam verilməsi" anlayışlarının dəqiq hüquqi açıqlanması verilmir. Əksər hallarda bu iki termin bir qayda olaraq bir-birini əvəz etmək üçün istifadə olunur. Ailə Məcəlləsində istər "boşanma", istərsə də "nikaha xitam verilməsi" anlayışları nikah bağlamış şəxslərin (ər-arvadın) evli olmasına xitam verildiyini təsvir etmək üçün istifadə olunur. Eyni zamanda nikaha xitam verilməsinin əsasları kimi ər/arvadın ölməsi, yaxud məhkəmə qaydasında ölmüş elan edilməsi, həmçinin ərin/arvadın və ya onların hər ikisinin ərizəsi, eləcə də məhkəmə qaydasında fəaliyyət qabiliyyəti olmayan hesab edilən ərin/arvadın qəyyumunun ərizəsi göstərilir. Bu hesabatda da eyni mənaya malik olan həmin terminlər bir-birini əvəz etmək üçün istifadə olunur.

Cavabdehin axtarışı ilə əlaqədar xərclərin tutulması axtarışın aparılması həvalə edilən orqanın ərizəsinə əsasən məhkəmə əmrinin verilməsi yolu ilə həyata keçirilir (Azərbaycan Respublikası Mülki Prosessual Məcəllənin 147 və 148-ci maddələri). Deməli, ərləri miqrant olan və ya (itkin düşmüş) ərlərinin olduğu yer barədə heç bir məlumatı olmayan qadınlar onların nikahlarının pozulması üçün çox mürəkkəb və maddi vəsait tələb edən bir prosedurdan keçməlidirlər.

İlk növbədə cavabdehin (ərin) axtarışı elan edilməlidir. Lakin Mülki Prosessual Məcəllənin 147 və 148-ci maddələrində nikahın pozulması üçün itkin düşmüş ərin axtarışının elan edilməsinə aid hansısa müddəalar əks olunmayıb. Bu maddələr yalnız alimentin alınması məqsədilə ərin axtarışının elan edilməsini nəzərdə tutur. Tərəflərdən birinin razılığı olmadan nikah pozularsa, əmlak bölgüsü ilə bağlı məsələlər bir qayda olaraq öz həllini tapmır.

Yuxarıda qeyd olunan maddələrə əsasən faktiki nikah əlaqələrində olmayan və ya əri barədə heç bir məlumatı olmayan qadın ərinin ölmüş və ya itkin düşmüş elan edilməsi üçün məhkəməyə müraciət edə bilər.

Şəxsin ölmüş və ya itkin düşmüş elan edilməsinə aid prosedur Azərbaycan Respublikasının Mülki və Mülki Prosessual Məcəllələrilə tənzimlənir.

Şəxsin itkin düşmüş hesab edilməsi proseduru Azərbaycan Respublikası Mülki Məcəlləsinin 40-cı maddəsilə tənzimlənir. Beləliklə, əgər şəxsin olduğu yer məlum deyilsə və 2 ildən çox bir müddət ərzində o, yaşayış yerində görünməmişdirsə, maraqlı şəxslərin ərizəsinə əsasən məhkəmə fiziki şəxsi itkin düşmüş hesab edə bilər.

İtkin düşmə haqqında son məlumatların alındığı günü müəyyənləşdirmək mümkün olmadıqda, itkin düşmüş sayılma üçün müddətin hesablanması itkin düşmüş haqqında son məlumatların alındığı aydan sonrakı ayın birinci günündən başlanır. Həmin ayı müəyyənləşdirmək mümkün olmadıqda isə şəxsin itkin düşmüş vəziyyətdə olması tarixi növbəti ilin yanvar ayının 1-dən hesablanır.

İtkin düşmə haqqında məhkəmənin qərarı qanuni qüvvəyə mindikdən sonra həmin şəxsin qanuni vərəsələri itkin düşmüşün əmlakını etibar olunmuş əmlak kimi idarə etmək, o cümlədən ondan fayda götürmək ixtiyarı əldə edirlər. Bu əmlakdan itkin düşmüşün öhdəsində olan şəxslərə dolanacaq xərcləri verilir və borclar ödənilir.

İtkin düşmüş şəxsin qanuni əmlakının daimi idarə edilməsi zərurəti yarandıqda, əgər onun qanuni vərəsələri yoxdursa, məhkəmənin qərarı ilə bu əmlak qəyyumluq və himayəçilik orqanı tərəfindən müəyyənləşdirilən və həmin orqanla bağlanan etibarnamə ilə idarəetmə müqaviləsi əsasında fəaliyyət göstərən şəxsə verilir.

İtkin düşmüş şəxsin əmlakının idarəçisi itkin düşmüş şəxsin əmlakı hesabına onun borclarını ödəyir, əmlakı həmin şəxsin xeyrinə idarə edir, itkin düşmüşün öhdəsində olan şəxslərə dolanacaq xərcləri verir. Əgər idarəçinin təyin edildiyi gündən 3 il keçənədək şəxsin itkin düşmüş hesab edilməsi haqqında məhkəmə qərarı ləğv edilməzsə və şəxsin ölmüş sayılması haqqında məhkəməyə müraciət edilməzsə, qəyyumluq və himayəçilik orqanı fiziki şəxsin ölmüş sayılması haqqında ərizə ilə məhkəməyə müraciət etməyə borcludur.

İtkin düşmüş şəxs gəldikdə və ya onun olduğu yer aşkar edildikdə məhkəmə onun itkin düşmüş hesab edilməsi haqqında qərarı, habelə onun əmlakının idarə olunması haqqında qərarı ləğv edir.

Ölmüş elan edilən və ya itkin düşmüş hesab edilən ər/arvad gəlib çıxdıqda məhkəmənin müvafiq qətnamələri ləğv olunmaqla, nikah müvafiq icra hakimiyyəti orqanında onların birgə ərizəsinə əsasən bərpa oluna bilər.

Azərbaycan Respublikası Mülki Prosessual Məcəlləsinin 147-ci maddəsinə əsasən cavabdehin faktiki olduğu yer məlum olmadıqda, məhkəmə cavabdehin məlum olan axırıncı yaşayış yeri üzrə yerli özünü idarə orqanının, müvafiq icra hakimiyyəti orqanının və ya cavabdehin məlum olan axırıncı iş yeri üzrə müdiriyyətin məhkəmə bildirişini aldığını təsdiq edən qeyd yazılmış məhkəmə bildirişi məhkəməyə daxil olduqdan sonra işə baxmağa başlayır.

Azərbaycan Respublikası Mülki Prosessual Məcəlləsinin 148-ci maddəsinə əsasən dövlət mənafeyi ilə əlaqədar irəli sürülən, habelə aliment alınması, şikəst etmə və ya səhhəti zədələmə, yaxud ailəni dolandıranın ölümü ilə vurulan ziyanın ödənilməsi haqqında tələblər üzrə cavabdehin olduğu yer məlum olmadıqda, məhkəmə polis orqanları vasitəsilə cavabdehin axtarışını elan etməyə borcludur. Cavabdehin axtarışı ilə əlaqədar xərclərin tutulması axtarışın aparılması həvalə edilən orqanın ərizəsinə əsasən məhkəmə əmrinin verilməsi yolu ilə həyata keçirilir.

Şəxsin itkin düşmüş hesab edilməsi və ya ölmüş elan edilməsi haqqında ərizə ərizəçinin yaşadığı yer üzrə verilir. Ərizədə şəxsi itkin düşmüş hesab etməyin və ya ölmüş elan edilməsinin ərizəçiyə nə məqsəd üçün lazım olduğu göstərilməli, habelə şəxsin itkin düşməsini təsdiq edən hallar, yaxud itkin düşənin ölüm təhlükəsi qarşısında olmasını və ya onun müəyyən bədbəxt hadisədən həlak olmasını güman etməyə əsas verən hallar şərh edilməlidir.

Sözügedən ərizə məhkəməyə yazılı şəkildə verilir. O, iddiaçı və ya onun bunu imza etməyə səlahiyyəti olan nümayəndəsi tərəfindən imzalanır. Ərizədə aşağıdakılar göstərilməlidir: ərizənin verildiyi məhkəmənin adı, işdə iştirak edən şəxslərin adları, onların poçt ünvanları.

Ərizə verildikdən sonra hakimin hərəkətləri aşağıdakılardan ibarətdir: hakim işi məhkəmə baxışına hazırladıqda hansı şəxslərin itkin düşən barədə məlumat verə biləcəyini aydınlaşdırır, itkin düşənin məlum son yaşayış yeri və iş yeri üzrə müvafiq təşkilatlardan, həmçinin polis orqanlarından onun haqqında olan məlumatları alır. Hakim ərizəni qəbul etdikdən sonra, itkin düşən şəxsin əmlakının yerləşdiyi yer üzrə müvafiq icra hakimiyyəti orqanına onun əmlakını idarə etmək üçün şəxs (qəyyum) təyin etməyi təklif edə bilər.

Şəxsin itkin düşmüş hesab edilməsi barədə məhkəmə qətnaməsi, itkin düşənin əmlakının idarə olunması üçün müvafiq icra hakimiyyəti orqanının müqavilə bağladığı şəxsə (qəyyuma) verilməsi üçün əsasdır.

Şəxsi ölmüş elan edən məhkəmə qətnaməsi müvafiq icra hakimiyyəti orqanı tərəfindən vətəndaşlıq vəziyyəti aktlarının qeydiyyatı kitabına şəxsin ölməsi barədə qeyd etmək üçün əsasdır. Əgər şəxsin yaşayış yerində onun harada olması barədə 5 ildən çox müddət ərzində məlumat olmazsa, habelə o, ölüm təhlükəsi törədən və ya hansısa bədbəxt hadisədən həlak olduğunu güman etməyə əsas verən şəraitdə itkin düşərsə və ondan 6 ay ərzində xəbər çıxmazsa, o, məhkəmə qaydasında ölmüş elan edilə bilər.

Şəxsin ölmüş elan edilməsi haqqında məhkəmə qərarının qanuni qüvvəyə mindiyi gün onun ölüm günü sayılır. İtkin düşmüş hesab edilən və ya ölmüş elan edilən şəxs gəldikdə və ya onun olduğu yer aşkar edildikdə, məhkəmə yeni qətnamə ilə özünün əvvəl çıxarmış olduğu qətnaməsini ləğv edir. Bu qətnamə müvafiq olaraq əmlakın idarə edilməsinin ləğvi üçün və vətəndaşlıq vəziyyəti aktlarının qeydiyyatı kitabında şəxsin ölməsi barədə qeydin ləğv edilməsi üçün əsasdır.

Təcrübədə qadın tərəfindən öz ərinin ölmüş və ya itkin düşmüş elan edilməsi mürəkkəb bir prosesdir. Əksər hallarda qadınlar öz həyat yoldaşları barədə heç bir məlumata malik olmurlar, həyat yoldaşının qohumları isə onun haqqında bildiklərini arvadına demirlər. Lakin məhkəməyə ərizə ilə müraciət olunduqdan sonra bu qohumlar məhkəməyə məlumat verirlər.

Bütün bunlara baxmayaraq, müəyyən hallarda xaricdə yaşayan və faktiki nikah münasibətləri olmayan həyat yoldaşı ilə boşanmaq qadınlar üçün çox çətin bir məsələdir. Belə hallar baş verdikdə istər qadınlar, istərsə də uşaqlar üçün ciddi problemlər yaranır.

### 3.2. Əmlak bölgüsü

Azərbaycan Respublikası Mülki Məcəlləsinin 225-ci maddəsinə əsasən ərlə arvadın nikah dövründə qazandıqları əmlak, əgər nikah kontraktında və ya onlar arasındakı razılaşmada ayrı qayda nəzərdə tutulmayıbsa, onların ümumi mülkiyyətidir.

Yuxarıda qeyd olunan Məcəllənin 225.4-cü maddəsinə görə ər-arvaddan hər birinin əmlakı o halda onların birgə mülkiyyəti sayıla bilər ki, nikah dövründə ərlə arvadın ümumi əmlakı və ya ərin/arvadın şəxsi əmlakı hesabına həmin əmlakın dəyərini əhəmiyyətli dərəcədə artıran vəsait qoyulduğu (əsaslı təmir, yenidənqurma və i.a.) müəyyənləşdirilsin. Əgər nikah kontraktında və ya ərlə arvadın razılaşmasında ayrı qayda nəzərdə tutulubsa, bu qayda tətbiq edilmir.

Həmin Məcəllənin 225.6-cı maddəsinə uyğun olaraq daşınmaz əmlaka birgə hüququ olan ərin/arvadın razılığı olmadan daşınmaz əmlakın dövlət reyestrində qeydə alınmış hüquq barədə bağlanmış müqavilə etibarsız hesab edilir. Bu, həmçinin əldə edənin belə hüququn yalnız müqavilə tərəfinə məxsus olması barədə vicdanlı olduğu hallara da aiddir. Əgər müqavilə üzrə tərəf müqavilənin etibarsızlığını bilirdisə və ya bilməli idisə, əldə edən həmin tərəfdən etibarsızlıqdan irəli gələn zərərin əvəzinin ödənilməsini tələb edə bilər.

Aydın məsələdir ki, miqrant əri xaricdə işləyən qadın birgə əmlak üzərindəki hüquqlarını (satma, icarəyə vermə, girov qoyma və s.) yalnız həyat yoldaşının notarial qaydada təsdiqlənmiş razılığı əsasında həyata keçirə bilər. Miqrant ərlə əlaqə mövcud olduqda o yaranmış vəziyyəti olduğu ölkədə verdiyi və notarial qaydada təsdiq olunmuş yazılı razılıq əsasında, həmçinin xüsusi prosedurlara əməl etməklə həll edə bilər (əgər aidiyyəti 2 ölkə arasında başqa hallar nəzərdə tutulmayıbsa). Bu cür əlaqələr və ya sözügedən miqrantın olduğu yer barəsində məlumatlar mövcud olmadıqda qadın birgə əmlak hüququ əsasında sözügedən mülkiyyətdən faydalana bilməz. Bu cür problemlər təcrübədə tez-tez yaranır.

### 3.3. Sosial müdafiə və yardım

2005-ci il oktyabr ayının 21-də qəbul olunmuş və 2006-cı il yanvar ayının 1-də qüvvəyə minmiş "Ünvanlı dövlət sosial yardımı haqqında" Qanuna və qanunun tətbiqi ilə bağlı qəbul edilmiş digər normativ hüquqi aktlara əsasən ünvanlı dövlət sosial yardımı aztəminatlı ailələrə göstərilir. Bu qanuna əsasən ünvanlı sosial yardım orta aylıq gəliri onlardan asılı olmayan (ailə üzvünün/üzvlərinin əmək qabiliyyətsiz olması, vəfat etməsi, məhkəmə tərəfindən itkin düşmüş və yaxud ölmüş hesab edilməsi, azadlıqdan məhrum edilməsi və s.) səbəblərdən aşağı olan aztəminatlı ailələrə verilə bilər.

Miqrant ərləri xaricdə olan və onlarla faktiki nikah münasibətlərində olmayan qadınlar bu cür yardımla təmin olunma istiqamətində bəzi problemlərlə üzləşə bilərlər. Ünvanlı dövlət sosial yardımı ailənin orta aylıq gəlirilə hər bir ailə üzvü üçün ehtiyac meyarının məcmusu arasındakı fərq məbləğində təyin olunur. Təcrübədə sözügedən qadınlar həyat yoldaşları ilə heç bir əlaqənin olmadığını və ya onlardan heç bir yardım almadığını sübuta yetirməlidirlər. Yuxarıda qeyd olunan Qərarın 2.3.15-ci bəndinə əsasən və digər qanunvericilik aktlarına uyğun olaraq sosial yardımın alınması üçün aztəminatlı ailə başqa sənədlərlə yanaşı məhkəmə tərəfindən ailə üzvünün itkin düşmüş və yaxud ölmüş hesab edilməsi barədə məhkəmə qərarının surətini təqdim etməlidir. Belə bir məhkəmə qərarı mövcud olmadıqda isə Nazirlər Kabineti Qərarının 2.3.16-cı bəndinə əsasən aztəminatlı ailə itkin düşmüş üzvünün axtarışda olması və ya olduğu yerinin məlum olmaması barədə müvafiq orqanın arayışını təqdim etməlidir. Təcrübədə bu cür qərarların və ya arayışların alınması çətin olduğundan ailə hansısa sosial yardım əldə etmək iqtidarında deyil.

Belə olan halda müvafiq qanunvericilik bazasında müəyyən qaydalar və prosedurlar nəzərə alınmalıdır. Qadınlar tərəfindən çoxsaylı arayışların və dəlillərin əldə olunması ilə bağlı bürokratik tələblər asanlaşdırılmalıdır.

Tələb olunan sənədlərin hazırlanması/təqdim olunması istiqamətində qadınların üzləşdiyi problemlər həll olunandır. Bizim layihənin həyata keçirilməsi zaman xaricdəki azərbaycanlı miqrantların Azərbaycanda qalan həyat yoldaşları müvafiq hüquqi yardımdan faydalana bilmişdilər. Lakin həmin qadınlar ünvanlı dövlət sosial yardımını almaq üçün tələb olunan sənədləri hüquqşünas tərəfindən baxılması üçün hələ təqdim etməyiblər. Bu isə onu göstərir ki, hətta müvafiq məsləhətlər

verilsə belə qadınlar mövcud proseduru hələ də çox mürəkkəb hesab edirlər. Yuxarıda qeyd olunan bütün amilləri nəzərə aldıqda qadınların hüquqları, eyni zamanda, bu sahədəki problemləri həll etmək məqsədilə müvafiq müdafiə mexanizmləri və yardım vasitələri və s. məsələlər barədə biliklərinin artırılması tövsiyə olunur.

### 3.4. Xaricə getmək istəyən azyaşlılarla bağlı problemlər

Azərbaycan Respublikasının müvafiq qanunlarına və tərəfdar çıxdığı beynəlxalq müqavilələrinə uyğun olaraq Azərbaycan Respublikasının vətəndaşlarına Azərbaycan Respublikasından getmək və Azərbaycan Respublikasına gəlmək hüququ verilir. Bu hüquqdan azad şəkildə istifadə etmək məqsədilə hər bir müstəqil dövlətin rəmzi olan xüsusi sənədin – Azərbaycan Respublikası vətəndaşının pasportunun tətbiqi nəzərdə tutulur. Vətəndaşlara pasportun verilməsi qaydaları, xaricə daimi yaşayış üçün gedən vətəndaşların hüquqi vəziyyəti, əcnəbilərin Azərbaycan Respublikasına gəlməsi və Azərbaycan Respublikasından getməsi qaydaları Miqrasiya Məcəlləsilə tənzimlənir. Bu Məcəlləyə əsasən yaşı 18-ə çatmamış vətəndaş ölkədən öz valideynlərinin və ya qanuni nümayəndəsinin notarius tərəfindən və ya qanunvericiliklə nəzərdə tutulmuş qaydada təsdiq edilmiş razılığı ilə gedə bilər.

Valideynlərindən birinin razılığı olmadıqda yetkinlik yaşına çatmamış vətəndaşın ölkədən getməsi məsələsi məhkəmənin qərarı əsasında həll edilir. Yaşı 18-ə çatmamış vətəndaşın daimi yaşayış üçün ölkədən getməsi məqsədilə yalnız onun valideynlərinin hər birinin və ya qanuni nümayəndəsinin yazılı şəkildə ifadə edilmiş və notarius tərəfindən və ya qanunvericiliklə nəzərdə tutulmuş qaydada təsdiq edilmiş razılığı tələb olunur.

Miqrasiya Məcəlləsinə əsasən valideynlərinin və ya qanuni nümayəndəsinin razılığı ilə uşaqların xaricə aparılması (və ya göndərilməsi) onların müdafiə olunması üçün hüquqi bir tədbir kimi qəbul olunur və bu cür ciddi bir qaydanın olması müsbət hal hesab olunmalıdır. Lakin təcrübədə valideynlərdən birinin icazə verməkdən imtina etməsi və ya valideyn razılığının əldə edilməsinin qeyri-mümkün olması ciddi problemlərə yol açır. Əksər hallarda xaricdəki miqrant kişilərin Azərbaycanda qalan ailələri oxşar çətinliklərlə üzləşirlər, xüsusən də əgər uşağın xaricə getməsi təxirəsalınmaz bir məsələdirsə onun həlli ciddi bir problemə çevrilir. Bu cür təxirəsalınmaz hallar baş verdikdə məhkəmənin müvafiq qərarını tez bir vaxtda əldə etmək üçün Mülki Prosessual Məcəllədə müəyyən dəyişikliklər edilməlidir.

# IV. XARİCDƏKİ AZƏRBAYCANLI MİQRANTLARIN AZƏRBAYCANDA QALAN HƏYAT YOLDAŞLARI VƏ UŞAQLARININ MÜDAFİƏSİ İLƏ BAĞLI SİYASƏTDƏ VƏ YARDIM MEXANİZMLƏRİNDƏ BOŞLUQLAR

## 4.1. Gender bərabərliyi və qadın hüquqlarının müdafiəsi

Bu hesabatla əhatə olunan dövr ərzində Azərbaycan Hökuməti gender bərabərliyinin və qadın hüquqlarının təmin olunması istiqamətində mühüm addımlar atmışdır. Ölkə Parlamenti *"Qadınların siyasi hüquqları haqqında"* və *"Nikaha daxil olma, nikaha daxil olmaq üçün minimal yaş həddi, nikahların qeydə alınması haqqında"* Konvensiyaları, həmçinin *"Gender (kişi və qadınların) bərabərliyinin təminatları haqqında"* Qanunu və s. hüquqi sənədləri qəbul etmişdir. Bundan başqa, Azərbaycan Respublikası *"Qadınlara qarşı ayrı-seçkiliyin bütün formalarının ləğv edilməsi haqqında"* 1995-ci il tarixli Konvensiyaya (CEDAW) və BMT-nin Qadın Hüquqları Komitəsinə fərdi şikayətlə müraciət etmək imkanı verən CEDAW-ın 2001-ci il tarixli Birinci Fakultativ Protokoluna qeyd-şərtsiz qoşularaq onları ratifikasiya etmişdir.

*"Gender (kişi və qadınların) bərabərliyinin təminatları haqqında"* Qanun kişi və qadınlara ictimai həyatın siyasi, iqtisadi, sosial, mədəni və digər sahələrində bərabər imkanların yaradılmasını təmin etsə də, (Maddə 1) təəssüflər olsun ki, ailədə və başqa növ şəxsi münasibətlərdə gender bərabərliyinin təmin olunmasını nəzərdə tutmur.

*"Məişət zorakılığının qarşısının alınması haqqında"* Qanunun (2010-cu il) qəbul edilməsi gender bərabərliyinin təmin edilməsi və qadın hüquqlarının müdafiə olunması istiqamətində Azərbaycan Hökuməti tərəfindən atılmış növbəti əlamətdar bir addım idi. Bu Qanun məişət zorakılığının qarşısının alınmasına dair dövlət siyasətin əsas prinsiplərini təsbit edərək məişət zorakılığı ilə qadınlara qarşı ayrı-seçkilik arasında birbaşa əlaqənin mövcud olmasına diqqət yetirir.

Qadın hüquqları ilə bağlı bütün dövlət siyasətlərinin əlaqələndirilməsi işi 2006-cı ildə yaradılmış AQUPDK tərəfindən həyata keçirilir. Öz Əsasnaməsinə uyğun olaraq, AQUPDK ailə, qadın və uşaq problemləri ilə iş sahəsində dövlət siyasətini və tənzimlənməsini həyata keçirən mərkəzi icra hakimiyyəti orqanıdır. Komitənin vəzifələri insan hüquqlarının və vətəndaş azadlıqlarının, xüsusilə uşaq və qadın hüquqları və azadlıqlarının müdafiə olunmasını, müvafiq sahədə normativ tənzimləmənin həyata keçirilməsini, qadınlarla bağlı dövlət proqramları layihələrinin işlənib hazırlanması və həyata keçirilməsi işində iştirakı, digər icra hakimiyyəti orqanlarının müvafiq sahə ilə bağlı fəaliyyətinin əlaqələndirilməsini və müvafiq sahəyə ayrılan büdcə vəsaitləri, kreditlər, qrantlar və digər maliyyə vəsaitlərindən təyinatı üzrə səmərəli istifadə olunması üçün tövsiyələrin hazılanmasını nəzərdə tutur.[57]

Son illər dövlət sektorunun müxtəlif səviyyələrində gender məsələlərinin prioritetləşdirilməsi strategiyasının həyata keçirilməsi bu sahə ilə bağlı informasiyanın toplanması, nazirliklərdə və dövlət komitələrində gender məsələləri üzrə məsul şəxslərin təyin edilməsi, həmçinin müvafiq siyasət və proqramların işlənib hazırlanması zamanı gender təhlilinin həyata keçirilməsilə nəticələnmişdir.[58] 2008-2015-ci illərdə Azərbaycan Respublikasında yoxsulluğun azaldılması və davamlı inkişaf Dövlət Proqramı digər məsələlərlə qarşılıqlı əlaqədə olan gender məsələlərini də özündə əks etdirir və "ölkənin iqtisadi həyatında kişi və qadınlar üçün bərabər iştirak imkanlarının yaradılmasını"[59] öz prioritetlərindən biri kimi müəyyən edir. Proqram "həssas qrupların məşğulluq imkanları-

---

[57] 2013-cü il iyulun 29-da baxılmış "www.scfwca.gov.az" saytı.

[58] A. Vəzirova *"Pilot ərazidə kənd və rayon yerlərində yaşayan qadınların ehtiyaclarının və maraqlarının dəyərləndirilməsi. İctimai və iqtisadi həyatda iştirak", səh. 10-11.* 2011-ci il

[59] *2008-2015-ci illərdə Azərbaycan Respublikasında yoxsulluğun azaldılması və davamlı inkişaf Dövlət Proqramı, səh. 6*

nın genişləndirilməsi istiqamətində qadınlar arasında sahibkarlığın və özünüməşğulluğun inkişaf etdirilməsinə, onların yenidən ixtisaslaşdırılmasına, habelə özəl sektorda işləyənlərin, xüsusilə də qadınların əmək şəraitinin yaxşılaşdırılması və sosial müdafiəsinin gücləndirilməsi üzrə tədbirlər həyata keçirilməsinə" xüsusi diqqət yetirir."[60]

Gender məsələlərinə həssas yanaşmanı özündə əks etdirən digər əsas siyasi sənəd *Azərbaycan Respublikasının Məşğulluq Strategiyasıdır (2006-2015-ci illər).* Bu sənədin bir hissəsi əsasən qadınlardan ibarət həssas qruplara xüsusi diqqət ayırır. Strategiya iş axtaran qadınlar üçün peşə hazırlığı və əlavə təhsil kurslarının həyata keçirilməsini, qadınların sahibkarlıq fəaliyyətinin dəstəklənməsini, çevik məşğulluq formalarının tətbiq edilməsini (natamam iş günü və iş həftəsi, dəyişkən iş qrafiki, evdə iş və s.) və uşaqlı qadınlar üçün iş yerlərinin müəyyənləşdirilməsinin iqtisadi cəhətdən stimullaşdırılmasını nəzərdə tutur.

Bundan başqa, 2012-ci ilin dekabr ayında qəbul edilmiş *"Azərbaycan 2020: gələcəyə baxış"* İnkişaf Konsepsiyası "Gender bərabərliyinin təmin olunması və ailənin inkişafı" adlı xüsusi bir bölməni özündə əks etdirir.

Lakin bütün bunlara baxmayaraq, faktiki olaraq gender bərabərliyi ailələrdə hələ də müşahidə olunmadığından ayrı-seçkiliyin bütün formalarını ləğv etməklə və bərabər imkanlar yaratmaqla gender bərabərliyini təmin etmək məqsədilə qadın hüquqlarının müdafiəsi sahəsində əlavə tədbirlər görülməlidir. Aparılmış tədqiqat azərbaycanlı ailələrdə gender rollarının hələ də üstünlük təşkil etməsi faktını təsdiqləyir. Bu rollar yaşlı nəsildən götürülərək davam etdirilir və dəyişməz normalar kimi qəbul olunur.

### 4.2. Hədəf qrupu üçün müdafiə siyasəti və tədbirlərilə bağlı mövcud vəziyyət

Tədqiqat zamanı əldə olunmuş məlumatlar xaricdəki azərbaycanlı miqrantların Azərbaycanda qalan ailələri və uşaqları üçün nəzərdə tutulan yardım və ya sosial ximət formalarının mövcud olmadığını nümayiş etdirir. Eyni zamanda, tədqiqat bu cür qadın və uşaqlara müvafiq dövlət orqanları və QHT-lər tərəfindən ünvanlı yardımın göstərilməməsi məsələsini ön plana çəkir.

Tədqiqatda iştirak etmiş QHT-lərin nümayəndələri sözügedən hədəf qrupunun onların təşkilatlarının əsas mandatlarına uyğun gəlməməsi səbəbindən bu cür qadın və uşaqları əhatə edən hansısa xüsusi/ünvanlı proqramların/layihələrin gələcəkdə işlənib hazırlanmayacağını bildirmişdirlər.

Hal-hazırda həmin qadınların çox az bir hissəsi müəyyən formalarda yardım əldə etmək üçün dövlət orqanlarına müraciət edir. Yalnız bir neçə qadın ünvanlı dövlət sosial yardımını almaq məqsədilə dövlət orqanlarına üz tutmuşdur. Qadınlardan bəziləri (məşğulluq, hüquq, səhiyyə məsələlərinə aid) məsləhət almaq üçün QHT-lərə müraciət etmişdir. Lakin həmin təşkilatlar konkret olaraq belə qadınlardan ibarət konkret bir qrup üçün hansısa xidmətlər təklif etmirlər. Kömək üçün müraciət edən bu cür qadınların sayının azalması onların problemlərinin həlli istiqamətində müəyyən təşkilatların yardımçı ola bilməməsi nəticəsində yaranan inamsızlıqla izah olunur.

Tədqiqat zamanı aparılmış görüşlərdə iştirak edən mütəxəssislərə, QHT-lərə və tədqiqat institutlarına əsasən əksər hallarda bu qadınlar ya özləri və ya miqrant ərləri üçün iş axtarırlar. *"Biz 3 gün bundan əvvəl Sabirabadda olarkən auditoriyanın ehtiyacları barədə sual verəndə onlar bizə özləri üçün, lakin eyni zamanda ərlərinin geri qayıtması məqsədilə daha çox onlar üçün iş axtardıqlarını bildirdilər"* (II_E5 saylı mütəxəssis). Bu mütəxəssislər xaricdəki azərbaycanlı miqrantların Azərbaycanda qalan ailələrinin ehtiyacının aşağıdakılardan ibarət olduğunu bildirmişdirlər:

---

[60] *2008-2015-ci illərdə Azərbaycan Respublikasında yoxsulluğun azaldılması və davamlı inkişaf Dövlət Proqramı, səh.18*

(i) boşanma, əmlak bölgüsü və s. məsələlərlə bağlı hüquqi məsləhətlərin verilməsi;

(ii) qadınların məşğulluq imkanlarını artıracaq təlim kurslarının keçirilməsi (kompüter və dil kursları və s.);

(iii) iqtisadi sahədə məsləhətlərin verilməsi, xüsusən də imkanların artırılması, iş təklif etməklə köməkliyin göstərilməsi, habelə qadınların biznes qurması və sahibkarlıq fəaliyyətinə cəlb olunması məqsədilə onlarda konkret biznes bacarıqlarının inkişaf etdirilməsi;

(iv) tibbi məsləhətlərin verilməsi;

(v) çətin maddi vəziyyətdə olan ailələr üçün sosial yardımların və xidmətlərin göstərilməsi;

(vi) psixoloji xidmətlərin təşkili;

(vii) heç də az əhəmiyyət kəsb etməyən məlumatlandırma kampaniyalarının keçirilməsi.

Bu cür ailələrin vəziyyətinin monitorinqi xüsusi bir problemdir. Belə ailələr və onların icma səviyyəsindəki vəziyyəti barədə dəqiq faktlar mövcud deyil. Bununla əlaqədar olaraq həmin ailələr barədə daha məlumatlı olmaları tələb olunan və onların dəstəklənməsi üçün çox sayda icma üzvlərini səfərbər etməyi bacaran yerli icra hakimiyyəti orqanları birmənalı şəkildə vacib rol oynamalıdırlar. Eyni zamanda, həmin orqanlar bu cür ailələr haqqında kifayət qədər informasiya təqdim etmək iqtidarında olmalıdırlar.

# YEKUN VƏ TÖVSİYƏLƏR

Azərbaycanda müşahidə olunan mövcud miqrasiya axınları son onilliklər ərzində ümumiyyətlə regionun və konkret olaraq ölkənin iqtisadi, sosial və siyasi sistemində baş verən dəyişikliklər nəticəsində cərəyan edən həddindən artıq mürəkkəb bir prosesdir. Bu, eyni zamanda bütün dünyada baş verən qloballaşma prosesinin bir təzahürüdür. Miqrasiya prosesləri ailənin bir özək kimi bütövlüyü və eyni zamanda, sosial birliyi üçün müəyyən problemlər yaradır.

Aparılmış tədqiqat kişilərin işləmək məqsədilə xaricə miqrasiyası və onların vətəndə qalan ailə üzvlərilə əlaqələrin olmaması və öz ailələrinə maddi kömək etməməsi nəticəsində həmin ailələrin qadınlarla yanaşı uşaqlar üçün də vacib olan bir sıra funksiyalarına mənfi təsirin göstərildiyini üzə çıxarmışdır:

- Ailənin iqtisadi funksiyası. Azərbaycandan olan ailələrdə qadınların böyük bir hissəsi işsizdir və onlar əsasən evdar qadınlardır. Qadın işsiz olduqda onun miqrant əri tərəfindən maddi köməkliyin göstərilməməsi uşaqlarının rifahını təmin etməyə imkan vermir.
- Partnyorlar, o cümlədən, ailə daxilində valideynlərlə uşaqlar arasında mövcud olan bərabərliyə, hörmətə və məhəbbətə əsaslanan emosional dəstəyi, təhlükəsizliyi, müdafiəni və qarşılıqlı dəstəyi təmin edən psixoloji funksiya. Xaricdə işləyən kişilər öz uşaqları və həyat yoldaşları ilə əlaqə saxlamırlar və bu öz növbəsində ailə daxilində emosional sarsıntılara, artan gərginliyə və stressə gətirib çıxarır.
- İrsən alınmış dəyərlərdən irəli gələn və qadınlarla uşaqların şəxsi, alınmış və intim xüsusiyyətlərini formalaşdıran mənsubiyyət və vahidlik hissini təmin edən özünəməxsusluq funksiyası. Faktiki olaraq bütöv ailədən məhrum olunmuş uşaqlar yaşadıqları ailəyə uyğunlaşmalı olurlar.
- Uşağın ona qayğının göstərilməsini və onun böyüməsini təmin etməli olan hər iki valideyni vasitəsilə cəmiyyətə uyğunlaşması ilə əlaqədar funksiya. Uşaqlar öz atalarından heç bir tərbiyə almırlar.

Nə qədər ki, yerdəyişmələri stimullaşdıran səbəblər mövcuddur, o qədər də miqrasiya prosesləri baş verəcək. Bununla əlaqədar olaraq bu məsələni və bu səbəbləri nəzərə almaq vacibdir. Bu baxımdan sözügedən kateqoriyaya aid qadın və uşaqlara ünvanlı yardım göstərmək, ailə özəyini və onun dəyərlərini müdafiə etmək məqsədilə müvafiq sosial strategiyalar tələb olunur.

Ailənin birliyi və bütövlüyünü təmin etmək məqsədilə Azərbaycan Respublikasında işlənib hazırlanan müvafiq miqrasiya siyasətlərində kişilərin xaricə miqrasiyası nəticəsində onların ölkədə qalan ailələrinin vəziyyəti nəzərə alınmalıdır. Belə ailələrin ehtiyacları müxtəlif siyasətlərə (miqrasiya, gender bərabərliyi və ailənin müdafiəsi, sosial təminat və s.) daxil edilməlidir, çünki müəyyən şəraitdə həmin ailələr risk qrupuna çevrilə bilərlər və hal-hazırda müşahidə olunan ərlərin miqrasiya modeli uzunmüddətli mənfi fəsadlarla nəticələnə bilər ki, bu fəsadlar da indidən nəzərə alınaraq minimal bir səviyyəyə endirilməlidir.

Azərbaycan kişilərinin iş üçün xaricə miqrasiyasının mənfi təsirini azaltmaq və onların vətəndə qalan ailə üzvlərinin üzləşdiyi çətin vəziyyətlərinin öhdəsindən gəlmək məqsədilə toplanmış məlumatlar aşağıda təsvir olunmuş tövsiyələri təqdim etmək imkanı verir:

### *MƏRKƏZİ İCRA HAKİMİYYƏTİ ORQANLARI ÜÇÜN:*

- Ehtiyacı olan ailələri müəyyənləşdirmək və qiymətləndirmək, həmçinin “ölkədə qalan ailə” kateqoriyasını əhalinin həssas təbəqəsi kimi tanımaq məqsədilə xüsusi vasitələr tətbiq etmək;
- Uşaqların böyüdülməsi və tərbiyələndirilməsində iştirak etməkdən ibarət atalıq vəzifəsindən boyun qaçıran kişilərin məsuliyyətə cəlb edilməsi üçün konkret mexanizmləri müəyyənləşdirmək;

- Miqrantla onun həyat yoldaşı arasında faktiki əlaqələrin olmamasına dair faktların mövcud olduğu hallarda nikahın pozulması və əmlak bölgüsü üçün mexanizmləri özündə əks etdirən qanunvericilik bazasını təkmilləşdirmək.
- Müvafiq çətinliklərlə üzləşən ailələrin Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən digər aidiyyatı dövlət və qeyri-dövlət orqanları ilə birgə müəyyənləşdirilməsi və qiymətləndirilməsi mexanizmlərini inkişaf etdirmək;
- Xüsusən kənd yerlərində işlə təmin olunmuş qadınların sayının artmasına şərait yaradan və iqtisadi sahədə qadınların səlahiyyətlərinin artırılması ilə bağlı (təhsil, yeni iş yerləri üzrə) proqramları işləyib hazırlamaq;
- Faktlara əsaslanan müdafiə proqramları işləyib hazırlamaq və xaricdəki azərbaycanlı miqrantların Azərbaycanda qalan ailə üzvlərinin ehtiyaclarına uyğun müvafiq (işə düzəltmə, hüquqi məsləhət, o cümlədən, məhkəmədə hüquqi yardım, tibbi məsləhətlər, ailə konsultasiyaları və s.) xidmətlər göstərmək;
- Müxtəlif məlumat kampaniyaları, o cümlədən, təhsil müəssisələrində müvafiq proqramlar vasitəsilə Azərbaycan cəmiyyətində gender bərabərliyini təşviq etmək.

### *YERLİ İCRA HAKİMİYYƏTİ ORQANLARI ÜÇÜN:*

- Sosial sektorda işləyən əməkdaşlar ehtiyacı olan müvafiq ailələri müşahidə edərək onlara aid faktları qeydə almalı və onları mövcud sosial xidmətlərə istiqamətləndirməlidirlər;
- İqtisadi çətinliklərlə üzləşən müvafiq ailələr üçün icmada yaşayan digər ailələr tərəfindən yardım nəzərdə tutan dəstəkverici mexanizmləri inkişaf etdirmək;
- İcma səviyyəsində qərarlar qəbul edərkən gender bərabərliyinə şərait yaratmaq və qadınların rəyini nəzərə almaq.

### *BEYNƏLXALQ TƏŞKİLATLAR VƏ QHT-lər ÜÇÜN:*

- Bütün qadınları, o cümlədən, sözügedən qadınları informasiya ilə və məsləhətlərlə (telefonla və ya on-layn rejimində) təmin edən mərkəzlər yaratmaq;
- Qadınlara hüquqi yardım göstərən xidmətlər yaratmaq; bu cür xidmətlərə ehtiyacı olan qadınlar tərəfindən müraciətlərin sayını artırmaq məqsədilə;
- Həssas qruplar, o cümlədən, müvafiq qadınlar üçün icmadaxili məsləhət xidmətlərini inkişaf etdirmək;
- Xaricdəki miqrantların vətəndə qalan ailələrilə əlaqə saxlamaq imkanlarını yaratmaq;
- Xaricdəki miqrantların vətəndə qalan ailələrinə təsir edən məsələlərə dair məlumatlandırma kampaniyalarını KİV-lərlə və vətəndaş cəmiyyəti təşkilatları ilə birgə həyata keçirmək;
- Aşağıda sadalanan məsələlərə aid tədqiqatlar aparmaq:

  (i) ailə başçılarının miqrasiyasının uşaqlar üçün (psixoloji, sosial, tərbiyəvi, inkişaf, sağlamlıq və s.) fəsadları;

  (ii) xaricdəki azərbaycanlı miqrantların Azərbaycanda qalan yaşlı ailə üzvlərinin vəziyyəti;

  (iii) Azərbaycandan olan əməkçi miqrantların təyinat ölkələrində, xüsusən, Rusiya Federasiyasında vəziyyəti;

  (iv) daxili miqrasiyanın ailələrə və icmalara təsiri;

  (v) həyat yoldaşlarının miqrasiyası səbəbindən ölkədə qalan və boşanmış qadınların müqayisəli təhlili;

  (vi) Azərbaycanın kənd və şəhər yerlərində qadınların şəxsi və ictimai həyatda hüquqları;

  (vii) Azərbaycan ailələrində dəyişikliklərə müvafiq dövlət siyasətlərinin cavab reaksiyası;

  (viii) Azərbaycanda gender siyasətlərinin səmərəliliyi;

- Qadınların iqtisadi sahədə səlahiyyətlərinin və icma tərəfindən qərar qəbul etmə proseslərindəki rolunun artırılmasına dair konkret proqramlara başlamaq;
- Xaricdəki azərbaycanlı miqrantların Azərbaycanda qalan həyat yoldaşlarını əhatə edən qadınlar üçün sahibkarlıq proqramlarını işləyib hazırlamaq;
- Müxtəlif proqramlar, o cümlədən, uşaqlar, qadınlar və s. üçün nəzərdə tutulmuş təhsil proqramları vasitəsilə Azərbaycan cəmiyyətində gender bərabərliyini təşviq etmək.

***DIASPOR TƏŞKİLATLARI ÜÇÜN:***

- Xaricdəki azərbaycanlı miqrantların ölkədə qalan ailələrinə, bu ailələrin əlaqəyə və maddi dəstəyə olan ehtiyaclarına, o cümlədən, uşağın tərbiyə olunmasında atanın iştirakına aid məsələlərlə bağlı məlumatlandırma kampaniyalarını keçirmək.
- Xaricdəki miqrantlarla onların vətənindəki ailələri arasında əlaqə saxlamaq üçün imkanlar yaratmaq.

# ƏDƏBİYYAT


Asiya İnkişaf Bankı, V. Rüstəmov "Mərkəzi və Cənubi Qafqazda beynəlxalq miqrantların pul köçürmələrinə dair tədqiqat – Azərbaycanda Beynəlxalq miqrantların pul köçürmələrinə və yoxsulluğa aid Ölkə Hesabatı". 2007-ci il.

A. Allahverənov, R. Əliyeva, T. Sadıqov "Mərkəzi və Şərqi Avropada miqrasiyanın və kənd-şəhər miqrasiyasının sosial təsiri. Azərbaycan üzrə Ölkə Hesabatı". Aprel 2012-ci il.

R. Əfəndiyev "Azərbaycanda miqrasiya məsələlərinə aid məlumatların toplanması". CARIM East, 2011-ci il

S. Rumyansev "Post-sovet Azərbaycanda diaspor quruculuğu". CARIM East, 2011-ci il.

L. Barbone, M. Bonç-Osmolovskiy, M. Luecke "Şərq Tərəfdaşlığı Ölkələrindən əmək miqrasiyası: inkişaf yolu və daha yaxşı nəticələr üçün siyasət variantları" CASE, 2013-cü il.

L. Barbone, M. Kahanes, K. Tsimmermann "Şərq Tərəfdaşlığı Ölkələrindən Avropa İttifaqına miqrasiya /daha yaxşı gələcək üçün variant". SİAM, 2013-cü il.

Ə. Süleymanov "Əmək miqrasiyasının Azərbaycan ailə təsərrüfatına təsiri". QTRM.

Z. Demendjiyeva "Beynəlxalq miqrasiyaya aid icmallar". 2010-cu il.

V. Tişkov, Z. Zayinçkovskaya, Q. Vitkovskaya "Keçmiş Sovet İttifaqı respublikalarında miqrasiya". BMQK, 2005-ci il.

BMqT "Vətəndən qürbətə: miqrasiyanın motivləri, marşrutları və metodları". 2001-ci il.

BMqT "Azərbaycan Respublikasında miqrasiya prosesləri: ölkə üzrə profillər". 2008-ci il.

I. Qanquli "Azərbaycanda miqrasiya prosesləri: təyinat ölkəsinə keçid?" IREX. Harvard Universiteti, 2010-cu il.

Estoniya Qadın Tədqiqatları və Resurs Mərkəzi, İnsanların Harmonik İnkişafı Cəmiyyəti və TASO Fondu "Cənubi Qafqazda miqrasiya prosesləri: Azərbaycan, Ermənistan, Gürcüstan. 2008-2009-cu illər üzrə sosioloji tədqiqatın nəticələri". 2010-cu il.

Dünya Bankı "Miqrasiya və pul köçürmələrinə dair Faktlar Toplusu". 2011-ci il.

BMTİP "Azərbaycan Respublikasında insan inkişafı haqqında Hesabat 2007. Azərbaycanda gender münasibətləri: meyllər və cəhdlər". 2007-ci il.

USAID "USAID üçün gender qiymətləndirilməsi/Qafqaz/Azərbaycan". 2004-cü il.

F.Vadean, M. Piraçia "Dairəvi miqrasiya və ya həmişəlik qayıdış: miqrasiyanın müxtəlif formalarını nə müəyyən edir?" Kent Universiteti, İqtisadi Sənədlərin Müzakirəsi Fakültəsi. KDPE 09/12, 2009-cu il.

A. Vəzirova "Pilot ərazidə kənd və rayon yerlərində yaşayan qadınların ehtiyaclarının və maraqlarının dəyərləndirilməsi. İctimai və iqtisadi həyatda iştirak". 2011-ci il.

<u>Qanunvericilik sənədləri:</u>

2008-2015-ci illərdə Azərbaycan Respublikasında yoxsulluğun azaldılması və davamlı inkişaf Dövlət Proqramı.

Azərbaycan Respublikasının Məşğulluq Strategiyası (2006-2015-ci illər).

Azərbaycan Respublikasının "Məişət zorakılığının qarşısının alınması haqqında" Qanunu.

Azərbaycan Respublikasının "Gender (kişi və qadınların) bərabərliyinin təminatları haqqında" Qanunu.

"Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyası

Azərbaycan Respublikasının Miqrasiya Məcəlləsi

Statistik məlumatlar:

AQUPK-nın 2013-cü il iyulun 29-da baxılmış "http://www.scfwca.gov.az." saytı.

Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin 2013-cü il iyulun 10-11-də və sentyabrın 11-də baxılmış saytı:

"http://www.stat.gov.az/source/demoqraphy/indexen.php.",

"http://www.azstat.org/publications/azfigures/2012/en/005en.shtml",

"http://www.azstat.org/statinfo/budget_households/en/index.shtml#",

"http://www.stat.gov.az/source/budget_households/indexen.php".

Rusiya Federasiyasının Dövlət Statistika Xidmətinin 2012-ci il sentyabrın 15-də baxılmış "http://www.gks.ru/bgd/regl/bl12-107." saytı.

# ƏLAVƏ

## Əlavə 1. Görüşlər keçirilmiş mütəxəssislər haqqında məlumat

| No. | Təşkilatın adı | Hal-hazırda tutduğu vəzifə | Müvafiq sahədəki təcrübə |
|---|---|---|---|
| II_E1 | Vətəndaşların Əmək Hüquqlarının Müdafiə Liqası | Hüquqşünas | 20 il |
| II_E2 | Qafqaz Tədqiqat Resurs Mərkəzi – Azərbaycan | Baş Proqram rəhbəri | 11 il |
| II_E3 | Müstəqil konsultant | Gender və İnkişaf Məsələləri üzrə beynəlxalq konsultant | - |
| II_E4 | BMTƏF-in Azərbaycan Respublikasındakı Ölkə Nümayəndəliyi | Proqram analitiki (Gender) | 10 il |
| II_E5 | Rasional İnkişaf uğrunda Qadınlar Cəmiyyəti | Sədr | 11 il |

**QEYD:**